RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 128 (9873) 24 iyun 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Prezident İlham Əliyev regionların hərtərəfli inkişafına xüsusi önəm verir




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax rayonuna səfər edib. Səfərə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarətlə başlayan Prezident İlham Əliyev daha sonra Yevlax Olimpiya İdman Kompleksində görülmüş işlərlə tanış olub.**

**Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanış olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yevlax şəhəri qumsüzgəc texnologiyalı sutəmizləyici qurğunun açılışını da edib.**

**Prezident İlham Əliyev həmin gün "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Yevlax" qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin və Yevlaxda "Azərişıq" ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin açılışında iştirak edib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmçinin Yevlax pilot aqroparkının açılışında iştirak edib. Ümumi sahəsi 2.807 hektar, illik istehsal gücü 20 min tondan çox qarışıq meyvə, 20 milyon ədəd damazlıq yumurta və 1 milyon ədəd ting olan bu aqropark ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan dövlət aqroparkıdır.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Goranboy rayonunda "Konstralab Industries" QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak edib. Goranboy rayonunun Qazanbulaq kəndində yaradılan müəssisə gips-karton, astar və üzlük gips məhsulları istehsal edəcək. Müəssisədə il ərzində 10 milyon kvadratmetr gips-karton lövhə, 150 min ton gipsəsaslı quru qarışıqlar istehsal olunacaq.**

2-4

## Azərbaycanın beynəlxalq səviyyədə qəbul edilən uğurları

### Bunlar Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti ilə bağlıdır

Azərbaycanın uğurlu inkişafı beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapır. Məlumdur ki, ölkələrin inkişaf imkanları fərqlidir və bir çox amillər ilə müəyyən edilir. İdman ilə analogiya aparılsa, qeyd etmək olar ki, hər ölkənin öz "çəki kateqoriyası" mövcuddur. "Çəki kateqoriyası"nı müəyyən edən amillərə ölkənin iqtisadi imkanları, ərazisinin ölçüsü, demoqrafiyası, əhalinin sıxlığı və ona oxşar göstəricilər kompleksi aiddir. Şübhəsiz ki, bütün bu göstəricilər ölkənin inkişafı üçün önəmlidir və imkan kimi dəyərləndirilə bilər. Bəzi hallarda bir sahədə imkanların böyük üstünlüyü, məsələn, çox yüksək iqtisadi imkanlar, digər coğrafi və demoqrafik amillərin əhəmiyyətini azalda bilər. Lakin, bir qayda olaraq, bu imkanlar kompleksi çox əhəmiyyətlidir və inkişaf göstəricilərinə böyük təsir göstərə bilirlər. Onların mövcudluğu və zənginliyi beynəlxalq səviyyədə bir qayda olaraq "yüksək", "orta" və "kiçik" kimi dəyərləndirilir. Azərbaycan Respublikasının bu sahədə mövcud imkanları və belə şəraitdə qazanılan nəticələr haqqında məlumatlar cədvəl 1-də təqdim olunub. Cədvəldə təqdim olunmuş bütün məlumatların əsasında BMT, Dünya Bankı, Dünya İqtisadi Forumu və digər beynəlxalq təşkilatların son hesabatları durur.

6

## Laçından Ağdama qədər…

### Şərqi Zəngəzur və Qarabağda tanış olduqları quruculuq mənzərəsi diplomatik korpusun nümayəndələrində böyük təəssürat yaradıb



Azərbaycanın Vətən müharibəsi ilə yaratdığı reallıqlar dünyada qəbul olunur. Çünki dövlətimiz öz haqqını və BMT Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməsini təmin edib. Bu gün qarşıda dayanan əsas vəzifələrdən biri də bu reallıqların dünyaya daha yaxından təqdim olunmasıdır. İndiyə qədər Qarabağ və Şərqi Zəngəzurda keçirilən beynəlxalq tədbirlər bu məqsədə uğurla xidmət edib.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin iyun ayının 20-21-də Şərqi Zəngəzur və Qarabağa səfəri də bu baxımdan mühüm əhəmiyyət kəsb etdi. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiətilə Laçın, Şuşa və Ağdama səfər edən diplomatik korpusun nümayəndələri aparılan bərpa və yenidənqurma işləri ilə yerindəcə tanış olublar. Laçın, Şuşa və Ağdamda tanış olduqları quruculuq mənzərəsi diplomatlarda yaxşı təəssürat yaradıb. "İlk dəfədir ki, Laçına gəlirəm. Bu yerlərin belə gözəl olduğunu heç təsəvvür etməzdim. Yüksək səviyyədə tikinti işlərinin getdiyinin şahidi oldum", - deyə Koreya Respublikasının ölkəmizdəki səfiri Kımqu Kanq mətbuata açıqlamasında bildirib. Polşanın ölkəmizdəki səfiri Pavel Radomski isə səfərin çox təsiredici olduğunu bildirərək deyib: "Mən başa düşürəm ki, insanları öz doğma torpaqlarına qaytarmaq, bu əraziləri onlar üçün hazırlamaq nə qədər çətindir. Bunun öhdəsindən gəlmək üçün buraya qayıdan insanlara təkcə maddi yox, hərtərəfli kömək etmək əzmi tələb olunur. Bu böyük planda irəliləyişin necə getdiyini görmək həqiqətən maraqlıdır. Bu əraziləri yenidən qurmaq, insanları qaytarmaq olduqca məsuliyyətli işdir. Bu işdə uğurlar arzulayıram".

8

## Qlobal nüfuz və yüksək etimad

### BMT-nin Ümumdünya Şəhərsalma Forumu ölkəmizin iqtisadiyyatına yeni nəfəs vermək üçün imkan yaradacaq

Bu gün Azərbaycan daha yaxşı nəticələrə nail olmaq üçün əlindən gələni edir. Azərbaycan hazırda istənilən formatlı konfransların, forumların, idman yarışlarının keçirilməsi üçün ən əlverişli məkanlardan biridir. Məhz buna görə də beynəlxalq təşkilatlar konfranslarının keçiriləcəyi məkanları, ölkələri seçərkən Azərbaycan hər zaman ön sıralarda yer alır. Keçirilən səsvermələrdə ölkəmiz daha çox səs toplayır. Bu da o deməkdir ki, Prezident İlham Əliyevin yürütdüyü müstəqil xarici diplomatiya öz uğurlu bəhrəsini verir.

2026-cı ilin may ayında Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Bakı şəhərində keçirilməsi ilə bağlı verilən qərar da bu prosesin tərkib hissəsidir desək, yanılmarıq. Dünyanın ən böyük təşkilatının



ən mötəbər toplantısının Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilməsi ölkəmizə olan inam və etibarın bariz göstəricisidir. BMT rəhbərliyi əmindir ki, dünyanın ən təhlükəsiz ölkələrindən biri sayılan Azərbaycan bu toplantıya da yüksək səviyyədə evsahibliyi edəcək. Ən azından COP29 nümunəsi yetərlidir...

8

## Regional inkişaf trayektoriyası: nailiyyətlər və gələcəyə baxış

Son 20 ildə regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş 4 dövlət proqramı çərçivəsində regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil etmişdir. Bu vəsaitlər əsasən infrastruktur sahələrin inkişafına yönəldilib. Bu çərçivədə həyata keçirilən tədbirlər nəticəsində yeni yollar, elektrik, qaz və su xətləri çəkilib, minlərlə ailənin sosial şəraiti yaxşılaşdırılıb. Kəndlərdə və rayon mərkəzlərində məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri, digər sosial obyektlər inşa olunub və ya bərpa edilib.

Eyni zamanda kənd təsərrüfatının inkişafı üçün aqroparklar, emal müəssisələri və logistika mərkəzləri yaradılıb, kənd əhalisinin istehsal etdiyi məhsulların bazara çıxışı asanlaşdırılıb. Sənaye zonalarının və iqtisadi klasterlərin yaradılması regional iqtisadiyyatın dayanıqlılığını artıran mühüm amillərdən birinə çevrilib.

Rəqəmsallaşma prosesləri regionların sosial-iqtisadi inkişafının mühüm komponentlərindən biridir. Elektron hökumət, internet üzərindən xidmətlər, rəqəmsal bacarıqların inkişaf etdirilməsi, regionlarda "ASAN xidmət" mərkəzlərinin yaradılması əhalinin dövlət xidmətlərinə əlçatanlığını artırıb, vətəndaş məmnuniyyətinin yüksəlməsinə səbəb olub.

Regionlarda yeni təhsil müəssisələri, universitetlər yaradılıb, gənclərin təhsil alması, asudə vaxtlarının səmərəli təşkili və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilib. Son 20 ildə regionlarda iki universitet, bir institut, səkkiz universitet filialı olmaqla on ali təhsil müəssisəsi yaradılıb və fəaliyyətə başlayıb.

7

◆ Prezident İlham Əliyevin Yevlax rayonuna səfəri

# Prezident İlham Əliyev regionların hərtərəfli inkişafına xüsusi önəm verir

## Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.



## Prezident İlham Əliyev Yevlax Olimpiya İdman Kompleksində görülmüş işlərlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax Olimpiya İdman Kompleksində görülmüş işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına kompleksdə həyata keçirilmiş işlər barədə məlumat verdi.

Bildirildi ki, bu kompleks Prezident İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqram"ı çərçivəsində inşa olunur. Tikintisinə 2024-cü ilin yanvarında başlanılan kompleksin əsas binasında yerləşən universal idman zalı 1100 tamaşaçı tutumuna malikdir. Burada basketbol, voleybol, həndbol, minifutbol, badminton, gimnastika, cüdo, güləş, taekvondo, boks, karate və idmanın digər növləri üzrə məşqlərin və yarışların keçirilməsi nəzərdə tutulur. Binada eyni zamanda 80 nəfərlik iclas zalı, hakim, həkim, məşqçilər, şərhçilər üçün otaqlar, kafe olacaq. Kompleksdə 21 otaqdan ibarət 42 yerlik dördmərtəbəli mehmanxana və restoran da fəaliyyət göstərəcək. Burada 1300 tamaşaçı tutumuna malik tribunası olan, standartlara cavab verən futbol meydançası, həmçinin iki minifutbol meydançası yaradılacaq.

Qeyd edək ki, bu il sentyabr ayının sonunda Azərbaycanda keçiriləcək Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunları zamanı boks idman növü üzrə yarışlar Yevlax Olimpiya İdman Kompleksində təşkil ediləcək.







## Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, magistral yolun Yevlax şəhərindən keçən hissəsində yeraltı piyada keçidinin, səkilərinin, həmçinin magistral yola avtomobillərin ikiistiqamətli giriş-çıxışını təmin edən yanaşma yollarının tikinti işləri başa çatmaq üzrədir. Piyada keçidinin ümumi uzunluğu 48 metr olacaq ki, onun da 37 metri qapalı hissədir. Eni 7 metr olan yanaşma yollarının ümumi uzunluğu isə 3,2 kilometrdir.

Qeyd edək ki, Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsidir. Bu yolun müasir səviyyədə qurulması "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın beynəlxalq nəqliyyat daşımalarında rolunu daha da gücləndirir.

## Prezident İlham Əliyev Yevlax şəhəri qumsüzgəc texnologiyalı sutəmizləyici qurğunun açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax şəhəri qumsüzgəc texnologiyalı sutəmizləyici qurğunun açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Prezident İlham Əliyevə Yevlax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi barədə məlumat verdi.

Bildirildi ki, bu layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 70 min sakinin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihəyə əsasən, Yevlax şəhərində məhsuldarlığı 20 min kubmetr olan içməli sutəmizləyici qurğu, 139 kilometr içməli su şəbəkəsi, 13 minə yaxın abonent birləşməsi, 115 kilometr tullantı su şəbəkəsi və 5 nasos stansiyasının tikintisi planlaşdırılır. Şəhərdə yaranacaq tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə məhsuldarlığı sutkada 12 min 500 kubmetr olan təmizləyici qurğunun tikintisi də nəzərdə tutulub.



Layihəyə uyğun olaraq ötən dövr ərzində şəhəri dayanıqlı içməli su ilə təmin etmək üçün Kür çayının sahilində məhsuldarlığı sutkada 20 min kubmetr olan sürətli qumsüzgəc texnologiyalı təmizləyici qurğunun tikintisi işləri həyata keçirilib. Qurğuda 16 ədəd süzgəc quraşdırılıb, emal prosesindən sonra təmiz suyun toplanması məqsədilə ümumi həcmi 2 min 500 kubmetr olan 2 su anbarı tikilib. Təmizləyici qurğuda zərərsizləşdirmə, əks-yuma prosesinin aparılması üçün xüsusi nasoslar, kompleksin enerji təchizatı məqsədilə transformator və generator quraşdırılıb.

Ardı 3-cü səh.

◆ Prezident İlham Əliyevin Yevlax rayonuna səfəri

# Prezident İlham Əliyev regionların hərtərəfli inkişafına xüsusi önəm verir

## Prezident İlham Əliyev Yevlax şəhəri qumsüzgəc texnologiyalı sutəmizləyici qurğunun açılışında iştirak edib





*Əvvəli 2-ci səh.*

Həmçinin uzunluğu 86 kilometr olan paylayıcı su təchizatı şəbəkəsi inşa olunub, 4 min 230 ədəd ev birləşməsi verilərək sayğac quraşdırılıb.

Qeyd edək ki, Yevlax şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri 1950-1960-cı illərdə yaradılıb. Şəhərin ilkin su mənbələri subartezian quyuları və Kür çayı olmuşdur. Hazırda istismarda olan 15 subartezian quyusunun imkanları tələbatı ödəmirdi. Quyu zonasından şəhərə çəkilmiş ümumi uzunluğu 27 kilometr olan 2 magistral kəmər dəfələrlə cari və əsaslı təmir edilsə də, dayanıqlı su təchizatına imkan vermirdi. Kür çayından nasoslar vasitəsilə götürülən su ilkin təmizlənərək abonentlərə verilirdi. Şəhərin 191 kilometr uzunluğunda mövcud paylayıcı su şəbəkəsi uzun illər istismar olunaraq yararsız vəziyyətə düşdüyündən tələbatı ödəmirdi.

Son illərdə ölkə üzrə əhalinin təmiz içməli suya tələbatının təmin olunması istiqamətində mühüm layihələr icra edilib. Bu müddət ərzində Bakıda Mərkəzi Laboratoriya və 9 regional laboratoriya yaradılıb. Görülmüş işlər nəticəsində ölkədə içməli su təchizatı üzrə itkilər son 20 ildə 62 faizdən 40 faizə qədər azaldılıb. 8,1 min kilometr tullantı və yağış su xətləri inşa edilib. Şəhər, rayon və qəsəbələr üzrə ümumi məhsuldarlığı sutkada 250 min kubmetr olan 28 ədəd tullantı sutəmizləyici qurğu quraşdırılıb. Bakı və Abşeron yarımadası üzrə isə 5 ədəd bu cür qurğu istismara verilib. Bundan başqa, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi də tikilib.

## "Yevlax" qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin açılışı olub






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Yevlax" qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Yevlax" qovşaq yarımstansiyası 60 il əvvəl tikildiyindən tələbatı ödəmirdi. Respublikanın Mərkəzi Aran Regionunun enerji təchizatının yaxşılaşdırılması, istehlakçıların fasiləsiz keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi, enerjisistemin dayanıqlılığının və etibarlılığının artırılması məqsədilə bu yarımstansiya tamamilə yenidən qurulub. Yevlaxın tam, Bərdə və Ucar rayonlarının isə müəyyən hissəsi daxil olmaqla 180 mindən artıq əhalinin elektrik təchizatında, o cümlədən "Varvara" Su-Elektrik Stansiyasında istehsal edilən "yaşıl enerji"nin enerjisistemə ötürülməsində xüsusi əhəmiyyətə malik bu yarımstansiyada 110 kilovoltluq yeni açıq paylayıcı qurğu quraşdırılıb, ərazidə yeni Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.



Yarımstansiyanın iş rejiminə real zaman çərçivəsində nəzarət edilir. Enerji obyekti ən son rəqəmsal texnologiyalara əsaslanan kommutasiya avadanlıqları ilə təchiz edilməklə, elektron resursların kibertəhlükəsizliyi tam təmin olunub. Enerjisistem üzrə bu tip innovativ texnologiyaların tətbiqi planlı və qəza təmiri xərclərini 35 faiz, ehtiyat hissələrə tələbatı 29 faiz, təmir işləri üzrə materialların gözlənilmə vaxtını və ehtiyatların normadan artıq olmasını 30 faiz, normativdən artıq iş saatlarını isə 25 faiz azaltmaqla səmərəliliyi yüksəldir. Burada müasir sayğac-uçot sistemi də quraşdırılıb.

Yarımstansiyanın ərazisində bütün zəruri avadanlıq, qurğu və simulyatorlarla təmin edilən üçmərtəbəli Regional Təlim-Tədris və Laboratoriya Mərkəzi yaradılıb. Mərkəzdə 12 fərqli istiqamət üzrə mühəndis hazırlığı və ixtisasartırma kursları təşkil olunacaq. Bu da bölgədə ixtisaslı kadr hazırlığını təmin etməklə məşğulluğun artırılmasına töhfə verəcək.

Tədris prosesinin əyani keçirilməsi, bilik və bacarıqların daha yaxşı mənimsənilməsi üçün yarımstansiyanın həyətyanı sahəsində transformatorlar, müasir kommutasiya qurğuları, hava və kabel xətlərinin komponentləri ilə tam təchiz edilmiş tədris simulyatoru yaradılıb. Müasir innovasiyalara əsaslanan test-diaqnostika avadanlıqları ilə təchiz olunan Laboratoriya Mərkəzində isə kimya və ekologiya, elektrik avadanlıqlarının sınağı və nəzarət-ölçü cihazlarının kalibrlənməsi laboratoriyaları da fəaliyyət göstərəcək. Laboratoriya Mərkəzi həm də paylayıcı şəbəkə, dəmir yolu infrastrukturu və sahibkarlıq subyektlərinin elektroenergetika avadanlıqlarının test-diaqnostika işlərinin həyata keçirilməsinə dəstək olacaq.

Qeyd edək ki, son beş ildə "AzərEnerji" ASC tərəfindən ümumilikdə 47 yerdə sistem əhəmiyyətli ötürücü yarımstansiya tikilib və ya tam yenidən qurulub, 2.500 kilometr uzunluğunda yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib.

Ölkədə ümumi gücü 3000 meqavatdan artıq elektrik enerjisi istehsal edən 45 stansiya tikilib. Təkcə işğaldan azad edilən ərazilərdə tikilən su-elektrik stansiyalarının sayı 38, gücü isə 307 meqavatdır. Ümumilikdə son illərdə görülən işlər nəticəsində hər kilovat-saata görə sərf edilən şərti yanacaq 284 qramdan 252 qrama düşüb, 2,8 milyard kubmetr təbii qaza qənaət edilib, 1 milyon ton karbon qazı emissiyasının atmosferə atılmasının qarşısı alınıb.

## Prezident İlham Əliyev Yevlaxda Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin açılışında iştirak edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlaxda "Azərişıq" ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına mərkəz barədə məlumat verdi.

Bildirildi ki, İdarəetmə Mərkəzi vasitəsilə kənd təsərrüfatı sahələrinin, dövlət əhəmiyyətli strateji obyektlərin, iaşə və xidmət obyektlərinin, xüsusən də əhalinin elektrik enerjisi təchizatında fasiləsizliyin, dayanaqlılığın və səmərəli idarəetmənin təmin olunması həyata keçiriləcək. Burada 35/10 kV-luq hər birinin gücü 6,3 MVA olan iki güc transformatoru, müasir avadanlıqlarla təchiz olunmuş 35 və 10 kV-luq qapalı paylayıcı qurğular quraşdırılıb.

Mərkəzin elektrik təchizatı üçün "Yevlax" yarımstansiyasından 14 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilib. "Dəliməmmədli", "Kürəkçay", "Ağdaş", "Ağsu", "Tərtər" və "Dəmir Beton Məmulatları" yarımstansiyaları Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinə inteqrasiya olunub. Bununla da vahid mərkəzdən operativ dispetçer xidməti tərəfindən texniki parametrlərin daimi izlənməsi və idarə olunması təmin edilib. Mərkəz elektrik şəbəkələrinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həlli üçün layihələndirilib. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Bütün texnoloji ölçmələrin yüksək dəqiqliyini və vahidliyini təmin edən mərkəzdə şəbəkənin etibarlı istismarı dəstəklənməklə yanaşı, elektrik enerjisinin paylanması zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına da şərait yaranır. Mərkəzdən qidalanan istehlakçıların enerji təchizatında yaranacaq planlı fasilələr barədə onlayn qaydada əvvəlcədən məlumatlandırılması imkanı yaradılıb. Alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulması cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir. Burada əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılması, habelə informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyası həyata keçirilir. Mərkəzdə yerləşən yarımstansiya qapalı tiplidir. Buna görə də istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirildiyindən daimi işçi heyətə ehtiyac olmur. Mərkəzin ərazisində əhaliyə xidmət göstərmək məqsədilə elektromobillər üçün sürətli enerjidoldurma cihazları quraşdırılıb.

Prezident İlham Əliyevin Yevlax rayonuna səfəri

# Prezident İlham Əliyev regionların hərtərəfli inkişafına xüsusi önəm verir

## Yevlax pilot aqroparkı istifadəyə verilib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax pilot aqroparkının açılışında iştirak edib.**





AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov aqropark barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2.807 hektar, illik istehsal gücü 20 min tondan çox qarışıq meyvə, 20 milyon ədəd damazlıq yumurta və 1 milyon ədəd ting olan bu aqropark ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan dövlət aqroparkıdır.

Aqropark İqtisadiyyat Nazirliyinin "Orta fermer təsərrüfatının aqrar-sənaye klasterlərinə inteqrasiyası" layihəsi çərçivəsində yaradılıb. Rezidentlər aqroparkda dövlət vəsaiti hesabına zəruri infrastrukturla - su, enerji, qaz və yolla təmin ediliblər. Rezidentlər həmçinin Azərbaycan Biznesinin İnkişafı Fondunun güzəştli kreditindən faydalanıblar.

Səmərəliliyin artırılması üçün aqroparkda "ağıllı" idarəetmə sistemi tətbiq olunur. Bu məqsədlə əkin aparılan bağlarda iqlim stansiyaları, xüsusi kameralar və torpaq nəmlik sensorları qurulub. Aqroparkda 36 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Hazırda 21 rezident tərəfindən həyata keçirilən layihələr çərçivəsində burada meyvə, meyvə tingi, damazlıq yumurta, taxıl məhsulları istehsal olunur. Məhsulların daxili bazarla yanaşı, ixracı da nəzərdə tutulur. Rezidentlər tərəfindən bu günədək aqroparka 57 milyon manatadək investisiya yatırılıb, 200-ə yaxın daimi, 500-ə yaxın mövsümi iş yeri yaradılıb. Aqroparkın konsepsiyasına uyğun olaraq, intensiv meyvə bağlarının salınması, heyvandarlıq, quşçuluq və əkinçilik təsərrüfatlarının, həmçinin sənaye zonasında emal sahələrinin və logistik mərkəzin yaradılması ilə özəl investisiyaların 100 milyon manata çatdırılması, 500 daimi və 1000-dən çox mövsümi iş yerinin yaradılması nəzərdə tutulur. Görülən işlərin davamı olaraq sənaye zonasında logistik mərkəz, emal müəssisələri, eləcə də heyvandarlıq kompleksi və məhsulların topdansatış bazarı da yaradılacaq. Diqqətə çatdırıldı ki, aqroparkın ərazisinin 1.185 hektarını çoxillik əkin, 1.298 hektarını birillik əkin, 141 hektarını sənaye zonası, 183 hektarını isə kommunikasiya xətləri və mühafizə zolaqları təşkil edir.

Prezident İlham Əliyevə aqroparkın ərazisində yerləşən "Azerbaijan company for poultry development" MMC-nin və "İSFA" MMC-nin fəaliyyətləri barədə də məlumat verildi.

Qeyd edək ki, regionların tarazlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətlərindəndir. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar mühit, güzəşt, imtiyaz və stimullar regionlarda müsbət iqtisadi dəyişiklikləri və nailiyyətləri təmin edir. Elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan bu cür müasir infrastruktur aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsul istehsalında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, hazırda ölkədə 9 sənaye parkı və 4 sənaye məhəlləsi fəaliyyət göstərir. Sənaye zonaları üzrə ümumi investisiya həcmi 8 milyard manatdan çox olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 7 milyard manata yaxın investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb. 2015-ci ildən 2025-ci ilin I rübü də daxil olmaqla sənaye zonalarında ümumilikdə 16 milyard manatdan artıq məhsul satışı həyata keçirilib, bunun 5 milyard manatdan çox hissəsi ixrac edilib.

## Prezident İlham Əliyev Goranboy rayonunda tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Goranboy rayonunda "Konstralab Industries" QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak edib.**



AZƏRTAC xəbər verir ki, Goranboy rayonunun Qazanbulaq kəndində yaradılan müəssisə gips-karton, astar və üzlük gips məhsulları istehsal edəcək. Müəssisədə il ərzində 10 milyon kvadratmetr gips-karton lövhə, 150 min ton gipsəsaslı quru qarışıqlar istehsal olunacaq. Müasir avadanlıqla təchiz olunan müəssisədə istehsal edilən məhsulların yerli bazarda satışı ilə yanaşı, bir neçə ölkəyə ixracı da nəzərdə tutulur. Burada 200 nəfər daimi işlə təmin ediləcək. İstehsal zamanı istifadə edilən əsas xammal - yerli gips daşı Azərbaycanın müxtəlif regionlarındakı yataqlardan tədarük olunacaq. Növbəti mərhələdə kalsit və perlit istehsalı xətlərinin qurulması planlaşdırılır ki, bu da məhsulların maya dəyərinin aşağı düşməsinə səbəb olacaq.

Bununla yanaşı, gələcək inkişaf strategiyası çərçivəsində müəssisə fəaliyyətini genişləndirərək metal profil istehsalının təşkilini hədəfləyir. İnvestisiya dəyəri 33 milyon manat olan müəssisənin ümumi sahəsi 5 hektardır. Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən müəssisəyə 3,9 milyon manat güzəştli kredit ayrılıb. İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına müəssisə idxal etdiyi avadanlıqlara görə 900 min manat güzəşt əldə edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm layihələrin icrası ölkə iqtisadiyyatının şaxələndirilməsinə, yeni iş yerlərinin açılmasına, xüsusilə sənayenin müxtəlif sahələrinin davamlı inkişafına böyük təkan verib. Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə müasir sənaye müəssisələri, yeni istehsal sahələri yaradılır, daxili tələbatın ödənilməsində yerli məhsulların payı artır, ixrac imkanları genişlənir. Belə müəssisələrin bölgələrdə yaradılması isə ümumilikdə regionların sosial-iqtisadi inkişafını təmin etməklə, onların iqtisadi potensialının möhkəmləndirilməsində, məşğulluğun artırılmasında da mühüm rol oynayır.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

İcazə verin, ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Qambiya Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan Respublikasının xeyirxah xalqına qardaşlıq salamlarımı və səmimi təbriklərimi çatdırım.

Sizi və bütün Azərbaycan xalqını bu münasibətlə təbrik etmək mənim üçün şərəfdir. Bu əlamətdar bayram xalqın taleyini müəyyən etməyə imkan verən, ölkənin suverenliyini və müstəqilliyini təcəssüm etdirən tarixi bir gündür.

Fürsətdən istifadə edərək, ölkənizin sosial-iqtisadi inkişafla bağlı əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirdiyimi bildirirəm. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan bu gün uğurla inkişaf edən bir ölkədir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Adama BARROU,***
***Qambiya Respublikasının Prezidenti***

# Maliyyə Nazirliyində dövlət qulluğuna qəbul olunan əməkdaşların andiçmə mərasimi olub

**23 İyun - Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Azərbaycan Respublikası Maliyyə Nazirliyində dövlət qulluğuna yeni qəbul edilmiş əməkdaşların andiçmə mərasimi keçirilib.**




Maliyyə naziri Sahil Babayev dövlət qulluqçularının səmərəli fəaliyyətlərinin daim dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 iyun 2025-ci il tarixli Sərəncamına əsasən, nazirliyin 9 nəfər əməkdaşının "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə, 1 nəfər əməkdaşın isə dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə "Əməkdar dövlət qulluqçusu" fəxri adına layiq görüldüyünü bildirib.

Təltif olunmuş əməkdaşlar adından göstərilən ali diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirən nazir S.Babayev indiyədək Maliyyə Nazirliyinin 105 nəfər əməkdaşının Azərbaycan Respublikasının fəxri adları, orden və medalları ilə təltif olunduğunu diqqətə çatdırıb.

Dövlət himni səsləndirildikdən sonra yeni əməkdaşlar and içərək onlara göstərilən etimadı doğruldacaqlarına, vəzifə borclarını vicdanla və məsuliyyətlə yerinə yetirəcəklərinə söz veriblər.

Dövlət qulluğuna yeni qəbul olunmuş şəxslərə xidməti vəsiqələr təqdim edən nazir təltif olunan, eyni zamanda Maliyyə Nazirliyində ilk dəfə daimi dövlət qulluğuna qəbul edilən dövlət qulluqçularını təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin müasir dövlət qulluğu sisteminin yaradılması və inkişafındakı əvəzsiz rolu xüsusi vurğulanıb. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə müasir tələblərə cavab verən dövlət idarəetmə sistemi qurulub və dövlət qulluğu sahəsində vahid dövlət siyasəti formalaşdırılıb.

***"Azərbaycan"***

# Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Baş Prokurorluqda tədbir keçirilib

**Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə keçirilən tədbirdə prokurorluq orqanlarında çalışan dövlət qulluqçuları və veteran dövlət qulluqçuları iştirak ediblər.**






Baş prokuror Kamran Əliyev çıxışında dövlət idarəçiliyində və dövlət qulluğu sahəsində həyata keçirilən islahatların əhəmiyyətini vurğulayıb. O bildirib ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 23 iyunun BMT-nin Dövlət Qulluğu Günü elan olunması nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli Sərəncamı ilə bu tarix ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi təsis edilib.

Qeyd olunub ki, hazırda ölkədə 27 minə yaxın dövlət qulluqçusu fəaliyyət göstərir və onların 30,3 faizini qadınlar təşkil edir. Prokurorluq orqanlarında 650 nəfər dövlət qulluqçusu çalışır ki, onların da 32,6 faizi qadınlardır.

Tədbirdə dövlət qulluğunun hüquqi bazasının təkmilləşdirilməsi, peşəkar və şəffaf idarəçilik sisteminin formalaşdırılması, dövlət qulluqçularının sosial təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən bəhs olunub.

Sonda baş prokurorun əmri ilə peşə bayramı münasibətilə fərqlənən bir qrup dövlət qulluqçusu və veteran əməkdaşlar təltif olunub və onlara hədiyyələr təqdim edilib. Tədbir iştirakçıları dövlət qulluğunun inkişafına, dövlət qulluqçularının fəaliyyətinə göstərilən davamlı diqqət və yüksək qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkürlərini və səmimi minnətdarlıqlarını ifadə ediblər.

# Parlamentlərarası əlaqələrlə bağlı fikir mübadiləsi aparılıb




**İyunun 23-də Milli Məclisin Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu və Səudiyyə Ərəbistanı Şura Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupu arasında onlayn formatda görüş keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Fatma Yıldırım ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin nüfuzlu beynəlxalq platformalarda, eləcə də parlamentlərarası səviyyədə uğurla inkişaf etdiyini vurğulayıb.

O, həmçinin "yaşıl enerji" sahəsində əməkdaşlıq məsələlərinə toxunaraq bərpaolunan enerji sahəsində ölkəmizdə görülən işlərdən danışıb, Azərbaycanın "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası layihəsinin və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə əməkdaşlığımızın əhəmiyyətini vurğulayıb.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Gənclər və idman komitəsinin sədr müavini Könül Nurullayeva, Səudiyyə Ərəbistanı Şura Məclisinin Səudiyyə Ərəbistanı- Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Ali Alşahrani çıxış edərək, dövlətlərimiz arasındakı münasibətlərin əhəmiyyətindən və gələcək inkişaf perspektivlərindən bəhs ediblər.

Görüşdə parlamentlərarası münasibətlərin daha da dərinləşdirilməsi, birgə layihələrin təşviqi və qarşılıqlı səfərlərin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Tədbirdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, deputatlar Ceyhun Məmmədov, Əminə Ağazadə, Səbinə Salmanova, Səudiyyə Ərəbistanı Şura Məclisinin üzvləri iştirak ediblər.

***"Azərbaycan"***

# "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması ilə bağlı ilk iclas



**İyunun 23-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması ilə bağlı yaradılmış komissiyanın ilk iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda Baş nazirin müavinləri - işçi qrupların rəhbərləri, hökumət üzvləri və müvafiq qurumların nümayəndələri iştirak ediblər.

Baş nazir Əli Əsədov bildirib ki, Azərbaycan 44 günlük müharibə və pandemiyadan sonra yaranmış vəziyyətə, yeni şərtlərə və resurslara əsaslanaraq 2021-2030-cu illəri əhatə edən strateji hədəflər müəyyənləşdirib. Bu strateji hədəflər Prezident İlham Əliyevin imzaladığı sərəncamda 5 Milli Prioritet kimi öz əksini tapıb. Milli Prioritetlərin həyata keçirilməsi məqsədilə dövlətimizin başçısının 2022-ci ildə imzaladığı sərəncamlarına əsasən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Böyük Qayıdışa dair I Dövlət Proqramı" qəbul edilib. Strategiyanın həyata keçirilməsi üçün bu günədək dövlət büdcəsindən 7 milyard manat vəsait ayrılıb, nəzərdə tutulmuş tapşırıqlar təqribən 78 faiz səviyyəsində icra olunub.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın ümumi icra faizi təqribən 79 faizdir. Azad olunmuş ərazilərin bərpası üçün 2025-ci il də daxil olmaqla 21,6 milyard manat vəsait ayrılıb. Azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanıb, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunub. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpası həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli qoyulub.

İclasda komissiyanın iş reqlamenti müəyyənləşdirilib, görüləcək işlər və yaxın perspektivdə atılacaq addımlarla bağlı müzakirə aparılıb. Prezidentin sərəncamlarından irəli gələn tapşırıqların maksimum səmərə və keyfiyyətlə, vaxtında icra olunması, alt işçi qrupların iclaslarının ayda bir dəfədən az olmayaraq keçirilməsi, mütəmadi olaraq işin gedişi haqqında məlumat verilməsi tapşırılıb. İclasda strategiya və dövlət proqramının hazırlanması və yekunlaşdırılması üçün konkret vaxt qrafiki müəyyənləşdirilib.

Baş nazir qeyd edib ki, strategiya və dövlət proqramı hazırlanarkən mövcud maliyyə imkanları nəzərə alınmalı, hədəflərin reallaşdırılması üçün nəzərdə tutulan tədbirlər real, dəqiq və ölçüləbilən indikatorlara söykənməli, strategiya və dövlət proqramı hazırlanarkən digər aidiyyəti sənədlər və I Dövlət Proqramında nəzərdə tutulan, daha sonrakı müddətə optimallaşdırılan layihələr nəzərə alınmalıdır.

Əli Əsədov vurğulayıb ki, Strategiyadan və dövlət proqramından irəli gələn konseptual məsələlərin və yekun layihələrin mərhələlərlə İqtisadi Şurada da müzakirəsi nəzərdə tutulur.

Xatırladaq ki, Azərbaycan Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamı ilə "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın 9 ay müddətində hazırlanması üçün Nazirlər Kabinetinə tapşırıq verilib. Həmin tapşırığın icrasının təmin edilməsi məqsədilə imzalanmış Nazirlər Kabinetinin 2025-ci il 18 iyun tarixli Sərəncamına əsasən strategiya və dövlət proqramı üzrə layihələrin hazırlanmasında aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üçün Baş nazirin sədrliyi ilə komissiya yaradılıb və tərkibi təsdiq edilib. Komissiyanın tərkibində strategiyanın və dövlət proqramının hazırlanması üzrə iki işçi qrup yaradılıb və tərkibi təsdiqlənib, Baş nazirin müavinləri - Şahin Mustafayev və Samir Şərifov işçi qrupların rəhbəri təyin olunub.

Strategiyanın hazırlanması məqsədilə 9, Böyük Qayıdış Dövlət Proqramı üzrə isə 4 alt işçi qrup yaradılıb.

Qeyd edək ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, son illərdə əldə olunmuş sosial-iqtisadi nailiyyətlərin davamlı inkişafının təmin edilməsi, birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, əlverişli biznes mühitinin daha da gücləndirilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun artırılması, eləcə də işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın davamlılığının təmin olunması üçün məqsədyönlü siyasət və islahat istiqamətlərinin müəyyənləşdirilməsi vacib hesab olunur.

# Azərbaycan nümayəndə heyəti Şanxay Televiziya Festivalının açılışında iştirak edib

**İyunun 23-də Azərbaycan nümayəndə heyəti Çin Xalq Respublikasının Şanxay şəhərində keçirilən və televiziya sahəsində beynəlxalq əhəmiyyət daşıyan 30-cu Şanxay Televiziya Festivalının (STVF) açılış mərasimində iştirak edib.**




AZƏRTAC xəbər verir ki, Şanxay Televiziya Festivalı televiziya və media sahəsində yaradıcı ideyaların, beynəlxalq əməkdaşlığın və innovativ trendlərin müzakirə olunduğu mühüm platforma kimi qiymətləndirilir. 1986-cı ildən keçirilən və bu il 30-cu yubileyini qeyd edən Şanxay Televiziya Festivalı Şərqi Asiyada ilk televiziya festivalı olmaqla yanaşı, qitənin ən nüfuzlu media tədbirlərindən biri hesab edilir. Festivalın əsas məqsədi televiziya sənayesində yüksəkkeyfiyyətli məhsulların tanıdılması və qlobal media gündəmini formalaşdıran məsələlərin müzakirəsidir.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Media ilə iş sektorunun müdiri Kamran Həsənov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri Vüqar Əliyev və "AnewZ" telekanalının İcraçı direktoru Rüfət Həmzəyev daxildir.

# Şanxay Media Qrupunun baş direktoru və baş redaktoru ilə görüş

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun rəhbərlik etdiyi nümayəndə heyəti Şanxay Media Qrupunun baş direktoru və baş redaktoru Fan Şicon ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Əhməd İsmayılov media sahəsində tərəfdaşlığın gücləndirilməsi və əməkdaşlığın təşviqinin sürətlə dəyişən qlobal informasiya mühitində hər iki ölkə üçün mühüm əhəmiyyət daşıdığını deyib. O, eyni zamanda media sahəsinə məsul qurumlar və media subyektləri arasında təcrübə mübadiləsinin təşkilinin, birgə media layihələrinin həyata keçirilməsinin əhəmiyyətini qeyd edib. Şanxay Media Qrupunun baş direktoru və baş redaktoru Fan Şicon qurumun müasir texnoloji infrastrukturu, televiziya kontentinin planlaşdırılması, istehsalı və yayımı sahələrində tətbiq olunan metodlar, habelə rəqəmsal media mühitində formalaşdırılan innovativ yanaşmalar haqqında ətraflı məlumat verib. O, həmçinin Şanxay Media Qrupunun gələcək hədəflərindən və qlobal informasiya mühitində rəqabət qabiliyyətini artırmaq üçün atılan addımlardan bəhs edib.

Sonra nümayəndə heyəti Şanxay Media Qrupunun efir və montaj otaqları, texnoloji infrastrukturu və rəqəmsal yayım sistemləri ilə yaxından tanış olublar. Qeyd edək ki, Çin Xalq Respublikasına səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Media ilə iş sektorunun müdiri Kamran Həsənov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Vüqar Əliyev və "AnewZ" telekanalının İcraçı direktoru Rüfət Həmzəyev daxildir.

# Azərbaycanın beynəlxalq səviyyədə qəbul edilən uğurları

## Bunlar Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti ilə bağlıdır



**Azərbaycan uğurla inkişaf edir və bunun təməlində Prezident İlham Əliyev tərəfindən həyata keçirilən və dünya üçün tam yeni, ən müasir elmə əsaslanan dövlət idarəçilik siyasəti, onu təmin edən innovativ siyasi texnologiyalar və səmərəli fəaliyyət göstərən dövlət qulluğu sistemi durur. Ölkənin müstəqilliyinin bərpasından tarixi baxımdan çox az vaxt keçməsinə baxmayaraq, Azərbaycan siyasi, iqtisadi, sosial və humanitar sahələrin inkişafında, diplomatik fəaliyyətdə yüksək nəticələr əldə etmiş, bir çox istiqamətlərdə isə dünya liderləri sıralarına yüksəlmişdir.**

Bu proseslərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun dərin düşünülmüş, ardıcıl və fədakar fəaliyyəti nəticəsində müasir müstəqil Azərbaycan qurulmuş, dövlət qulluğu strukturu formalaşmış, dövlət qulluqçularının təhsili və yenidən hazırlanması sistemlərinin səmərəli fəaliyyəti təşkil edilmişdir. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla təkmilləşdirilməsi nəticəsində ölkənin inkişafı tam yeni səviyyəyə yüksəlmişdir. Ölkənin ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi və bununla BMT və digər beynəlxalq təşkilatların çoxsaylı qətnamə və qərarlarının Azərbaycanın gücü və imkanları ilə həyata keçirilməsi bu prosesin diplomatik və informasiya balansının təmin olunduğu şəraitdə reallaşdırılması idarəetmə siyasətinin zirvəsi hesab edilə bilər. Hazırda böyük qayıdış proqramı çərçivəsində işğaldan azad olmuş ərazilərin iqtisadi, sosial, demoqrafik, ekoloji reabilitasiyası böyük sürət və ən müasir texnoloji səviyyədə həyata keçirilir. Bu istiqamətdə də ölkədə aparılan fəaliyyətin dünyada analoqu yoxdur və olmayıb.

Azərbaycanın uğurlu inkişafı beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapır. Məlumdur ki, ölkələrin inkişaf imkanları fərqlidir və bir çox amillər ilə müəyyən edilir. İdman ilə analogiya aparılsa, qeyd etmək olar ki, hər ölkənin öz "çəki kateqoriyası" mövcuddur. "Çəki kateqoriyası"nı müəyyən edən amillərə ölkənin iqtisadi imkanları, ərazisinin ölçüsü, demoqrafiyası, əhalinin sıxlığı və ona oxşar göstəricilər kompleksi aiddir. Şübhəsiz ki, bütün bu göstəricilər ölkənin inkişafı üçün önəmlidir və imkan kimi dəyərləndirilə bilər. Bəzi hallarda bir sahədə imkanların böyük üstünlüyü, məsələn, çox yüksək iqtisadi imkanlar, digər coğrafi və demoqrafik amillərin əhəmiyyətini azalda bilər. Lakin, bir qayda olaraq, bu imkanlar kompleksi çox əhəmiyyətlidir və inkişaf göstəricilərinə böyük təsir göstərə bilirlər. Onların mövcudluğu və zənginliyi beynəlxalq səviyyədə bir qayda olaraq "yüksək", "orta" və "kiçik" kimi dəyərləndirilir. Azərbaycan Respublikasının bu sahədə mövcud imkanları və belə şəraitdə qazanılan nəticələr haqqında məlumatlar cədvəl 1-də təqdim olunub. Cədvəldə təqdim olunmuş bütün məlumatların əsasında BMT, Dünya Bankı, Dünya İqtisadi Forumu və digər beynəlxalq təşkilatların son hesabatları durur.

**Cədvəl 1.** Azərbaycan Respublikasının imkan və nailiyyətlər reytinqləri

| Göstəricilər | Dünyada tutduğu yer | İmkan/Nailiyyət |
|---|---|---|
| İqtisadi imkana görə (hər nəfərə düşən ÜDM) | 75 | İmkan (orta) |
| Davamlı inklüziv inkişaf indeksinə (ən müasir inkişaf göstəricisi) görə | 25 | Nailiyyət (yüksək) |
| Əhalinin sayına görə | 90 | İmkan (orta) |
| Yoxsulluq göstəricisi | 5,5 – 6% (ABŞ 10,4; Birləşmiş Krallıq 12,5; dünya 8,5%) | Nailiyyət (yüksək) |
| Əhalinin sıxlığına görə | 120 | İmkan (orta) |
| Enerji transformasiya İndeksinə görə | 32 | Nailiyyət (yüksək) |
| Əraziyə görə | 112 | İmkan (orta) |
| Hərbi potensiala görə | 60 | Nailiyyət (yüksək) |

Cədvəl 1-dən göründüyü kimi, ölkəmizin iqtisadi imkanları, ərazisinin ölçüsü, əhalinin sayı və sıxlığı dünya ölkələri ilə müqayisədə orta kimi dəyərləndirilə bilər. Buna baxmayaraq, bütün təhlil edilən və digər göstəricilərə görə ölkənin nailiyyətləri beynəlxalq təşkilatların hesabatlarında yüksək kimi qeydə alınır. Bu, ilk növbədə, ölkələrin inkişaf səviyyəsini 12 iqtisadi, sosial, ekoloji, demoqrafik və siyasi indikatorlar əsasında hesablanan inklüziv inkişaf indeksinə aiddir ki, ölkəmiz də bu sahə üzrə dünyada 25-ci yerdədir. Qlobal iqlim dəyişmələrinin qarşısının alınması üçün əhəmiyyətli olan bərpaolunan energetikaya keçidin vəziyyətini əks etdirən enerji transformasiya indeksinə görə isə ölkəmiz 32-cidir. Bu da beynəlxalq təşkilatlar tərəfindən çox yüksək dəyərləndirilir. Bu, eyni zamanda Azərbaycanda sosial sahədə çox yüksək nəticələrin əldə edilməsi və təhlükəsizlik sisteminin formalaşmasına da aiddir.

Dünya dövlətləri ilə müqayisədə ölkəmiz iqtisadi, sosial, demoqrafik və davamlı inkişaf üçün önəmli olan digər imkanlarla təmin olunması üzrə orta səviyyədə olsa da, iqtisadi, sosial, təhlükəsizlik və humanitar inkişaf sahələrində yüksək nailiyyətlər əldə edir və bunun üçün imkanları daha çox olan ölkələri üstələyir. Yenə də idman analogiyası tətbiq edilsə, aydındır ki, "çəki"si nisbətən az olan idmançı daha yüksək "çəkili" ilə rəqabət aparmaq və onu üstələmək üçün xüsusi və fərqli fənlər sahəsində daha dərin bilik və bacarıqlara malik olmalıdır. Ölkələrin rəqabətinə gəldikdə isə, bu fənlərin analoqu dövlət rəhbərinin şəxsiyyəti, onun dövlət siyasəti və idarəçilik texnologiyalarına yeniliklər gətirmək istedadı, effektiv fəaliyyət göstərən dövlət qulluğu sistemini qurmaq qabiliyyətidir.

İdarəçiliyin səmərəliliyi çox sadə bir tənlik əsasında hesablanır (Şəkil 1).




**Şəkil 1.** İdarəetmə səmərəliliyinin ölçmə tənliyi

Şəkil 1-də təqdim edilmiş tənliyin təhlilindən aydın olur ki, nisbətən məhdud, orta imkanlar şəraitində Azərbaycan siyasət və iqtisadiyyatda, sosial və humanitar sahələrdə yalnız yüksək nəticələr qazanır və bu, beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapır. Deməli, bu prosesdə idarə edən şəxsin kim olması olduqca önəmlidir. Azərbaycanda qazanılan uğurların əsasında Prezident İlham Əliyevin unikal fərdi istedadı, yüksək intellekti və müasir elmə əsaslanan dünya üçün tam yeni dövlət idarəçilik siyasəti durur. Bu tələblərə cavab verən dövlət qulluğunun təşkili siyasəti, elmə ayrılan diqqət və dövlət qulluqçularının bu elmə yiyələnərək, fasiləsiz təhsillidən keçir.

Şəkil 2-də ölkəmizdə son onilliklərdə dövlət idarəçiliyində tətbiq edilən və uzunmüddətli davamlı inklüziv inkişaf siyasətinə xidmət edən yeni texnologiyalar kompleksi təqdim edilmişdir.




**Şəkil 2.** Dünya üçün yeni dövlət idarəçiliyi texnologiyalar kompleksi: Azərbaycan Respublikasının təcrübəsi (2003-2025)

Qeyd edilməlidir ki, məqsədlərdən, ölkədə həyata keçirilən iqtisadi, sosial, humanitar və ya ekoloji layihənin xüsusiyyətlərindən asılı olaraq, praktikada bu texnologiyaların hansınınsa istifadəsinə daha çox üstünlük verilə bilər. Lakin bir qayda olaraq, bir neçə texnologiyalar eyni zamanda istifadə olunur ki, o da nəticənin yüksək, resursların isə optimal idarəetməsini təmin edir. Belə yanaşma iqtisadi, sosial, humanitar və ekoloji problemlərin həllini eyni zamanda həyata keçirmək imkanı yaradır və bu səbəbdən dünya prioritetləri olan davamlı inkişaf məqsədlərinə və inklüziv cəmiyyətin formalaşması, müvafiq dövlət qulluğu sisteminin fəaliyyət göstərməsinə xidmət edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi innovativ strateji inkişaf siyasətinin əsasında çoxməqsədli və uzunmüddətli proqnozların qurulması və planların işlənilməsi durur ki, bunlar da rezonans texnologiyanın vacib elementidir. Azərbaycan Respublikasında son onilliklərdə elmə əsaslanan proqnoz və planların əsasında Prezident İlham Əliyevin uzaq perspektivləri görmək istedadı, müxtəlif sahələrdə universal bilikləri, strateji qərar qəbul edilməsi qabiliyyəti, fəaliyyətə keçmək üçün zamanı düzgün seçməkdir. Onun 9 oktyabr 2020-ci ildə dediyi: "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" sözləri bir çox fərqli sahələrdə qazanılmış parlaq uğurların açarıdır.

Azərbaycan ərazi və əhalinin sayına, iqtisadi potensialına görə orta imkanlara malik olduğu halda, inkişafda yüksək nəticələr əldə edir. Bu isə dövlət idarəçiliyinin və dövlət qulluğunda kadr hazırlığının optimal təşkil olunduğundan da xəbər verir. Ölkənin son onilliklər dövlət idarəçiliyində qazanılan uğurların əsasında rezonans texnologiyalar ilə yanaşı, sinergetik və komplementar texnologiyaların kompleks tətbiq edilməsi dayanır. Onların ölkəmizin inkişaf strategiyasında rolu şəkil 3-də təqdim olunub.




**Şəkil 3.** Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti: çoxməqsədli və uzunmüddətli strateji plalaşmada sinergetik, rezonans və komplementar texnologiyalar

Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi sahəsində qazandığı uğurların bir səbəbi də ondadır ki, inkişafın davamlı olması və inklüziv cəmiyyətin formalaşması istiqamətində fəaliyyətlərin planlaşdırılması çoxməqsədli və uzunmüddətlidir. Bunu Azərbaycanın energetika sahəsində "yaşıl transformasiya" və COP29-un keçirilməsi üçün zəmin yaradılması misalında göstərmək olar (Şəkil 4).

Şəkil 4-dən göründüyü kimi, Azərbaycan Respublikasında "yaşıl enerji"yə transformasiya 2004-cü ildə başlamışdı. Həmin ilin sentyabr ayının 21-də Prezident İlham Əliyev xüsusi sərəncam (№ 462) ilə Azərbaycan Respublikasının bərpaolunan enerji üzrə milli proqramını təsdiq etdi. Bu yerdə Azərbaycanın 2004-cü ildə hansı vəziyyətdə olmasını xatırlamaq lazımdır. O zaman ölkə ərazisinin 20 faizi işğal altında idi və 2020-ci ildə ərazi bütövlüyünün, 2023-cü ildə bütün ərazidə suverenliyin bərpası istiqamətində tədbirlər görülür, bunun üçün iqtisadi baza və hərbi quruculuq, ideoloji hazırlıq həyata keçirilirdi. Ölkə əhalisinin 13 faizi qaçqın və köçkün idi və onların çoxsaylı məişət və sosial problemlərinin həlli üçün gərgin fəaliyyət göstərilirdi. Bütün bu məqsədlərə nail olmaq üçün diplomatiya və media sahələrində zəruri işlər aparılırdı. Ölkə enerji ilə tam təmin olunmuşdu, hətta neft və qaz ixrac edirdi. Belə bir şəraitdə Prezidentliyin birinci ilində İlham Əliyevin bərpaolunan enerjinin inkişafı barəsində qəbul etdiyi qərar perspektivli istiqamətlər haqqında dərin biliklərin malik olmasından xəbər verirdi.




**Şəkil 4.** Azərbaycan Respublikasının dövlət idarəçiliyində rezonans və komplementar texnologiyaların nümunəsi: 2004-cü ildən başlayan 20 illik yol - Azərbaycan Respublikası "yaşıl enerji"yə keçidə görə 2024-cü ildə dünyada 32-ci yerdədir, COP29 Bakıdadır.

Bərpaolunan enerjiyə keçid ölkəmizdə sonrakı illərdə də prioritetlər sırasında olmuşdu. Prezident İlham Əliyevin fərmanı ilə (№ 123, 10 noyabr 2009-cu il) ölkədə bu problemlə məşğul olan xüsusi qurum yaradıldı. Ümumiyyətlə, yenilənən enerjiyə keçidin sürətləndirilməsi məqsədilə 2009-2023-cü illərdə ölkədə 14 fərman və sərəncam imzalanmışdır. Prezident İlham Əliyev 9 yanvar 2014-cü ildə Nazirlər Kabinetinin iclasında bir daha qeyd etmişdir: "Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Bu imkanlardan istifadə etməmək, əlbəttə ki, böyük səhv olardı". Bu sözlər deyilən zaman BMT-nin COP29 iqlim konfransının Bakıda keçirilməsinə hələ 10 il qalmışdı.

Dövlət idarəçiliyində müasir elmə əsaslanan, inkişafın davamlı və inklüziv olmasını təmin edən uğurlu siyasi qərarlar və onların əsasında tətbiq edildiyi innovativ texnologiyalar kompleksi qısa zamanda enerji transformasiyasında öz səmərəsini göstərdi. 2023-cü ilin sonunda Cenevrədə Dünya İqtisadi Forumu ölkələrin bərpaolunan energetikaya keçidinin vəziyyəti haqqında hesabat dərc etdi. Bu sahədə göstəricilər 120 ölkədə təhlil edilmişdi və həmin ölkələr arasında Azərbaycan da var idi. Ölkəmiz dünyada 32-ci yerdə qərarlaşıb və bir sıra iqtisadi baxımdan daha yüksək imkanlara malik olan ölkələri geridə qoyub (Şəkil 5).




**Şəkil 5.** Enerji Transformasiya İndeksi (ETİ): Azərbaycan və bəzi "böyük yeddilik" (G7) və Avropa İttifaqı (EU) ölkələri (Mənbə: Dünya İqtisadi Forum, 2023)

Dünya Bankının 2024-cü ildə dərc etdiyi hesabata əsasən, şəkil 5-də təqdim olunmuş bütün ölkələrin iqtisadi imkanları Azərbaycan Respublikasının iqtisadi imkanından ən azı 1,5 - 2 dəfə çoxdur. Buna baxmayaraq, Prezident İlham Əliyevin həyata keçirdiyi müasir dövlət idarəçilik siyasəti və təşkil etdiyi effektiv dövlət qulluğu sistemi ölkəmizin bu sahədə uğurlarını təmin edir.

Ölkədə Birinci vitse-prezident institutunun yaradılması, bu vəzifədə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi qeyd edilməlidir. Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyədə parlaq fəaliyyəti xüsusən iqtisadi nailiyyətləri sosial və humanitar uğurlara səmərəli transformasiya etməsi və bu yolla inklüziv cəmiyyətin formalaşmasına əvəzsiz töhfələr verməsidir. Azərbaycanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqəti ilə fəaliyyət göstərən İnklüziv İnkişaf mərkəzləri, dünyada inklüziv inkişafa həsr olunmuş ilk dərsliyin Azərbaycanda dərc edilməsi də uğurlu sosial siyasətin vacib göstəricisidir.

Bəşəriyyət təkamülünün yeni mərhələsi olan ekoloji sivilizasiyaya keçid sahəsində də ölkəmiz dünya lideridir. Hazırda ölkəmizdə bu istiqamətdə ən uğurlu fəaliyyət IDEA ictimai birliyinin sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva tərəfindən həyata keçirilir.

Azərbaycan "yaşıl enerji"yə keçidi ən səmərəli idarə edən ölkələr sırasındadır (Şəkil 6). Beynəlxalq təşkilatların standartlarına görə, fəaliyyətin səmərəliliyi eyni miqdarda maliyyə vəsaitinin istifadəsi nəticəsində yaradılan məhsulun və ya təqdim olunmuş xidmətlərin dəyəri ilə ölçülür. Beynəlxalq səviyyədə müqayisələr aparmaq üçün maliyyə vəsaiti kimi çox hallarda 1000 ABŞ dolları (AQP, alıcılıq qabiliyyəti prioriteti nəzərə almaqla) götürülür. Səkil 6-da enerji transformasiya sahəsində nailiyyətlərinə görə dünyanın ilk 6 ölkəsi və Azərbaycan Respublikasında ÜDM-in hər 1000 ABŞ dollarına (alıcılıq qabiliyyəti pariteti ilə) qazanılmış ETİ (enerji transformasiya indeksi) dəyəri göstərilmişdir. Təqdim olunmuş məlumatlardan aydın olur ki, Azərbaycanda bu rəqəm müqayisə edilən ölkələrdən 2-4 dəfə çoxdur. Eyni maddi vəsait hesabına daha yüksək nəticənin əldə edilməsinin əsasında Prezident İlham Əliyevin ölkədə tətbiq etdiyi müasir dövlət idarəçilik siyasəti və formalaşdırılmış səmərəli fəaliyyət göstərən dövlət qulluğu sistemi durur.




**Şəkil 6.** Enerji keçidi prosesinin iqtisadi səmərəliliyi: ÜDM-in hər vahidinə (1000 ABŞ dolları, AQP) qazanılmış ETİ (enerji transformasiya indeksi): Azərbaycan Respublikası və bu sahədə dünya lideridir (Mənbə: Dünya İqtisadi Forumu, 2023, Dünya Bankı, 2024).

Azərbaycanda dövlət idarəçiliyi sistemində dünya üzrə ilk dəfə tətbiq edilən sinergetik və komplementar texnologiyaların kompleksi öz səmərəliliyini sosial sahənin inkişafı və inklüziv cəmiyyətin qurulmasında da göstərir (Şəkil 7).

İnklüziv inkişaf indeksi dünya ölkələrinin inkişaf səviyyəsinin ölçülməsi üçün istifadə olunan ən müasir və universal göstəricilərdən biridir. 2018-ci ildə ilk dəfə tətbiq edilmiş bu indeksin mühüm əhəmiyyəti ondan ibarətdir ki, o, 12 müxtəlif iqtisadi, sosial, humanitar, ekoloji və demoqrafik göstərici əsasında hesablanır. İnklüziv inkişaf indeksini digər göstəricilərdən fərqləndirən əsas cəhət onun yalnız iqtisadi artımı deyil, sosial ədalət və əhalinin rifah səviyyəsini də əks etdirməsidir.




**Şəkil 7.** Azərbaycan Respublikası və dünya ölkələrinin inklüziv inkişaf indeksləri və dünyada tutduğu yerlər (Mənbə: Dünya İqtisadi Forum, Dünya Bankı, 2024).

Azərbaycanın dünyada bu indeks üzrə 25-ci yerdə qərarlaşması ölkədə həyata keçirilən və ən müasir elmə əsaslanan innovativ dövlət idarəçilik siyasətinin uğurlu tətbiqinin nəticəsidir.

Təqdim olunan nümunələr sübut edir ki, düzgün düşünülmüş davamlı inkişaf strategiyası və onun reallaşdırılması üçün səfərbər olunan müasir idarəetmə siyasəti inklüziv cəmiyyətin formalaşdırılması və ekoloji sivilizasiyaya keçidin təmin olunması üçün ən optimal yanaşmadır. Bu sahədə davamlı uğurların vacib şərtləri isə dövlət idarəçiliyi sahəsində elmi araşdırmaların genişləndirilməsi, dövlət qulluqçularının bu istiqamətdə fasiləsiz təhsilinin və peşəkar hazırlığının daim təkmilləşdirilməsidir.

**Urxan ƏLƏKBƏROV,**
***Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# "Gənc qızların təhsilinə dəstək" layihəsi iştirakçılarının məzun günü təşkil olunub






**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə iyunun 23-də "Gənc qızların təhsilinə dəstək" layihəsi iştirakçılarının məzun günü təşkil edilib.**




AZƏRTAC xəbər verir ki, məzun günü 2021-ci ildə ali təhsil müəssisələrinə yüksək balla daxil olmuş "Hənifə Məlikova-Zərdabi adına qızların təhsilinə dəstək" təqaüd proqramı və "Sən tək deyilsən" layihəsi çərçivəsində "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramı iştirakçılarının məzun olması, eləcə də onların əzmkarlığını, nailiyyətlərini qeyd etmək məqsədilə keçirilib.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, elm və təhsil naziri Emin Əmrullayev, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, deputatlar və ictimaiyyət nümayəndələri, o cümlədən tələbələr iştirak ediblər.

Tədbir zamanı layihəyə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova diqqətə çatdırıb ki, bu təşəbbüs sosial və maddi çətinliklərlə üzləşən gənc qızlara reallığı göstərmək, onların həyatına işıq salmaq və gələcəklərinə inam yaratmaq məqsədindən irəli gəlir. Bu cəsarətli addım təhsilin gücünə və qadının inkişafına inamın bariz nümunəsidir. Təhsil alan gənc qızların qazandığı uğurlar gələcək nəsillərə nümunədir. Bu gün onların qazandığı uğurlar sabahın cəmiyyətini formalaşdıracaq. Bu yolda gələcəyimiz onların əlindədir.

Elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, qızların, qadınların təhsilə cəlb olunması əhəmiyyətli məsələdir: "Müxtəlif tədqiqatların nəticələri anaların təhsilli olmasının gələcək nəslin daha savadlı, hazırlıqlı və sosial cəhətdən fəal formalaşmasında mühüm rol oynadığını təsdiqləyir. Qadınların təhsil sisteminin bütün pillələrində geniş təmsil olunması yalnız gender bərabərliyinə deyil, ümumilikdə cəmiyyətin intellektual və sosial inkişafına xidmət edir. Bu baxımdan, gənc qızların təhsilinə yönəlik layihələrin və təqaüd proqramlarının genişləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmalıdır".

Nazir həmçinin vurğulayıb ki, belə təşəbbüslər xeyriyyəçilik ənənələrinin müasir dövrdə yenidən canlandırılmasına və cəmiyyətin sosial məsuliyyət hissinin güclənməsinə şərait yaradır. Cəmiyyətin inkişaf səviyyəsi onun qadın üzvlərinin intellektual və sosial inkişafından birbaşa asılıdır. Güclü qadınların mövcudluğu kişilərin zəifliyi deyil, əksinə, bütövlükdə cəmiyyətin güclənməsi deməkdir. Bu baxımdan, həm dövlət, həm də özəl sektorun əməkdaşlıq çərçivəsində təhsilə dəstək göstərməsi vacibdir.

Əlavə olaraq, nazir bu kimi layihələrin regionlarda yaşayan qızların təhsilə çıxış imkanlarını artırmaqla sosial bərabərsizliyin aradan qaldırılmasına da töhfə verəcəyini bildirib. O, təhsil sahəsində inklüzivliyin təmin olunmasının uzunmüddətli milli inkişaf strategiyasının əsas sütunlarından biri olduğunu qeyd edib.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov qeyd edib ki, fondun təşkilatçılığı ilə reallaşdırılan "Gənc qızların təhsilinə dəstək" proqramı artıq dörd ildir ki, icra olunmaqdadır: "Bu müddət ərzində layihə çərçivəsində təxminən 350 sosial həssas qrupdan olan gənc qız ali təhsil müəssisələrində təhsilalma imkanı əldə edib. Əsas məqsəd sosial bərabərliyi təşviq etmək və aztəminatlı ailələrdən olan qızların ali təhsilə çıxışını genişləndirməkdir. Bu təşəbbüs gənc qadınların cəmiyyətə inteqrasiyasını və peşəkar inkişafını dəstəkləyir. Eyni zamanda fondun həyata keçirdiyi digər bir təşəbbüs - "Parla" təqaüd və inkişaf proqramına 2023-2025-ci illəri əhatə edən dövrdə ümumilikdə 1465 müraciət daxil olub, onlardan yalnız 100 nəfər proqramdan faydalanmaq imkanı qazanıb. Seçilənlər arasında 5 nəfər şəhid ailəsi üzvü, şəhid yoldaşıdır. Hazırda 14 nəfər proqram məzunu var və onlardan 4-ü artıq işlə təmin olunub".

E.Nəsibov həmçinin vurğulayıb ki, fondun icra etdiyi bu cür sosialyönümlü təşəbbüslərdə özəl sektorun dəstəyi mühüm rol oynayır.

Sonra şəhid Elşad Həsənovun həyat yoldaşı Aksana Həsənova çıxış edərək "Sən tək deyilsən" layihəsi çərçivəsində "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramının məzunu olduğunu vurğulayaraq göstərilən dəstəyə görə dövlət komitəsinə, həmçinin Elm və Təhsil Nazirliyinə minnətdarlığını bildirib.

Tədbirdə "Gənc qızların təhsilinə dəstək" layihəsi çərçivəsində məzun olan qızlar mükafatlandırılıb.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam etdirilib.

# Regional inkişaf trayektoriyası: nailiyyətlər və gələcəyə baxış

**Müasir dövlət idarəçiliyində regionların sosial-iqtisadi inkişafı mühüm prioritetlərdən biri kimi çıxış edir. Azərbaycanda regionların inkişafı siyasəti kompleks və mərhələli yanaşmaya əsaslanmaqla dövlət proqramları çərçivəsində həyata keçirilir. İlk dəfə 2004-cü ildə qəbul olunan və sonrakı illərdə davam etdirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları bölgələrin iqtisadi, sosial və infrastruktur potensialının gücləndirilməsində mühüm rol oynayıb.**



## İnfrastruktur quruculuğu və sənaye təşəbbüsləri

Son 20 ildə regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş 4 dövlət proqramı çərçivəsində regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil etmişdir. Bu vəsaitlər əsasən infrastruktur sahələrin inkişafına yönəldilib. Bu çərçivədə həyata keçirilən tədbirlər nəticəsində yeni yollar, elektrik, qaz və su xətləri çəkilib, minlərlə ailənin sosial şəraiti yaxşılaşdırılıb. Kəndlərdə və rayon mərkəzlərində məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri, digər sosial obyektlər inşa olunub və ya bərpa edilib.

Eyni zamanda kənd təsərrüfatının inkişafı üçün aqroparklar, emal müəssisələri və logistika mərkəzləri yaradılıb, kənd əhalisinin istehsal etdiyi məhsulların bazara çıxışı asanlaşdırılıb. Sənaye zonalarının və iqtisadi klasterlərin yaradılması regional iqtisadiyyatın dayanıqlılığını artıran mühüm amillərdən birinə çevrilib.

Rəqəmsallaşma prosesləri regionların sosial-iqtisadi inkişafının mühüm komponentlərindən biridir. Elektron hökumət, internet üzərindən xidmətlər, rəqəmsal bacarıqların inkişaf etdirilməsi, regionlarda "ASAN xidmət" mərkəzlərinin yaradılması əhalinin dövlət xidmətlərinə əlçatanlığını artırıb, vətəndaş məmnuniyyətinin yüksəlməsinə səbəb olub.

Regionlarda yeni təhsil müəssisələri, universitetlər yaradılıb, gənclərin təhsil alması, asudə vaxtlarının səmərəli təşkili və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilib. Son 20 ildə regionlarda iki universitet, bir institut, səkkiz universitet filialı olmaqla on ali təhsil müəssisəsi yaradılıb və fəaliyyətə başlayıb.

## Naxçıvan: yeni iqtisadi reallıqlar və prioritetlər

Azərbaycanın çoxəsrlik tarixində özünəməxsus yeri olan, zəngin ictimai-siyasi və elmi-mədəni irsə, geosiyasi əhəmiyyətə malik regionlarından biri də Naxçıvan Muxtar Respublikasıdır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası muxtar respublikada da iqtisadiyyatın inkişafı, yeni müəssisə və obyektlərin yaradılması, infrastrukturun yenilənməsi ilə nəticələnib.

Bundan əlavə, hər il Naxçıvanın sosial-iqtisadi inkişafı ilə bağlı ayrıca qərarlar qəbul edilib. Təkcə son 5 il ərzində Prezident İlham Əliyev tərəfindən muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını tənzimləyən 10 fərman və sərəncam imzalanıb. Şərur Sənaye Məhəlləsinin yaradılması barədə Azərbaycan Prezidentinin 13 sentyabr 2019-cu il tarixli Fərmanı ilə Naxçıvanda ilk sənaye məhəlləsinin yaradılmasına başlanılıb.

Naxçıvan Muxtar Respublikasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Prezidentinin 19 may 2021-cin il tarixli Sərəncamı mühüm sosial və iqtisadi əhəmiyyətli infrastruktur sahəsinin inkişafına hədəflənib. Ordubad Su-Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin 16 iyul 2021-ci il tarixli Sərəncamı muxtar respublikanın "yaşıl enerji" potensialının iqtisadi dövriyyəyə daxil edilməsi istiqamətində mühüm addımdır.

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan MR arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" Naxçıvan üçün olduqca böyük əhəmiyyətə malik kommunikasiya infrastrukturunun reallaşdırılmasına xidmət edir.

Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2024-cü il tarixli Fərmanı ilə müvafiq sahələrdə yeni idarəetmə modellərinin tətbiqinə başlanılıb.

Naxçıvan Sənaye Parkının yaradılması haqqında Azərbaycan Prezidentinin 5 dekabr 2024-ü il tarixli Fərmanı ilə Naxçıvan şəhərindən 12 kilometr cənub-qərbdə, Naxçıvan-Sədərək avtomagistralı üzərində 310 hektar torpaq sahəsi ayrılıb, ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə vəsait ayrılıb.

Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2024-cü il tarixli Sərəncamının icrası yaxın gələcəkdə Naxçıvanda elektrik enerjisi istehsalının artırılmasını və elektrik enerjisi ixracının həyata keçirilməsini təmin edəcək.

Qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Prezidentinin 29 dekabr 2024-cü il tarixli Sərəncamı ilə muxtar respublikada qaz istismar xidmətinin funksiyalarının Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ötürülməsi qaz təsərrüfatının sağlamlaşdırılması və dayanıqlı qaz təminatının həyata keçirilməsi üçün mühüm addımdır.

Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 4 mart 2025-ci il tarixli Sərəncamı Naxçıvan şəhərinin ictimai nəqliyyat sisteminin inkişafı üçün mühüm töhfə verəcək.

## Regionun sosial-iqtisadi inkişafına dair yeni dövlət proqramı

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli Sərəncamı isə regionun inkişafında yeni bir mərhələnin əsasını qoyub. Dövlət proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsini, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasını, muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün 2023-2027-ci illər üzrə 11 prioritet istiqamət müəyyən olunub, dövlət proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılıb. Muxtar respublikanın iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən prioritet istiqamətlər nəzərə alınmaqla gerçəkləşdiriləcək.

## İğdır-Naxçıvan qaz kəməri

Artıq Azərbaycanın təbii qazı Avropanın enerji təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilmişdir. Ötən il ölkəmizin qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Bununla bərabər, ölkənin regionlarının, xüsusilə də eksklav şəraitə malik Naxçıvanın Muxtar Respublikasının etibarlı enerji təminatı prioritet məsələ kimi diqqətdə saxlanılıb. Bunun bariz nümunəsi olan və bir müddət əvvəl açılış mərasiminə şahidlik etdiyimiz İğdır-Naxçıvan qaz kəməri dayanıqlı enerji təminatını, həm də türk dünyasının bütövlüyünə və güclənməsinə xidmət missiyasını yerinə yetirir.

Ötən illər ərzində reallaşdırılmış Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP kimi nəhəng enerji layihələri iki qardaş ölkə arasında iqtisadi bağlılığı daha da möhkəmləndirmişdir. İğdır-Naxçıvan qaz kəməri isə bu uğurlu enerji əməkdaşlığının yeni mərhələsidir. 97,5 kilometr uzunluğu olan və gündəlik 2 milyon kubmetr qaz nəql etmək gücünə malik kəmər muxtar respublikanın enerji təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, onun iqtisadi inkişafına da ciddi təkan verəcəkdir.

## Zəngəzur dəhlizi və Qars-İğdır-Naxçıvan dəmir yolu

Gələcəyə baxarkən regional inkişaf trayektoriyasının ən mühüm istiqamətlərindən birininin Zəngəzur dəhlizi olacağı şübhəsizdir. Bu layihənin reallaşması həm ölkəmiz, həm region dövlətləri, həm də daha geniş geosiyasi məkan üçün mühüm nəticələr doğuracaq.

Əvvəla, Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru bağlantını təmin etməklə, uzun illər davam edən kommunikasiya blokadasına son qoyacaqdır. Bu həm Naxçıvanın sosial-iqtisadi inkişafına, həm də əhalinin rahatlığına birbaşa təsir göstərəcək.

İkincisi, bu dəhliz Orta dəhliz adlanan beynəlxalq nəqliyyat marşrutunun bir hissəsinə çevriləcəkdir. Çin, Mərkəzi Asiya, Xəzər dənizi və Azərbaycan üzərindən Avropaya qədər uzanan ticarət yollarının mühüm bir qovşağı Zəngəzurdan keçəcək. Bu isə ölkəmizin tranzit potensialını gücləndirəcək və beynəlxalq nüfuzunu daha da artıracaq.

Üçüncüsü, dəhlizin açılması regionda sülh və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcək, Cənubi Qafqaz ölkələri arasında qarşılıqlı əlaqələri gücləndirəcək, sabitlik və inkişafa yol açacaq. Eyni zamanda dəhliz yeni iş yerlərinin açılması, infrastrukturun inkişafı və turizm imkanlarının genişlənməsi baxımından da mühüm rola malik olacaq. Bu, təkcə iqtisadi deyil, həm də sosial rifahın yüksəlməsi deməkdir.

Regional inkişaf trayektoriyasının yaxın gələcəkdə reallaşacaq daha bir hissəsi isə Qars-İğdır-Naxçıvan dəmir yoludur. Bu layihə Zəngəzur dəhlizinin bir hissəsidir. Qars-Naxçıvan dəmir yolu Azərbaycan və Türkiyə arasında yeni nəqliyyat bağlantısı yaratmaqla eyni zamanda qlobal nəqliyyat və ticarət marşrutlarının əsas arteriyalarından birinə çevriləcək.

Qars-İğdır-Naxçıvan dəmir yolu xəttinin uzunluğu 224 kilometr olmaqla 5 il ərzində tamamlanması planlaşdırılır. Bu layihə Naxçıvanın iqtisadi inkişafı üçün mühüm bir mərhələdir. Yeni dəmir yolu xətti ilə muxtar respublikaya yük və sərnişin axını artacaq, bu da yerli biznesin canlanmasına, yeni iş yerlərinin açılmasına və xidmət sektorunun genişlənməsinə səbəb olacaq.

İranla imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvan Muxtar Respublikası ilə birləşdirən ən qısa və səmərəli nəqliyyat bağlantısı imkanı əldə ediləcək. Bu yol Şərq-Qərb nəqliyyat dəhlizinin əsas komponentlərindən biri olacaq. İnşası davam etdirilən Horadiz-Ağbənd dəmir yolu xətti regionun əsas nəqliyyat xətlərindən biri olmaqla yanaşı, həm müxtəlif nəqliyyat kommunikasiyalarının şaxələndirilməsi, həm də beynəlxalq yükdaşımaların səmərəli təşkili üçün yeni imkanlar yaradacaq. Layihələrin reallaşması ilə ikitərəfli və regional nəqliyyat-tranzit əlaqələrinin, yükdaşımaların artırılması, logistik imkanların genişlənməsi və ümumilikdə geniş kommunikasiya bağlantılarının yaradılması mümkün olacaq.

## Naxçıvan: "yaşıl enerji" layihələri

Ölkənin regional inkişaf trayektoriyasında Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirən və onu enerji mərkəzinə çevirən yeni bir inkişaf mərhələsi başlanır. Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanın "yaşıl enerji" zonası elan edilməsi də dövlət başçısının mütərəqqi inkişaf siyasətinin təzahürüdür. Muxtar respublikada günəş və külək elektrik stansiyalarının quraşdırılması üçün 8 min hektara yaxın kənd təsərrüfatına yararsız torpaqlar bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib.

2023-cü ilin iyun ayında "Bakı Enerji Həftəsi-2023" çərçivəsində Naxçıvanda keçirilən "Naxçıvan və Şərqi Zəngəzurun yaşıl enerji potensialı" mövzusunda xüsusi sessiyada "Total Energies" və "Nobel Energy Management" şirkətləri ilə ümumi gücü 900 meqavat olan günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədləri imzalanmışdır. Bu güclərin 650 meqavatı məhz Naxçıvanda yaradılacaq. Nəzərdə tutulan "yaşıl enerji" layihələri həm Naxçıvanı, həm də Şərqi Zəngəzuru "yaşıl enerji"nin istehsal və istehlakı ilə bərabər ixracının da mənbə və marşrutuna çevirəcək.

Regional iqtisadi inkişafda bu gün əldə olunmuş nəticələr və gələcək gözləntilər, iqtisadiyyatımızın gücləndirilməsi ilə yanaşı, eyni zamanda milli suverenliyin qorunması və möhkəmləndirilməsi üçün etibarlı zəmin yaradır. Suverenlik yalnız siyasi müstəqillik deyil, həm də iqtisadi müstəqilliyi təmin edən vacib bir prinsipdir. Regional inkişaf xəttinin davam etdirilməsi daxili resurslar hesabına ölkəmizin xarici təsirlərdən asılılığını azaldacaq, iqtisadi müstəqilliyin möhkəmləndirilməsinə xidmət edəcək, beynəlxalq münasibətlərdə və ticarətdə mövqeyini daha da gücləndirəcək.

***Müslüm CABBARZADƏ,***
***Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# Laçından Ağdama qədər...

## Şərqi Zəngəzur və Qarabağda tanış olduqları quruculuq mənzərəsi diplomatik korpusun nümayəndələrində böyük təəssürat yaradıb

**Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması tariximizin ən möhtəşəm hadisəsidir. Həm Vətən müharibəsində, həm də antiterror əməliyyatlarında qazanılan qələbələr Azərbaycanı bir daha dünyaya tanıtdı, xalqımızı məğrur etdi. Bu gün beynəlxalq miqyasda Azərbaycanın adı çəkiləndə, dünyada həm də hərb meydanında qalib gələn, öz gücü ilə torpaqlarını işğaldan azad edən dövlət kimi dəyərləndirilir.**



### Azərbaycanın dəyişdiyi və yaratdığı reallıqlar

Azərbaycanın Zəfəri həm də regionda və həm də həllini tapmış Qarabağ problemi ilə bağlı terminalogiyada yeni reallıqlar yaradıb. Qeyd edək ki, artıq "Dağlıq Qarabağ problemi" deyilən bir ifadə yoxdur. O cümlədən "Minsk qrupu", "mərhələli həll", "status-kvonun dəyişməsi" kimi bir vaxtlar gündəmdə olan ifadələr də tarixdə qalıb. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Silahlı Qüvvələri Dağlıq Qarabağ probleminə son qoydu. Azərbaycan özü status-kvonu dəyişdi, problemi həll etdi. Bununla həm də ATƏT-in Minsk qrupunun fəaliyyətinə ehtiyac qalmadı.

Vətən savaşından və antiterror əməliyyatlarından sonra regionda yaranmış ən böyük reallıq əlbəttə ki, torpaqlarımızın azad edilməsidir. 30 ilə yaxın işğal altında qalan ərazilərimiz cəmi 44 günə azad edildi. 200 illik erməni separatizminə cəmi 1 günə son qoyuldu. Bu, həmin separatizmdir ki, vaxtilə onun təmsilçiləri Azərbaycana hədə-qorxu gəlirdilər, Minsk qrupu isə erməni separatizminə qanuni don geyindirməyə çalışırdı. Lakin indi törətdikləri əməllərə görə Bakıda məhkəmə qarşısında cavab verirlər.

Bu reallığın davamı kimi indi Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa edilir, keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. 2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq edib. Proqramda qarşıya qoyulan məqsədlərə uyğun olaraq bu gün işğaldan azad edilmiş ərazilərdə yüksək standartlara cavab verən yaşayış məntəqələri, o cümlədən "ağıllı" şəhər və "ağıllı" kənd konsepsiyaları əsasında müasir şəhərlər və kəndlər salınır, "yaşıl enerji" zonası yaradılır, qabaqcıl standartlara uyğun təhsil, səhiyyə, sosial xidmət, yol-nəqliyyat infrastrukturu qurulur. Dost dövlətlərin layihələri istisna olmaqla, Qarabağ və Şərqi Zəngəzurun bərpası tamamilə Azərbaycan dövlətinin öz gücü ilə yenidən qurulur. Bu məqsədlə hər il dövlət büdcəsindən yetərincə maliyyə vəsaiti ayrılır.

İndiyə qədər Şuşa, Laçın, Füzuli, Cəbrayıl, Xocalı şəhərlərinə, Zəngilanın Ağalı, Tərtərin Talış, Laçının Zabux, Sus və Bəylik, Xocalının Ballıca, Ağdərənin Suqovuşan, Ağdamın Sarıcalı kəndlərinə qayıdış təmin olunub və bu proses davam etməkdədir. Öz doğma şəhər və kəndlərinə qayıdan keçmiş məcburi köçkünlərin sayı 15 min nəfərə yaxındır.

### Bərpa və quruculuq işləri dünyaya təqdim olunur

Azərbaycanın Vətən müharibəsi ilə yaratdığı reallıqlar dünyada qəbul olunur. Çünki dövlətimiz öz haqqını və BMT Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməsini təmin edib. Bu gün qarşıda dayanan əsas vəzifələrdən biri də bu reallıqların dünyaya daha yaxından təqdim olunmasıdır. İndiyə qədər Qarabağ və Şərqi Zəngəzurda keçirilən beynəlxalq tədbirlər bu məqsədə uğurla xidmət edib.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin iyun ayının 20-21-də Şərqi Zəngəzur və Qarabağa səfəri də bu baxımdan mühüm əhəmiyyət kəsb etdi. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiətilə Laçın, Şuşa və Ağdama səfər edən diplomatik korpusun nümayəndələri aparılan bərpa və yenidənqurma işləri ilə yerindəcə tanış olublar. Laçın, Şuşa və Ağdamda tanış olduqları quruculuq mənzərəsi diplomatlarda yaxşı təəssürat yaradıb. "İlk dəfədir ki, Laçına gəlirəm. Bu yerlərin belə gözəl olduğunu heç təsəvvür etməzdim. Yüksək səviyyədə tikinti işlərinin getdiyinin şahidi oldum", - deyə Koreya Respublikasının ölkəmizdəki səfiri Kımqu Kanq mətbuata açıqlamasında bildirib. Polşanın ölkəmizdəki səfiri Pavel Radomski isə səfərin çox təsiredici olduğunu bildirərək deyib: "Mən başa düşürəm ki, insanları öz doğma torpaqlarına qaytarmaq, bu əraziləri onlar üçün hazırlamaq nə qədər çətindir. Bunun öhdəsindən gəlmək üçün buraya qayıdan insanlara təkcə maddi yox, hərtərəfli kömək etmək əzmi tələb olunur. Bu böyük planda irəliləyişin necə getdiyini görmək həqiqətən maraqlıdır. Bu əraziləri yenidən qurmaq, insanları qaytarmaq olduqca məsuliyyətli işdir. Bu işdə uğurlar arzulayıram".

Qeyd edək ki, Şərqi Zəngəzur və Qarabağa səfər edən diplomatik korpusun nümayəndələri arasında Fransanın Azərbaycandakı səfiri Ann Buayon da olub. Mətbuata açıqlamasında səfir Şuşanın Azərbaycan mədəniyyətini başa düşmək, anlamağa imkan verən bir şəhər olduğunu deyib. "Həqiqətən də, burada olmaqdan böyük sevinc hissi keçirirəm. Bilirəm ki, Şuşa Azərbaycan üçün xüsusi yer tutur, çünki bu şəhər mədəniyyət və incəsənətin rəmzidir. Bundan əlavə, Şuşa dünyaya bir çox məşhur insanlar bəxş edib", - deyə səfir bildirib.

Əlbəttə, bu cür səfərlərin təşkil olunması həm də erməni vandallığının dünyaya tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir. Özlərini dünyaya sivil xalq kimi təqdim edən bu toplum 30 ilə yaxın işğal altında saxladıqları ərazilərimizdə daşı daş üstə qoymayıb, əksinə, vandallıq edib. Prezident İlham Əliyevin dediyi kimi, elə bil bu ərazilərdən vəhşi qəbilə keçib: "Azərbaycan işğal olunmuş ərazilərə qayıdandan sonra beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri, jurnalistlər oraya səfər edir, hər şeyi öz gözləri ilə görürlər. Bu, misli görünməmiş vandallıqdır. Elə bil bu ərazilərdən vəhşi qəbilə keçib".

Qeyd edək ki, diplomatik korpusun nümayəndələrinin iyunun 20-də işğaldan azad edilmiş ərazilərimizə Laçın Beynəlxalq Hava Limanından başlayan səfəri Ağdam dəmir yolu vağzalında başa çatıb.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Qlobal nüfuz və yüksək etimad

## BMT-nin Ümumdünya Şəhərsalma Forumu ölkəmizin iqtisadiyyatına yeni nəfəs vermək üçün imkan yaradacaq

**Beynəlxalq tədbirlərin mərkəzinə, qlobal layihələrin təşkilatçısına çevrilən Azərbaycan müasir dünyamızı narahat edən məsələlərin müzakirə olunması istiqamətində unikal məkandır. Azərbaycanın xarici aləmdəki mövcud nüfuzunun, gücünün göstəricisi olaraq mədəniyyətlərarası siyasi dialoqları ehtiva edən, iqtisadi əməkdaşlığa əsaslanan forumların, qlobal problemlərin həlli istiqamətində konfransların və digər tədbirlərin təşkili ölkəmizə həvalə olunur.**



Dünyanın mədəniyyət mərkəzlərindən biri kimi tanınan Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənə halını alıb.

Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycan ən müxtəlif təmayüllü beynəlxalq tədbirlər keçirməklə bir tərəfdən dünya birliyinə sıx inteqrasiya üçün hər cür imkanlara malik olduğunu nümayiş etdirir, digər tərəfdən isə sözügedən təmayüllərin hər biri üzrə yüksək inkişaf nailiyyətləri əldə etdiyini göstərir. Buna misal üçün təkcə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP) 29-cu sessiyasına yüksəksəviyyəli evsahibliyini göstərmək yetərlidir.

### Yüksələn nüfuzun, inam və etibarın təcəssümü

Bu gün Azərbaycan daha yaxşı nəticələrə nail olmaq üçün əlindən gələni edir. Azərbaycan hazırda istənilən formatlı konfransların, forumların, idman yarışlarının keçirilməsi üçün ən əlverişli məkanlardan biridir. Məhz buna görə də beynəlxalq təşkilatlar konfranslarının keçiriləcəyi məkanları, ölkələri seçərkən Azərbaycan hər zaman ön sıralarda yer alır. Keçirilən səsvermələrdə ölkəmiz daha çox səs toplayır. Bu da o deməkdir ki, Prezident İlham Əliyevin yürütdüyü müstəqil xarici diplomatiya öz uğurlu bəhrəsini verir.

2026-cı ilin may ayında Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Bakı şəhərində keçirilməsi ilə bağlı verilən qərar da bu prosesin tərkib hissəsidir desək, yanılmarıq. Dünyanın ən böyük təşkilatının ən mötəbər toplantısının Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilməsi ölkəmizə olan inam və etibarın bariz göstəricisidir. BMT rəhbərliyi əmindir ki, dünyanın ən təhlükəsiz ölkələrindən biri sayılan Azərbaycan bu toplantıya da yüksək səviyyədə evsahibliyi edəcək. Ən azından COP29 nümunəsi yetərlidir...

### Urbanizasiyanın şəhərlərin inkişafına təsirini araşdıran ən böyük qlobal platforma

BMT-nin 2001-ci ildə qəbul edilmiş müvafiq qərarına əsasən, şəhərsalma sahəsində ən mötəbər və genişmiqyaslı iştirakçılığa malik, iki ildən bir dünya şəhərlərindən birində keçirilən bu forum sürətli urbanizasiya və onun şəhərlərin inkişafına təsirini araşdırmaq məqsədilə ən böyük qlobal platformadır.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il aprelin 25-də BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 2026-cı ildə Bakı şəhərində keçiriləcək On Üçüncü sessiyasının (WUF13) milli koordinatorunun təyin edilməsi və iyun ayının 5-də isə forumun 13-cü sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncamlar imzalayıb. Dövlət başçısının imzaladığı sərəncamda qeyd edilir ki, Azərbaycanın müasir şəhərsalma təcrübəsi 2022-2023-cü illərdə keçirilən milli şəhərsalma forumlarında geniş nümayiş etdirilmişdir. Regionda ilk dəfə təşkil edilən bu forumlar şəhərsalma ilə bağlı ən dolğun müzakirələrin aparıldığı bir platforma yaradıb. Azərbaycana hörmət və etimadın göstəricisi olan bu mötəbər tədbirin yüksək səviyyədə təşkili ölkənin inkişaf strategiyalarının və dayanıqlı şəhərsalma sahəsindəki nailiyyətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işinə əhəmiyyətli töhfə verəcək.

Bu qlobal forumun regionumuzda ən irimiqyaslı tədbirlərdən biri olacağını əminliklə söyləmək olar. Tədbir çərçivəsində həm Azərbaycan, həm də xarici ölkələrdən maraqlı tərəflər - dövlət rəsmiləri, QHT-lər, bu sahədə fəaliyyət göstərən mütəxəssislər, ekspertlər, özəl sektorların nümayəndələri bir araya gələcək, geniş fikir mübadiləsi apararaq yeni bilik və təcrübə ilə paylaşmaq imkanını əldə edəcəklər.

Ümumdünya Şəhərsalma Forumu 2022-ci ildə "Daha yaxşı gələcək üçün şəhərlərimizi dəyişdirək" mövzusu altında Polşanın Katovitse şəhərində (WUF11) 17 min nəfərin iştirakı ilə baş tutub. Daha öncə müxtəlif illərdə forum Barselona, Rio-de-Janeyro, Vankuver, Əbu-Dabi, Kuala-Lumpur və bir sıra digər şəhərlərdə təşkil edilərək, bir tədbirə 23 min nəfərə qədər iştirakçı cəlb edilib. Forumun sonuncu toplantısı 2024-cü il noyabrın 4-dən 8-dək Misirin paytaxtı Qahirə şəhərində keçirilib. Bu önəmli tədbirin 2026-cı ildə paytaxtımızda keçirilməsi Azərbaycan hökumətinin şəhərsalma sahəsində apardığı dərin islahatlar, ölkədə uğurla həyata keçirilən genişmiqyaslı layihələr və əldə edilən nailiyyətlər, habelə ölkəmizin bu sahədə qlobal gündəliyə verdiyi töhfələr sayəsində beynəlxalq nüfuzunun ən yüksək səviyyədə olmasının daha bir bariz nümunəsidir.

### Ümumdünya Şəhərsalma Forumu Azərbaycana nə verəcək?

Ümumdünya Şəhərsalma Forumu Azərbaycana mühüm faydalar gətirə bilər. Beynəlxalq tanınma və prestij istiqamətində forum Azərbaycanda keçirilən ölkə beynəlxalq miqyasda şəhərsalma, urbanizasiya və dayanıqlı inkişaf sahəsində aparıcı mərkəz kimi dünyanın diqqətini çəkəcək. Bu, ölkənin nüfuzunun daha da artırmasını şərtləndirəcək.

Dünyanın müxtəlif ölkələrindən mütəxəssislər, şəhərsalma üzrə ekspertlər, akademiklər və siyasətçilər Bakıda toplaşaraq təcrübə və biliklərini paylaşacaqlar.

Bunun sayəsində investisiya və turizm potensialının artması da müşahidə olunacaq. Çünki forum 182-dən çox ölkədən çoxsaylı iştirakçıları Bakıya cəlb edəcək. Bu isə turizm sektoruna böyük töhfə verəcək, Bakının beynəlxalq turizm xəritəsindəki mövqeyini daha da gücləndirəcək, öz növbəsində qeyri-neft sektorunun inkişafına mühüm töhfə olacaq. Forum zamanı ölkəyə gələn qonaqlar, jurnalistlər və biznes nümayəndələri Azərbaycanın turizm və investisiya potensialını yaxından tanımaq imkanı qazanacaq. Bu isə yeni layihələrə və investisiyaların axınına səbəb ola bilər. Yəni forum ölkənin turizm potensialını daha da yüksəltmək və xarici investorları cəlb etmək üçün əlverişli platformadır.

Ümumilikdə, Ümumdünya Şəhərsalma Forumu Azərbaycanın investisiya və turizm sektorunu beynəlxalq səviyyədə inkişaf etdirmək və ölkənin iqtisadiyyatına yeni nəfəs vermək üçün əla fürsətdir. Forum Azərbaycana uzunmüddətli faydalar gətirəcək. Azərbaycan üçün forumun bir çox istiqamətlərdə əhəmiyyəti var. Belə ki, Bakının WUF 2026-ya evsahibliyi etməsi Azərbaycanın beynəlxalq arenada mövqeyini gücləndirəcək. Bu, ölkənin qlobal şəhər inkişafı məsələsində aparıcı rol oynamaq qabiliyyətini nümayiş etdirir. Forum Azərbaycana dünya şəhərsalma təcrübəsindən faydalanmaq imkanı verəcək. Eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə ən müasir şəhərsalma standartlarını tətbiq etməsi təcrübəsinin də paylaşılması dünya üçün maraqlı olacaq.

Azərbaycanda, xüsusilə, paytaxt Bakı və digər böyük şəhərlərimizdə urban infrastrukturu sürətlə inkişaf edir. Forum bu sahədə beynəlxalq təcrübənin tətbiqinə, müasir şəhərsalma prinsiplərinin öyrənilməsinə kömək edəcək.

Bir sözlə, Ümumdünya Şəhərsalma Forumu Azərbaycana təkcə iqtisadi deyil, həm də sosial, mədəni və ekoloji baxımdan çoxşaxəli faydalar verəcək.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# İsrail-İran müharibəsi: proqnoz vermək mümkünsüz olur

**Xəbər verildiyi kimi, iyunun 22-nə keçən gecə ABŞ ordusu İranın nüvə proqramının üç obyektinə zərbələr endirib. B-2 Spirit bombardmançı təyyarələri uranın zənginləşdirilməsi üzrə Fordo zavoduna 13,6 tonluq GBU-57 bunkerəleyhinə 12 bomba ilə hücum edib. Daha 2 belə bomba Natanz obyektinə atılıb.**

Təyyarələr İran səmasına daxil olmamışdan əvvəlsə sualtı qayıqlardan Natanz və İsfahan obyektlərinə 30 Tomaqavk qanadlı raketi buraxılıb. ABŞ strateji təyyarəsinin xaricdən İranın Fordodakı əsas nüvə obyektinə uçması havada yanacaq doldurma da daxil olmaqla 37 saat çəkib.

ABŞ Prezidenti Donald Tramp xalqa müraciətində İranın uranın zənginləşdirilməsi üzrə əsas obyektlərinin məhv edildiyini bildirib. Amerika lideri İranda hakimiyyət dəyişikliyinin mümkünlüyünü istisna etməyib. O, bu barədə "Truth Social" hesabında paylaşım edib: "Hakimiyyət dəyişikliyi" terminini işlətmək siyasi baxımdan korrekt deyil. Lakin əgər hazırkı İran rejimi ölkəni yenidən qüdrətli etməyə qadir deyilsə, o zaman rejim niyə də dəyişilməsin?"

Vitse-prezident Cey Di Vens isə ABC News telekanalına bildirib ki, "Birləşmiş Ştatlar münaqişənin uzanmasında maraqlı deyil. Bu, bütün Yaxın Şərqdə tamamilə fəlakətli hərbi münaqişəyə səbəb olacaq". Zərbələri qiymətləndirərək, o, əməliyyatın Tehranın nüvə proqramının inkişafını "əhəmiyyətli dərəcədə gecikdirdiyi" fikrini ifadə edib. Lakin onu da deyib ki, ABŞ İranın bütün nüvə infrastruktur obyektlərinin tamamilə məhv edilməsini 100 faiz əminliklə təsdiq edə bilməz.

Bunun fonunda Tehran İranın nüvə proqramlarını davam etdirəcəyini açıqlayıb. İran tərəfi ABŞ-nin zərbələrini təsdiqləyərək obyektlərə ciddi ziyan dəydiyini təkzib edib. İranın Atom Enerjisi Təşkilatının rəsmi nümayəndəsi Bəhruz Kamalvəndi "Təsnim" agentliyinə deyib: "Onlar bilməlidirlər ki, bu sənayenin bizim ölkədə kökləri var və onları məhv etmək mümkün deyil. Təbii ki, biz zərər çəkmişik, lakin nüvə sənayesi bununla ilk dəfə qarşılaşmır".



Yeri gəlmişkən bildirək ki, Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) ABŞ-nin İranın nüvə obyektlərinə hücumlarından sonra radiasiya səviyyəsinin artmasına dair heç bir dəlil tapmadığını açıqlayıb.

Azərbaycanın Xarici İşlər Nazirliyi də ABŞ-nin İranın nüvə obyektlərinə hücumları ilə bağlı bəyanat yayıb. Bəyanatda ABŞ-nin İran İslam Respublikasındakı nüvə obyektlərini hədəfə alan hərbi əməliyyatlarından sonra vəziyyətin daha da gərginləşməsindən dərin narahatlıq ifadə olunub. "Bütün tərəfləri təmkinli olmağa, vəziyyəti daha da gərginləşdirməkdən çəkinməyə, mövcud problemlərin həlli üçün dialoq və diplomatiyaya üstünlük verməyə çağırırıq", - deyə bəyanatda qeyd edilib.

BMT-nin Baş katibi Antonio Quterreş hadisəni təhlükəli eskalasiya və beynəlxalq sülh və təhlükəsizliyə birbaşa təhdid adlandıraraq deyib: "Bu münaqişənin mülki əhali, region və dünya üçün fəlakətli nəticələrlə tezliklə nəzarətdən çıxması riski artır". O, BMT-yə üzv dövlətləri "xaos spiralından" qaçmaq üçün münaqişənin dinc yolla həllinə kömək etməyə çağırıb: "Hərbi həll yoxdur. İrəliyə aparan yeganə yol diplomatiyadır. Yeganə ümid sülhdür".

30 raket və 80-ə qədər itki - bu, bazar günü İranın İsraili atəşə tutmasının nəticələridir. İsrail hərbi komandanlığının məlumatına görə, raket və qəlpələrin vurulması ilə bağlı məlumat ölkənin 10-dan çox yerində qeydə alınıb. Bildirilib ki, Hayfada hava hücumundan müdafiə və xəbərdarlıq sistemində nasazlıq yaranıb. Təl-Əvivdə qorunan otaqlar istisna olmaqla, iki bina tamamilə dağılıb. Daha bir neçəsi partlayış dalğası nəticəsində zərər görüb.

İsrailin Səhiyyə Nazirliyinin məlumatına görə, təxminən 10 min israilli evsiz qalıb və onlar hazırda 71 hotel və digər müvəqqəti yaşayış yerlərində yerləşdiriliblər. Nazirliyin məlumatına görə, Təl-Əviv, Herzliya, Bat Yam, Raanan, Rehovot, Aşkelon, Hayfa, Qüds, Petah Tikva və Netanyada İranın zərbələri nəticəsində dağılmış evlərdən vətəndaşlar təxliyə edilib.

Öz növbəsində İranın "Fars" xəbər agentliyi Tehranın şimal-qərbində və şərqində yerləşən bölgələrə raket və pilotsuz uçuş aparatlarının hücum etdiyini bildirib. Məlumata görə, paytaxtın şimalında elektrik yarımstansiyası sıradan çıxıb və elektrik enerjisinin verilişində lokal fasilələr yaranıb. Bununla belə, İran Elektrik Şəbəkəsi Şirkəti vəziyyətin nəzarət altında olduğunu bildirib.

Bu arada Rusiya Prezidenti Vladimir Putin Moskvada İranın xarici işlər naziri Abbas Əraqçi ilə görüşüb. Bu barədə Kremlin Mətbuat xidmətinin yaydığı məlumata görə, V.Putin İrana endirilən zərbələri pisləyib. "İrana qarşı tamamilə əsassız təcavüzün heç bir əsası yoxdur", - Rusiya prezidenti Kremldə keçirilən görüşdə deyib. V.Putin həmçinin qeyd edib ki, Moskva ilə Tehran arasında "uzunmüddətli, yaxşı, etibarlı münasibətlər" var və Rusiya "İran xalqına yardım göstərmək üçün" səy göstərir.

Öz növbəsində Əraqçi deyib ki, İrana zərbə endirən İsrail və ABŞ-nin "aqressiv hərəkətləri tamamilə qanunsuzdur, beynəlxalq qaydaları və beynəlxalq normaları pozur. "Biz indi suverenliyimizi və ölkəmizi müdafiə edirik və müdafiəmiz qanunidir".

Rusiyanın İran-İsrail münaqişəsində İrana hərbi və digər yardımlar göstərməyə hazır olması İran tərəfinin Moskvada hansı xahişlə çıxış etməsindən asılı olacaq. Bunu "Kommersant"ın sualını cavablandıran Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. Kreml sözçüsü Rusiyanın İrana hava hücumundan müdafiə sistemləri, məsələn, S-300 və ya S-400 komplekslərini verməyə hazır olub-olmadığı sualına cavab verməyib. Son məlumata görə, iyunun 23-də İranın Fordodakı nüvə obyekti yenidən vurulub. Bu barədə "Əl-Cəzirə" bildirib. Obyektə yeni zərbələrin endirilməsi Qum vilayalətinin böhranla mübarizə təşkilatının sözçüsü Morteza Heydəri tərəfindən təsdiqlənib. Lakin o, hücuma kimin cavabdeh olduğunu açıqlamayıb. Heydəri qeyd edib ki, ərazidəki mülki vətəndaşlar üçün təhlükə yoxdur.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Türk dünyasının birliyinin rəmzi

Heydər Əliyevin müraciətində Novruzun Azərbaycan xalqının "sevinc və şadlıq bayramı" olmasının xüsusi vurğulanması təsadüfi deyildir. Novruz öz gəlişi ilə insanların həyatına yalnız müsbət emosiyalar bəxş edir. Qurub-yaradan insanın ən çox ehtiyacı olduğu "emisiosemlər" (sevinc və şadlıq hisslərini ifadə edən məna vahidləri), başqa sözlə, gələcəyə yönəlik xoş ümidlərdir. Dahi rəhbər bu məqamı vurğulamaqla Azərbaycanı milli dövlət quruculuğu istiqamətində mətin olmağa, yüksək ruhla milli hədəflərə doğru irəliləməyə çağırırdı.

Milli ideoloqun nitqində Novruzun "tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə, süni maneələrə məruz qalmasının" vurğulanması xüsusi bir məqamdır. Novruz bayramının tarixinə nəzər saldıqda, onun öz varlığını qoruyub saxlamaq üçün, sözün, bəlkə də, həqiqi mənasında, müxtəlif ideoloji sistemlərlə savaşa çıxdığını görürük. Ulu Öndərin vurğuladığı kimi: "Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır… Ancaq elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, onu keçirməyə mane olmağa çalışıblar. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının dərin kökləri var və xalqımızın qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir".

Yaxın tariximiz Ulu Öndərin nə qədər haqlı olduğunu açıq şəkildə təsdiqləyir. Faktlara nəzər salaq.

Keçən əsrin iyirminci illərinin axırlarında Sovet Azərbaycanında ifrat solçuluq təsirləri nəticəsində Novruz bayramına dini damğa basılmış və o, demək olar ki, rəsmən qadağan olunmuşdu. Buna baxmayaraq, o vaxtdan bu günə kimi xalq onu evlərdə qeyd etmiş, çərşənbələri, bayram günlərini səməni, şəkərbura, paxlava, noğul-badam, bəzəkli xonçalar, rənglənmiş-boyanmış yumurtalarla keçirmişdir (Mirzə İbrahimov).

1953-cü ildə sovet qanlı ölüm aparatının başçısı İ.V.Stalinin vəfat etməsi, Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin yeni katibi N.Xruşşovun Stalinin şəxsiyyətə pərəstiş və qanlı repressiya siyasətini dayandırması ölkənin siyasi həyatında müəyyən yumşalmalara səbəb oldu. Bu proses yasaq olunmuş xalq adət-ənənələrinin müəyyən şəkildə bərpasına, o cümlədən xalq tərəfindən, əslində, heç bir zaman unudulmayan Novruz bayramının da rəsmi şəkildə bərpasına, müvəqqəti də olsa, öz təsirini göstərdi. Bu işdə görkəmli partiya və dövlət katibi, yazıçı-dramaturq, ictimai xadim Şıxəli Qurbanovun (1925-1967) böyük rolu oldu (Sevinc Qasımova).

1967-ci ildə Novruz bayramının "bahar bayramı" adı altında təntənəli şəkildə qeyd olunması o vaxt SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri işləyən A.Mikoyanın və onun əlaltılarının böyük qəzəbinə səbəb oldu. Erməni separatçılarının liderləri Levon Şaumyan, Mariyetta Şaginyan, Sero Xanzadyan və onlarla başqalarının imzası ilə Kremlə məktublar axını başladı. Bu məktublarda Sovet rəhbərlərinə Azərbaycanda dini bayramın bərpa edilməsi və bu ad altında geniş antisovet kampaniya aparılması barədə böhtanlar başlıca yer tuturdu, Azərbaycan rəhbərliyinin cəzalandırılması tələb edilirdi. Doğrudur, bayramın qadağası ilə bağlı Moskva rəsmi sənəd imzalamadı. Ancaq Novruzun adının çəkilməsi yenidən yasaqlandı, bu barədə təbliğat və tədqiqat işləri üzərinə yenidən ciddi senzura nəzarəti qoyuldu. Azərbaycanda Novruzun bayram edilməsi yenidən qapandı (Azad Nəbiyev).

Novruz bayramının milli müstəqilliyin bayramına çevrilməsində Heydər Əliyevin müstəsna xidmətləri oldu. O, qeyd etdiyimiz kimi, Novruz bayramına sıradan bir mərasim kimi deyil, xalqı, milləti birləşdirməyin, dövlət quruculuğu ideyaları ətrafında vahid bir qüvvəyə çevirməyin modeli kimi baxırdı. Bu, dahi rəhbərin nitqlərində daim vurğulanırdı. Ulu Öndər belə hesab edirdi ki, "milli ideologiyamızın əsas tərkib hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".

Heydər Əliyev çox gözəl bilirdi ki, milli-mənəvi dəyərlər minilliklər ərzində formalaşır və milli yaddaşın silinməz, pozulmaz arxetiplərinə çevrilir. O, Novruz bayramını bu mənada milli-mənəvi dəyərlərin ən nəhəng abidələrindən biri hesab edirdi.

Novruz bayramının etnopsixoloji mahiyyəti ilə bağlı aparılmış tədqiqatlar Ulu Öndərin nə qədər böyük bir ideoloq olduğunu təsdiq edir. Cəlal Qasımov sovet epoxasında Novruz bayramının unutdurulması ilə bağlı ideoloji-inzibati tədbirlərdən bəhs edərkən qeyd edib ki, "bolveşik ideoloqları nəyi unudur, yaxud nəyi bilmirdilər:

- Novruz, sadəcə olaraq, bir bayram yox, Azərbaycan xalqının ritual-mifoloji yaddaşının funksional formulu, mifik-kosmoloji düşüncə ilə yaşayan türk etnosunun gerçəkliyə münasibətinin etnopsixoloji mexanizmidir...

- Novruz bayramı əski türkün məkan-zaman haqqında bütün görüşlərinin yaddaş modeli və bu modelin funksional sistemidir...

- Yaddaş hərəkətə gəlməklə etnosu yaşadır: etnos yaddaş formulları əsasında funksionallaşır - mövcudluğunu qoruyur və inkişaf etdirir...

- Etnosun fiziki-mənəvi təcrübəsinin bütün aksioloji dəyərləri ilkin kökdən başlayıb, bütün dövrlər (siyasi, ideoloji, dini epoxalar) boyunca Novruza konsentrasiya olunmaqla onu akkumulyasiya mənbəyinə - etnoenergetik sistemə çevirir...

- Vaxtaşırı (ritmik olaraq) Novruz bayramını keçirən etnos qapalı-dövrəvi ritmlə ondan keçməklə hər dəfə özünü etnoenergetik arxetiplərlə təchiz edir".

Beləliklə, Novruz bayramını dövlətin milli-mədəni siyasətinin əsas tezisinə çevirən Heydər Əliyev, Bəkir Nəbiyevin qeyd etdiyi kimi, 1993-cü ildə tarixi sərəncam verdi və bundan sonra Novruz ölkədə ümummilli bayram kimi dövlət səviyyəsində qeyd edilməyə başladı. Bu isə bayramın nüfuz çevrəsini daha da genişləndirdi, özünəqayıdışı gücləndirdi, xalqımızın milli birliyinin möhkəmlənməsinə, vətən, torpaq, sülh və dostluq uğrunda səfərbər olmasına öz dəyərli töhfəsini verdi. Bütün bunlar isə bayramın beynəlxalq aləmdə şöhrətlənməsinə və dünya xalqları içərisində sürətlə yayılmasına öz müsbət təsirini göstərdi.

R.T.Ərdoğanın dilindən Novruz bayramı ilə bağlı səslənən milli şüarlar təsadüfi olmayıb, türk xalqlarının dövlətçilik təcrübəsinə, o cümlədən Heydər Əliyevin milli quruculuq sahəsində təcrübəsinə əsaslanır. Bu cəhətdən, Ulu Öndərin Novruz bayramını "beynəlmiləlləşdirmək" istiqamətindəki düşüncə və fəaliyyəti bu gün özünün müsbət nəticələrini verməkdədir. Belə ki, bu fakt türk dövlətlərinin vahid siyasi qüvvəyə çevrilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Novruz bayramının konseptual-fəlsəfi əsasları haqqında tədqiqata görə, bütöv Avropa, Asiya və Şimali Afrikada müxtəlif etnosların nümayəndələri tərəfindən qeyd olunan bu bayram həmin etnosların ana vətəni kimi dünyanın üç qitəsini, miqrasiyaların timsalında isə bütün materik və qitələri bir-birinə birləşdirən, onlar arasında sülh və sevgi yaradan ümumbəşəri harmoniya və sülh bayramıdır. Bu bayram siyasi coğrafiyası baxımından Avrasiya materikində və Şimali Afrikada Sibirdən Ön Asiyaya, Misirə və digər Şimali Afrika ölkələrindəki "Novruz" topluluqlarına, Asiyada Saxa-Yakutiyadan Avropada Balkanlara, Krıma, Moldovaya, Çindən - Uyğurustandan Şimali Rusiya türk dövlətlərinə, onlardan Cənub-Şərqi Asiya ölkələrinə qədər çox nəhəng siyasi coğrafiyada yayılmışdır. Bütün Avrasiyada Çindən İspaniyaya, Sibirdən Finlandiyaya, Şimali Afrika ölkələrinə yayılmış türk xalqlarının öz dövlətlərində və onların yaşadıqları digər dövlətlərdə (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tatarıstan, Başqırdıstan, Saxa-Yakutiya, Çuvaşstan, Altay-Xakas, Şimali Kipr Türk Respublikası, Krım-Ukrayna, Moldova-Qaqauzstan, Qərbi Trakya-Yunanıstan, Bolqarıstan, keçmiş Yuqoslaviya, Çin-Uyğurustan, Dağıstan, Qaraçay-Balkar, Çeçenistan), o cümlədən İran, Əfqanıstan, Pakistan, Tacikistan, İraq, Misir və digər ərəb dövlətlərində rəsmi və qeyri-rəsmi olaraq qeyd olunur. Novruz bayramı etnik-milli və etnolinqvistik coğrafiyası baxımından, əsasən, üç böyük etnosa: türk, hind-Avropa və sami etnoslarına aid olan xalqların mədəniyyətlərini və dillərini bir kontekstdə birləşdirir. Bu bayram rəsmi və qeyri-rəsmi olaraq azərbaycanlılar, türklər, qazaxlar, türkmənlər, qırğızlar, özbəklər, qaraqalpaklar, krımtatarlar, kazan-tatarlar, başqırdlar, saxalar, yakutlar, şorlar, teleutlar, xakaslar, altaylılar, noqaylar, qaraimlər, qaraçaylar, uyğurlar, çuvaşlar, qarapapaq-tərəkəmələr, qaqauzlar, Dağıstanın bəzi iber-qafqazdilli xalqları, çeçenlər, farslar, giləklər, taciklər, əfqanlar, puştunlar, pakistanlılar, ərəblər, kürdlər və sairə xalqlar arasında yayılmışdır (Seyfəddin Rzasoy).

Bu amilləri ətraflı şəkildə bilən və onların rolunu dərindən anlayan Heydər Əliyev Novruz bayramına türk xalqlarını vahid milli mədəniyyət fenomeni ətrafında birləşdirən vəhdət modeli kimi baxır və öz fəaliyyətini bu istiqamətdə qururdu. Bu cəhətdən, Novruz bayramının 2009-cu ilin 30 sentyabrında UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi bilavasitə Ulu Öndərin milli siyasət perspektivlərinin beynəlxalq miqyasda təntənəsi idi.

Bu siyasətin davamlı inkişafı onda ifadə olundu ki, Birləşmiş Millətlər Təşkilatı Baş məclisinin 64-cü sessiyasında martın 21-nin bütün dünyada "Beynəlxalq Novruz günü" elan edildi. Vurğulamaq istərdik ki, BMT-də qəbul edilmiş qərar Azərbaycan dövlətinin təşəbbüsü ilə reallaşmışdır.

Ə.Paşayevanın yazdığı kimi, 21 martın "Beynəlxalq Novruz günü" elan edilməsi hadisəsi Azərbaycan Respublikasının təşəbbüsü ilə baş vermiş və Azərbaycan dövlətinin bütün xalqlarla həmrəylik dostluq və anlaşma şəraitində yaşamaq istəyini bir daha nümayiş etdirmişdir. 18 illik üzvlük dövründə Azərbaycan BMT-də böyük nüfuz qazanmış, onu özünün milli-mənəvi dəyərlərini dünyada yaymaq üçün mühüm bir tribunaya çevirmişdir. Bu isə bilavasitə ölkəmizdə mədəni dəyərlərin qorunub saxlanması və bərpasına ardıcıl göstərilən dövlət siyasətinin məntiqi nəticəsidir.

Xüsusi şəkildə vurğulanmalıdır ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu böyük uğurla həyata keçirən İlham Əliyev də Novruz bayramının milli dövlət quruculuğu ilə bağlılığı məsələlərinə həmişə həssaslıqla yanaşır. "Novruz" ensiklopediyasında qeyd olunduğu kimi, Azərbaycan xalq adət-ənənələrinin, mərasim və bayramlarının yaşadılması, milli ruhda zənginləşdirilməsi, onların, xüsusən gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynaması kimi vacib məsələlər həmişə İlham Əliyevin diqqətindədir. Prezident İlham Əliyev milli Novruz bayramı şənliklərində iştirak edir, xalqla bir olur. Bu, insanlarının birliyindən, sevincli günlərindən, parlaq sabahından soraq verir. Qarabağda cənab İlham Əliyevin Novruz tonqalını alovlandırması təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpasını qeyd etmək deyil, həm də türk dünyasının tarixi mübarizəsinin və milli iradəsinin simvolu kimi diqqət çəkir. 44 günlük Vətən müharibəsi, Azərbaycanın öz suveren hüquqlarını qorumaq istiqamətində qazandığı tarixi qələbə olmaqla yanaşı, həm də türk dünyasının birliyinin və qətiyyətinin ən mühüm təzahürlərindən biri oldu. Novruz bayramının mahiyyəti yenilənmə və dirçəliş prinsiplərinə əsaslandığı kimi, Qarabağda tonqal yandırılması da türk xalqlarının birliyinin və suverenlik uğrunda apardığı mübarizənin yeni mərhələsinə keçidini göstərir. İlham Əliyevin bu aktı yalnız azərbaycanlıların qələbəsini deyil, bütövlükdə türk dünyasının öz tarixi kimliyini və mədəni irsini qoruma əzmini təsdiqləyir. Türk dövlətləri arasında artan siyasi və mədəni inteqrasiya fonunda Qarabağda Novruzun qeyd olunması, türk dünyasının öz milli və siyasi birliyini möhkəmləndirmək üçün mühüm mesajdır.

Bu bayramın Qarabağda bərpası həm də türk xalqlarının ortaq dəyərləri ətrafında daha sıx birləşməsinə töhfə verir. İlham Əliyevin bu nümunəsi təkcə keçmişin mirası kimi deyil, türk xalqlarının gələcək strateji gücünün rəmzi kimi dəyərləndirilməlidir.

Bütün bunlar nəyi göstərir? Türkiyə dövlətinin prezidenti R.T.Ərdoğanın Novruz bayramını daxili milli birlik siyasətinin obyektinə çevirməsi təsadüfi deyil və tarixin praqmatik təcrübəsinə əsaslanır. Heç təsadüfi deyildir ki, bu, Türkiyənin türk dünyası ilə mədəni inteqrasiyası və ortaq irsə verdiyi dəyərin göstəricisi kimi qiymətləndirilir. Hətta Türk Dövlətləri Təşkilatının 2025-ci il sammitində bu addım xüsusi vurğulandı və üzv dövlətlərin hamısı Türkiyəni bu münasibətlə təbrik etdi. Bu da öz növbəsində birmənalı şəkildə təsdiq edir ki, Ulu Öndərin milli birlik haqqında ideyaları, o cümlədən həmin ideyaların təcəssüm modellərindən biri olan Novruz bayramı barəsindəki fikirləri təkcə türk dövlətlərinin daxili milli birliyi baxımından deyil, beynəlxalq səviyyədə milli vəhdəti baxımından da son dərəcə əhəmiyyətə malik olmaqda və aktuallıq kəsb etməkdədir.

Ümumiləşmiş formada deyə bilərik ki, Novruz bayramı, mifoloji, etnokulturoloji və sosiopolitik əsasları baxımından yalnız bir mərasim deyil, həm də türkdilli xalqların və digər etnosların mədəni inteqrasiyasını təmin edən konseptual modeldir. Onun tarixi formalaşması ilkin kosmoqonik təsəvvürlərdən başlayaraq, müxtəlif dini sistemlərlə sintez olunaraq uzun təkamül prosesi keçmişdir. Bu baxımdan, Novruz bayramı təkcə etnik birliyi deyil, eyni zamanda sivilizasiyalararası harmoniya modelini ifadə edir. Araşdırmalar göstərir ki, Novruz bayramının mifoloji kökləri ilkin dünya görüşləri və kosmoqonik miflərə əsaslanır. Miflər xalqın etnopsixoloji identifikasiyasını formalaşdıran əsas struktur olaraq, zamanla tarixi düşüncəyə transformasiya olunmuşdur. Bu mərhələdə Novruz, mədəni və dini sistemlər arasında keçid rolunu oynayan arxetipik fenomen kimi çıxış etmişdir. Mifoloji aspektdən yanaşdıqda, bu bayram həyat və ölüm dövrü, təbiət ritmləri və zamanın dövriliyi konsepsiyalarını özündə ehtiva edərək, insanın kosmik mühitlə əlaqəsini şərtləndirən vahid sistem yaratmışdır.



Novruz bayramının müxtəlif dini və ideoloji sistemlərdə yer alması onun universal xarakterini təsdiqləyir. Qədim türklərin şamanist dünyagörüşü, tanrıçılıq, zərdüştilik və islam kimi inanclarla birləşib, bu bayramı fərqli coğrafi ərazilərdə yaşayan xalqların mədəni sintezi üçün mühüm vasitəyə çevirmişdir. Xüsusilə, islamın Novruz bayramına münasibətdə yumşaq siyasət yürütməsi, onun etnomədəni sistemlərdə dominant mövqeyini gücləndirmişdir. Heydər Əliyevin bu bayramı müqəddəs dəyər kimi qəbul etməsi, onun milli kimliyin qorunması və dövlətçilik kontekstində inteqrasiyasına verdiyi xüsusi önəmi təsdiqləyir. Novruz bayramının siyasi və mədəni coğrafiyası geniş Avrasiya materikində yayılaraq, fərqli etnosları birləşdirən universal hadisəyə çevrilmişdir. Türkdilli xalqların yaşadığı geniş ərazilərdə-Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Dağıstan, Tatarıstan, Saxa-Yakutiya, Çin-Uyğurustan və digər regionlarda qeyd olunan Novruz, milli inteqrasiya və identifikasiya mexanizmi kimi mühüm rol oynayır. UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi və BMT tərəfindən "Beynəlxalq Novruz günü" elan olunması, onun qlobal mədəniyyətin ayrılmaz hissəsi olduğunu göstərir.

Novruz bayramının siyasi mahiyyəti onun dövlətlərarası mədəni inteqrasiyaya töhfə verməsi ilə əlaqədardır. Heydər Əliyevin və İlham Əliyevin bu bayramı milli ideologiyanın əsas elementi kimi qəbul etməsi, onun müstəqil dövlət quruculuğunda rolunu gücləndirmişdir. Türkiyənin Novruzu milli birlik modeli kimi siyasi gündəminə daxil etməsi və Türk Dövlətləri Təşkilatının 2025-ci il sammitində bu bayramın xüsusi vurğulanması, onun türkdilli xalqların birləşməsi üçün strateji əhəmiyyət daşıdığını göstərir. Beləliklə, Novruz bayramı təkcə qədim mərasim deyil, eyni zamanda türkdilli və digər xalqlar arasında mədəni inteqrasiyanın fəlsəfi və konseptual modeli kimi çıxış edir. Onun mifoloji və dini kökləri, etnokulturoloji sintezi, geniş coğrafiyada yayılması və siyasi əhəmiyyəti bu bayramı dünya miqyasında vahid mədəni vəhdət sistemi kimi təsdiqləyir. Azərbaycan və Türkiyənin Novruza verdiyi önəm, onun strateji və ideoloji gücünü daha da artıraraq, türkdilli xalqların gələcək birlik modelinə töhfə verir. Novruzun bu universal funksiyası, onun insanlığın harmoniya və qarşılıqlı anlaşma prinsipləri çərçivəsində daha da inkişaf etməsinə zəmin yaradır.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

*(Əvvəli qəzetin 22 iyun 2025-ci il tarixli nömrəsində)*

# Qərbi Azərbaycan İcmasında Ümumdünya Qaçqınlar Gününə həsr olunmuş beynəlxalq tədbir təşkil edilib




**İyunun 23-də Qərbi Azərbaycan İcmasında Ümumdünya Qaçqınlar Gününə həsr olunmuş beynəlxalq tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının dövlət orqanlarının nümayəndələri, ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərlərinin, ictimai və elm xadimlərinin iştirak etdiyi tədbirdə əvvəlcə "Qərbi Azərbaycan: Haqqın izi ilə" sənədli filminin nümayişi olub.

Çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, icma beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət edir. Eləcə də sülh, barışıq, birgəyaşayış dəyərlərinə hörmətlə yanaşır. O deyib: "Biz dialoq üçün Ermənistan hökumətinə dəfələrlə təklif göndərmişik. İcmanın davamlı dialoq cəhdlərinə baxmayaraq, Ermənistan hələ də bizim çağırışlarımıza cavab vermir. Ermənistan tərəfinin dialoqdan yayınması ədalətli və davamlı həll istiqamətində irəliləyişə mane olur. Biz Ermənistanı insan hüquqları ilə bağlı öhdəliklərinə hörmət etməyə, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına şərait yaratmağa çağırırıq".

Ə.Ələkbərli Ermənistandan azərbaycanlıların mərhələli deportasiyası, hüquqlarının pozulması və yaşanan faciələr barədə məlumat verib. O, həmçinin tədbir iştirakçılarını icmanın fəaliyyəti, görülmüş işlər barədə məlumatlandırıb.

Daha sonra köçkünlük həyatının acı xatirələrindən və qayıdış arzusundan danışan Qərbi Azərbaycan İcması Ziyalılar Şurasının üzvü Şirazi İbrahimov bildirib: "Bir əsrdə dörd dəfə qaçqınlıq həyatı yaşayan qərbi azərbaycanlıların başına gələn müsibətlər digər soydaşlarımız kimi bizim ailədən də yan keçməyib. Mən uşaq olanda, valideynlərim 1905, 1918, 1948-1953-cü illər deportasiyası haqqında danışanda, bir növ mənə nağıllar aləmini xatırladırdı. Necə ola bilər ki, ermənilərə diqqət, qayğı ilə yanaşasan, yerləşmələrinə kömək göstərəsən, onlar isə sənə bu cür vəhşiliklər etsinlər. Təəssüflər olsun ki, qonşumuz olan ermənilər bu cür vəhşilikləri illər boyu, bir əsrdən artıq müddətdə törədiblər, lakin dünya ictimaiyyəti buna biganə yanaşıb".

O, 1988-ci il deportasiyasında 15 yaşı olduğunu diqqətə çatdıraraq əlavə edib: "Mən orta məktəbi davam etdirmək üçün Basarkeçər rayonunun Nərimanlı kəndindən Bakı şəhərinə kimya-biologiya təmayüllü internat liseyinə gəldim. 1988-ci ilin dekabrında tətil olarkən internatda oxuyan bütün şagirdlər öz doğma evlərinə gedirdilər. Biz Qərbi Azərbaycanəsilli şagirdlər isə hara gedəcəyimizi, evlərimizin harada olacağını bilmirdik. Yəqin ki, 15 yaşlı uşaqların keçirdiyi bu stresi, sarsıntını təsəvvürə gətirmək olar. Həmin günləri xatırladıqca insan kədərlənir, valideynlərimizin, doğmalarımızın və Qərbi Azərbaycanda yaşayan insanların başına gələn fəlakətlər göz önündən keçir, insanı kövrəldir".

Qeyd edək ki, Ümumdünya Qaçqınlar Günü BMT Baş Assambleyasının 2000-ci ildə qəbul etdiyi 55/76 saylı qətnamə ilə təsis olunub. Bu günün məqsədi qaçqınların problemlərinə beynəlxalq diqqəti artırmaqdır. Qərbi Azərbaycan İcması da öz növbəsində hər il bu gün münasibətilə tədbir təşkil edir.

# Qərbi Azərbaycan İcması Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını qınayıb

**Qərbi Azərbaycan İcması İslam Əməkdaşlıq Təşkilatı Nazirlər Şurasının Qərbi Azərbaycan məsələsi ilə bağlı İstanbulda qəbul etdiyi qərarlara münasibətdə Ermənistan Xarici İşlər Nazirliyinin iyunun 23-də verdiyi bəyanatı sərt şəkildə qınayır.**

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından məlumat verilib.

Bildirilib ki, Ermənistan Xarici İşlər Nazirliyi sözügedən bəyanatında Qərbi azərbaycanlıların Ermənistandan guya könüllü köçdüklərini, Ermənistan tərəfindən onlara kompensasiya ödəndiyini və bu ölkədəki Azərbaycan mədəni irsinin qorunduğunu iddia edir.

Ermənistandan zorla çıxarılmış azərbaycanlıları özündə birləşdirən qərbi Azərbaycan İcması Ermənistan hökumətinin bu bəyanatının başdan-başa yalan olduğunu bildirir.

Azərbaycanlıların Ermənistandan bu ölkənin hakimiyyət orqanlarının birbaşa iştirakı ilə, zor tətbiq etməklə çıxarılması hamıya məlum olan faktdır. Sonuncu deportasiya dalğasında azərbaycanlıların əksər hissəsinin - 300 minə yaxın insanın 1988-ci ilin noyabr ayının sonu, dekabr ayının əvvəlində cəmi bir həftə ərzində öz evlərini tərk edib Azərbaycana qaçmağa məcbur qalmaları, bu proses zamanı 216 nəfər azərbaycanlının qətlə yetirilməsi bu köçün zorakı deportasiya olmasını sübut edir. Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın azərbaycanlıların Ermənistandan qovulmasını "tarixi uğur" kimi təqdim etməsi, sözügedən faciənin Ermənistanın dövlət siyasəti olduğunu göstərir.

Qayıdış hüququndan imtina müqabilində "kompensasiya" ödənilməsi barədə iddiaya gəlincə, qeyd edək ki, ilk dəfə Ermənistanın Baş naziri səviyyəsində 2023-cü ilin avqust ayında irəli sürülmüş bu yalanla bağlı Ermənistan tərəfi hələ də bir sübut ortaya qoymayıb. Ermənistan ərazisindəki müsəlman irsi ilə bağlı qeyd edək ki, bu ölkə ərazisində dövlət qeydiyyatına alınmış 269 məsciddən 268-i, 700-ə yaxın məzarlıq isə yer üzündən silinib.

Ermənistan hökumətinin yalana söykənərək qayıdış hüququmuzu inkar etməsi, dialoqdan yayınması bu ölkənin sülh və barışıq niyyətində olmadığını göstərir. Ermənistanın hazırkı hökuməti qərbi azərbaycanlıların qayıdış hüququnu inkar etməklə əvvəlki hökumətlərin siyasətlərini davam etdirir.

Qərbi Azərbaycan İcması bir daha bəyan edir ki, haqq-ədalətin öz yerini tutması, öz ata-baba yurdlarından zorla çıxarılmış qərbi azərbaycanlıların öz evlərinə qayıtması, dağıdılmış mədəni irsin bərpası və insanlıq əleyhinə cinayət törədənlərin məsuliyyətə cəlb olunması üçün səylərini davam etdirəcək.

Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti Ermənistan hökumətinə destruktiv siyasətindən əl çəkməsi üçün təzyiq göstərməyə, bütün dövlətləri, beynəlxalq təşkilatları Ermənistan Xarici İşlər Nazirliyinin 2025-ci il iyunun 23-də verdiyi sözügedən bəyanatını bu dövlətin irqi ayrı-seçkilik siyasətini sübut edən dəlil kimi pisləməyə çağırır.

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin iyul ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 17, 30 (Bakı şəhəri) | Rəşadət Xalıqov +99450 263 5318<br>25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 10 (Naxçıvan MR, Sədərək rayonu)<br>19 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova +99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 10 (Yardımlı rayonu)<br>24 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 09 (Kürdəmir rayonu)<br>16 (Hacıqabul rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 06, 08 (Füzuli rayonu)<br>09, 10 (Ağcabədi rayonu) | Fərhad Əliyev +99451 230 3237<br>85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 05 (Salyan rayonu)<br>12 (Neftçala və Biləsuvar rayonları) | Pərviz Mirizadə +99451 640 1962<br>65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 13, 27 (Tovuz rayonu)<br>14, 28 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 18, 30 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 11, 21 (Sumqayıt şəhəri) | Tayfun Hacılı +99470 220 0577<br>46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 02, 28 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99450 277 0984<br>93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 02, 09 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | Arpadarai Nigar Cavid qızı | 09, 23 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112<br>7sayli_sd@meclis.gov.az |
| 13. | Aslanov Novruzəli Davud oğlu | 03, 10, 17, 24 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 14. | Badamov Azər Camal oğlu | 13, 20 (Qusar rayonu) | General Sadulov +99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 15. | Bayramov Kamran Fərhad oğlu | 12 (Göygöl rayonu)<br>19 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Vüqar İbad oğlu | 09, 23 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 17. | Bədəlov Bədəl Şamil oğlu | 05 (Goranboy rayonu)<br>19 (Naftalan şəhəri) | Mahyəddin Mazanov +99470 310 2733<br>96sayli_sd@meclis.gov.az |
| 18. | Cəfərov Kamal Xaqani oğlu | 06, 20 (Sabirabad rayonu) | Azad Əhmədbəyli +99455 222 2588<br>68sayli_sd@meclis.gov.az |
| 19. | Cəfərov Müşfiq Cəfər oğlu | 07 (Gəncə şəhəri)<br>18 (Goranboy rayonu) | Sahib Əmiraslanov +99450 255 2039<br>41sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərova Tamam Şaməmməd qızı | 6, 14 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090<br>88sayli_sd@meclis.gov.az |
| 21. | Əfəndiyev Məzahir Cavid oğlu | 12 (Ağdaş rayonu)<br>19 (Göyçay rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 22. | Əfəndiyeva Günay Elçin qızı | 12, 26 (Bakı şəhəri) | Məhsəti Qarayeva +99455 235 1575<br>14sayli_sd@meclis.gov.az |
| 23. | Ələkbərov Əziz Yusif oğlu | 05, 19 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 24. | Əliyev Bəxtiyar Həmzə oğlu | 10, 19 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 25. | Əliyeva Jalə Fazil qızı | 01, 14 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 26. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 01, 10 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451 277 0067<br>27sayli_sd@meclis.gov.az |
| 27. | Əmiraslanov Azər Kamal oğlu | 11, 25 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 28. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 19, 26 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 29. | Əsədov Heydər Xanış oğlu | 21, 28 (Şirvan şəhəri) | Arif Qasımov +99450 319 5888<br>51sayli_sd@meclis.gov.az |
| 30. | Əsgərov Asif Yunis oğlu | 05, 12 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 31. | Feyziyev Cavanşir Əyyub oğlu | 19, 30 (Şəki şəhəri) | Turan Salamov +99455 280 7750 / +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 32. | Fətəliyeva Sevinc Həbib qızı | 02, 11 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 33. | Fətiyev Xanlar Nuru oğlu | 03, 24 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 34. | Gəncəliyev Tural Babaşah oğlu | 07, 24 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 35. | Hacıyev Sabir Kamal oğlu | 03, 10 (Göyçay rayonu) | Əli Qafarov +99450 200 2209<br>91sayli_sd@meclis.gov.az |
| 36. | Həmzəyev Naqif Ələşrəf oğlu | 09, 31 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 37. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 11, 26 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev +99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 38. | Həsən Ramil Sahib oğlu | 10, 24 (Ucar rayonu) | Vüqar Səlimov +99451 215 6141<br>94sayli_sd@meclis.gov.az |
| 39. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 12, 26 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 40. | Həsənov Malik Əvəz oğlu | 08, 26 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116<br>71sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Nurlan Urfan oğlu | 05, 12 (Şəmkir rayonu) | Anar Quliyev +99450 753 4433<br>103sayli_sd@meclis.gov.az |
| 42. | Həsənova Afət Əbil qızı | 16, 23 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 43. | Hüseynli Əli Məhəmməd oğlu | 05, 26 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynov Aydın Nəsir oğlu | 09, 16 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynova Hicran Kamran qızı | 09, 30 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Sevinc Əmirəhməd qızı | 05, 19 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979<br>104sayli_sd@meclis.gov.az |
| 47. | Xasayeva Səbinə Səməd qızı | 02, 09 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134<br>11sayli_sd@meclis.gov.az |
| 48. | İbrahimqızı Məlahət İbrahim qızı | 03, 17 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimli Fəzail Feyruz oğlu | 10, 19 (Cəlilabad rayonu) | Faiq Ağayev +99450 201 5670/<br>+99450 277 5549 73sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimov Eldar Rza oğlu | 14, 21 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 51. | İsgəndərov Anar Camal oğlu | 12, 26 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 52. | İskəndərov Vüqar Yapon oğlu | 05, 19 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 53. | İsmayılov İmamverdi İbiş oğlu | 07, 21 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov Şahin Əmir oğlu | 12, 26 (Beyləqan rayonu) | Çingiz Səfərov +99455 444 3366<br>83sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılzadə Fariz Akif oğlu | 19, 26 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7872<br>77sayli_sd@meclis.gov.az |
| 56. | Kərimli Azər Şəmşid oğlu | 12, 26 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 57. | Kərimzadə Pərvin Orxan qızı | 02, 16 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685<br>39sayli_sd@meclis.gov.az |
| 58. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 23, 30 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Vasif Vaqif oğlu | 05, 12 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 60. | Qasımlı Mircəlil Xəqani oğlu | 01 (Bakı şəhəri)<br>04 (Oğuz rayonu) | Anar Çıraqov +99499 309 1131<br>123sayli_sd@meclis.gov.az |
| 61. | Qədirli Erkin Toğrul oğlu | 07, 21 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 62. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 03, 17 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 63. | Quliyev Azay Əjdər oğlu | 02, 30 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Eldar Allahyar oğlu | 06, 20 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899<br>28sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Musa İsa oğlu | 05, 19 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Ülvi Zahid oğlu | 03, 24 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 67. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 15 (Bakı şəhəri)<br>26 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 05, 19 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968 /<br>+99451 774 3782<br>117sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Sadiq Haqverdi oğlu | 05, 26 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 70. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 06, 20 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 71. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 12, 26 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 72. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 06, 13 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99455 283 1705 /<br>+99470 300 1461<br>69sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 05, 19 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 74. | Məmmədli Müşfiq Fazil oğlu | 05, 12 (Xızı rayonu) | Nəsimi Əliyev +99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədov Anar İlyaz oğlu | 12, 13 (Tərtər rayonu)<br>26 (Samux rayonu)<br>27 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az<br>anarmammadov@meclis.gov.az |
| 76. | Məmmədov Ceyhun Valeh oğlu | 12 (Saatlı rayonu)<br>26 (Abşeron rayonu) | Rəşad Quliyev +99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 77. | Məmmədov Elman Camal oğlu | 07, 14 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 /<br>+99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Hikmət Baba oğlu | 09, 23 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov İlham Kazım oğlu | 05, 26 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov Qaya Məmməd oğlu | 09, 16 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Məşhur Şahbaz oğlu | 12, 19 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Soltan Teymur oğlu | 12, 19 (Bakı şəhəri) | Azər Məlikov +99450 373 4403<br>12sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədova Nigar Fikrət qızı | 02, 10 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 84. | Məsimli Əli Əhməd oğlu | 20 (Qax rayonu)<br>21 (Şəki şəhəri) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 85. | Mikayılova Sevil Əlirazı qızı | 09, 17 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 86. | Mirkişili Tahir Famil oğlu | 07, 21 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 87. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 12, 24 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 10, 27 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 89. | Mollazadə Asim Nazim oğlu | 09, 23 (Bakı şəhəri) | İlkin Həsənov +99450 203 7066<br>22sayli_sd@meclis.gov.az |
| 90. | Möhbalıyev Səttar Suliddin oğlu | 03 (Naxçıvan MR, Babək rayonu)<br>25 (Naxçıvan MR, Şahbuz rayonu) | Rizvan Hüseynquliyev +99455 744 2537 /<br>+99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 91. | Muradov Rövşən Şahbaz oğlu | 06 (Bakı şəhəri)<br>20 (İsmayıllı rayonu) | Murad Həsənli +99450 510 9897<br>121sayli_sd@meclis.gov.az |
| 92. | Musabəyov Rasim Nəsrəddin oğlu | 08, 22 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 93. | Musayev Elşad Nəbi oğlu | 05, 19 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 744 9919 /<br>+99450 669 5919<br>10sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşən Məmmədhənifə oğlu | 12, 19 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 95. | Mustafa Fazil Qəzənfər oğlu | 07, 14, 21 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 96. | Nağıyev Arzu Nəsib oğlu | 12 (Tovuz rayonu)<br>26 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 97. | Namazov Ramid Zakir oğlu | 08, 31 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986<br>50sayli_sd@meclis.gov.az |
| 98. | Nəbiyev Rizvan Novruz oğlu | 10, 26 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 99. | Nəsirov Elman Xudam oğlu | 12, 19 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 100. | Novruzov Siyavuş Dünyamalı oğlu | 12, 20 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |

*Ardı 11-ci səh.*

# AMEA-da akademik Ziyad Səmədzadənin 85 illiyi qeyd olunub

**İyunun 23-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanınmış iqtisadçı-alim, Milli Məclisin deputatı, "akademik Ziyad Səmədzadənin 85 illiyinə həsr olunan "Azərbaycan Respublikasının iqtisadi-siyasi inkişaf mərhələləri və müasir dövr" mövzusunda tədbir keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət rəsmiləri, Milli Məclisin deputatları, tanınmış ziyalılar, elm və təhsil müəssisələrinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Mərasimi AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq akademik Ziyad Səmədzadənin Azərbaycanda iqtisad elminin inkişafında əvəzsiz xidmətlərindən danışıb. Bildirib ki, görkəmli alim fundamental araşdırmaları ilə müasir iqtisad elminin, eləcə də Azərbaycanın sosial-iqtisadi inkişaf problemlərinin dərin təhlillər əsasında öyrənilməsinə sanballı töhfələr verib. O, Prezident İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" sərəncamının işığında bu elm ocağının yubileyi ilə əlaqədar yenidən çapa hazırlanan "Azərbaycan Milli Elmlər Akademiyası simalarda" kitabında akademik Ziyad Səmədzadə haqqında da ensiklopedik məlumatların yer aldığını diqqətə çatdırıb. Yubilyarın ömür yoluna və çoxşaxəli elmi fəaliyyətinə nəzər salan AMEA rəhbəri onun 25 yaşında namizədlik, 31 yaşında doktorluq dissertasiyalarını uğurla müdafiə etdiyini, 40 yaşında AMEA-nın müxbir üzvü, 49 yaşında isə AMEA-nın həqiqi üzvü seçildiyini bildirib.

"Ömrünün böyük bir hissəsini elmə həsr edən akademik Ziyad Səmədzadə fəaliyyətində Azərbaycanın iqtisadi müstəqilliyi məsələsini daim diqqət mərkəzində saxlayıb", - deyən AMEA prezidenti vurğulayıb ki, alim xüsusən Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə dahi liderin apardığı böyük siyasətdə əsas istiqamətlərdən biri olan iqtisadi müstəqillik məsələsini elmi cəhətdən həmin zamanın şərtlərinə uyğun ifadə etməyi bacarıb. Akademik Ziyad Səmədzadə istər keçid dövrü iqtisadiyyatını, istərsə də Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan modernləşmə, yeniləşmə və islahatlar dövrünün iqtisadi proseslərini təhlil edərkən iqtisadi müstəqillik və iqtisadi inkişaf nöqteyi-nəzərindən məsələlərə baxıb.

Akademik Ziyad Səmədzadənin iqtisad elmini bir sıra yeniliklərlə zənginləşdirdiyini söyləyən AMEA rəhbəri onun "Dünya iqtisadiyyatı: Çin "iqtisadi möcüzəsi" və "Çin qlobal dünya iqtisadiyyatında" kitablarının bu ölkənin uğurlu iqtisadi inkişafının səbəblərini öyrənməklə bərabər, milli maraqlara cavab verən iqtisadi siyasət və sistemli iqtisadi islahatlar üçün də dəyərli mənbə olduğunu vurğulayıb. O, həmçinin alimin ideya müəllifi və baş redaktoru olduğu 7 cildlik "Böyük İqtisadi Ensiklopediya"nın hazırlandığını diqqətə çatdırıb. Bildirib ki, bu ensiklopedik külliyyat əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin çevik praqmatizmlə reallaşdırdığı Azərbaycanın iqtisadi inkişaf modeli barədə aydın təsəvvür yaradır.

Sonra Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun laboratoriya müdiri AMEA-nın müxbir üzvü Qorxmaz İmanov alimin həyat və fəaliyyətinə dair geniş məruzə ilə çıxış edib.

Tədbirdə Milli Məclisin sədr müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov, Belarusun ölkəmizdəki səfiri Dmitri Pineviç, Milli Məclisin İntizam komissiyasının sədri professor Eldar İbrahimov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri siyasi elmlər doktoru Hicran Hüseynova, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov, Milli Məclisin Hesablayıcı Komissiyasının sədri, Azərbaycan Ağsaqqallar Şurasının sədri professor Eldar Quliyev, Azərbaycan Auditorlar Palatasının sədri professor Vahid Novruzov, Milli Məclisin deputatı professor Fəzail İbrahimli, UNEC-in professoru Məhiş Əhmədov, Azərbaycan Kooperasiya Universitetinin professoru Aynurə Allahverdiyeva və digərləri çıxış edərək Ziyad Səmədzadənin iqtisad elmində tutduğu mövqedən danışıb, yubilyarı təbrik ediblər. Çıxışlarda bildirilib ki, akademik Ziyad Səmədzadə respublikada iqtisadi qanunvericilik bazasının möhkəmləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi, iqtisadi innovasiyaların inkişafı və s. məsələlərin həllində fəal iştirak edib.

Sonda çıxış edən yubilyar böyük diqqət və qayğıya görə minnətdarlığını bildirib, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkür edib.

# Samuxda festival festivala qarışdı

**Samuxda "Regional İnkişaf" İctimai Birliyinin və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə II Ərik və Aqrar Biznes festivalları keçirilib.**



Festivallarda rayon rəhbərliyi ilə yanaşı, müxtəlif nazirlik və komitələrin məsul şəxsləri, bir neçə ali təhsil müəssisəsinin və türkdilli dövlətlərin nümayəndələri, yerli və xarici iş adamları, rayon ictimaiyyəti iştirak etmişlər.

İştirakçılar öncə Ümummilli Lider Heydər Əliyevin və Samux Şəhidləri Abidə Kompleksini ziyarət etmiş, Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinə dair fotostendlərlə tanış olmuşlar. Tədbirlər çərçivəsində qonaqlar rayonda fəaliyyət göstərən "Casa Aqro" MMC-nin təsərrüfat sahəsinə baxış keçirmiş, istehsal olunan məhsullarla tanış olmuşlar.

Festivallarla əlaqədər Samux şəhərinin mərkəzi küçə və prospektlərində, park və xiyabanlarında sakinlərin və qonaqların iştirakı ilə bayram paradı keçirilmişdir. Heydər Əliyev prospektində yeni salınan Samux parkında təşkil olunan festivallarda milli mətbəximizin təamları, fermerlərin yetişdirdikləri müxtəlif ərik növləri və onlardan hazırlanmış mürəbbələr, eləcə də ərik şirələri təqdim olunmuşdur. Ərik Festivalı çərçivəsində sənətkarların hazırladıqları stendlər, gənc idmançıların nümayiş etdirdikləri müxtəlif yarışlar, uşaqların ifasında milli rəqslər, məktəblilərin əriklə bağlı hazırladıqları əl işləri və çəkdikləri rəsmlər maraqla qarşılanmışdır.

Aqrar Biznes Festivalında isə kənd təsərrüfatı təyinatlı qurğu və avadanlıqlar, yeni texnologiyalar sərgilənmiş, aqrar sahədə fəaliyyət göstərən texnika, gübrə, toxum və dərmanlar nümayiş etdirilmişdir. Diqqətə çatdırılmışdır ki, festivalın keçirilməsində əsas məqsəd fermerlərin yetişdirdikləri məhsulları nümayiş etdirmək, fermer və sahibkarlar arasında işgüzar əlaqələri genişləndirmək, aqroturizm potensialını canlandırmaq, Samux əriyinin brendləşməsinə, rayonun sosial-iqtisadi və mədəni inkişafına təkan verməkdir.

Açılış mərasimində rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev çıxış edərək Samuxda kənd təsərrüfatının inkişafı barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Bildirmişdir ki, Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı istiqamətində gördüyü işlər, o sıradan kənd təsərrüfatına da diqqət və qayğısı nəticəsində rayonlarda bağçılıq ildən-ilə inkişaf edir. Samux rayonunda təkcə ərik bağlarının sahəsi 500 hektardan çoxdur və həmin bağlarda 16 növ ərik yetişdirilir.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov isə çıxışında son dövrlər ölkəmizdə müxtəlif meyvələrə həsr olunmuş festivalların keçirilməsinin ənənə halını almasından, bu cür kütləvi tədbirlərin kənd təsərrüfatı məhsullarına, xüsusən mövsümi meyvələrə marağı artırmaq baxımından əhəmiyyətindən danışmışdır.

Rəsmi hissədən sonra bayram konserti olmuş, tədbirə möhtəşəm atəşfəşanlıqla yekun vurulmuşdur.

Qeyd edək ki, Ərik Festivalının Samuxda keçirilməsi təsadüfi deyil. Azərbaycanda ən çox ərik yetişdirilən bu rayonda son dövrlər intensiv ərik bağları salınmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin iyul ayında vətəndaşların qəbulu cədvəli

*Əvvəli 10-cı səh.*

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 101. | Nurullayev Razi Qulaməli oğlu | 02 (İmişli rayonu)<br>14 (Bakı şəhəri) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayeva Könül Oruc qızı | 03, 14 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 /<br>+99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 103. | Oruc Zahid Məhərrəm oğlu | 04, 25 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 104. | Paşayeva Gülşən Məmmədəli qızı | 02, 19 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 105. | Paşazadə Cavanşir Hümmət oğlu | 13, 20 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 106. | Polad Bülbüloğlu | 08, 15 (Bakı şəhəri,<br>Milli Məclisin inzibati binası) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 05, 12 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 /<br>+99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 19 (Naxçıvan MR, Ordubad rayonu)<br>26 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 10, 31 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 10,11 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | Salahlı Səyyad Adil oğlu | 19 (İmişli rayonu)<br>26 (Saatlı rayonu) | Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 112. | Salmanova Səbinə Qədir qızı | 09, 30 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 113. | Seyidov Səməd İsmayıl oğlu | 07, 28 (Qazax rayonu) | Akif Əmirov +99450 791 2111<br>109sayli_sd@meclis.gov.az |
| 114. | Seyidzadə Şahin Kamil oğlu | 03 (Qobustan rayonu)<br>10 (Şamaxı rayonu) | Elman Mikayılov +99450 288 9938<br>87sayli_sd@meclis.gov.az |
| 115. | Səfərov Nizami Abdulla oğlu | 15, 29 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 116. | Səmədzadə Ziyad Əliabbas oğlu | 10, 24 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 117. | Süleymanlı Mahir Tahir oğlu | 10, 25 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 118. | Şükürov Zaur Ramiz oğlu | 02 (Sumqayıt şəhəri)<br>09 (Şabran rayonu) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Ağalar İsrəfil oğlu | 07, 21 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyev Samir Əhməd oğlu | 01, 11 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Mehriban Hidayət qızı | 02, 16 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 122. | Vəliyeva Pərvanə Bulut qızı | 01, 31 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 123. | Yıldırım Fatma Vidadi qızı | 07, 16 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 124. | Zabelin Mixail Yuryeviç | 12, 26 (Bakı şəhəri) | Firdovsi Cahangirov +99450 225 2722<br>34sayli_sd@meclis.gov.az |

**Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.**

# "AzerGold" QSC-nin sikkələri Honkonq Beynəlxalq Numizmatika Sərgisində təqdim olunub





**Azərbaycanın qiymətli metallar sənayesi üzrə aparıcı dövlət şirkəti olan "AzerGold" QSC ölkəmizi növbəti dəfə beynəlxalq platformada uğurla təmsil edib.**

Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, şirkətin qızıl və gümüş sikkə kolleksiyaları 20-22 iyun tarixlərində keçirilən 14-cü Honkonq Beynəlxalq Numizmatika Sərgisində ilk dəfə nümayiş olunub.

Bu beynəlxalq tədbir nadir sikkələr, qiymətli metallar, tarixi əsginas kolleksiyalarına dair dünyanın ən nüfuzlu sərgilərindən biri kimi tanınır. Hər il burada müxtəlif ölkələrdən dövlət zərbxanaları, numizmatika şirkətləri və kolleksiyaçılar iştirak edirlər.

6 min nəfərdən çox ziyarətçinin qatıldığı sərgidə təqdim edilən sikkələr Azərbaycanın zəngin tarixi və mədəni irsini əks etdirən dizaynı, yüksək keyfiyyəti ilə iştirakçı şirkətlər və ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

Sərgi çərçivəsində "AzerGold" QSC-nin stendində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə "Smartminting" texnologiyası əsasında üçölçülü formatda ərsəyə gətirilmiş "100 il və onun fövqündə bir irs" qızıl sikkəsi, İçərişəhərə, həmçinin Heydər Əliyev Fondunun 20 illiyinə həsr olunmuş qızıl sikkə, yeni nəsil "Bakı" gümüş sikkəsi, "Qarabağ kolleksiyası"na aid qiymətli məhsullar və digər tematik sikkələr yer alıb.

Sərgi çərçivəsində həmçinin regionun satış platformaları ilə birbaşa əlaqələrin qurulması, eləcə də distribusiya imkanları və əməkdaşlıq potensialının dəyərləndirilməsi məqsədilə Honkonqun qiymətli metalların satışı üzrə aparıcı şirkətlərindən olan "Precious Metals Asia", o cümlədən "Kinesis" şirkətinin təmsilçiləri ilə işgüzar formatda görüşlər keçirilib.

# Azərbaycanda ilk dəfə UFC turniri keçirilib











**İyunun 21-də Bakı Kristal Zalında Azərbaycanda ilk dəfə UFC turniri keçirilib.** AZƏRTAC **xəbər verir ki, yarışda ümumilikdə 24 idmançı qüvvəsini sınayıb.**

Müxtəlif çəkili idmançılar ilkin və əsas döyüşlərdə mübarizə aparıblar.

Maraqlı idman mübarizəsi şəraitində keçən turnirdə 12 nəfər qalib olub.

Qeyd edək ki, əsas döyüşlər yüngül çəkidə Azərbaycan idmançısı Rafael Fiziyevlə çilili İqnasio Bahamondes və yarımağır çəkidə ABŞ təmsilçiləri Camal Hill ilə Xalil Rauntri arasında olub. Bu döyüşlərdən Rafael Fiziyev və Xalil Rauntri qalib ayrılıblar.

Azərbaycanın digər təmsilçisi Nazim Sadıxov braziliyalı Nikolas Motta ilə qarşılaşıb. Gərgin və maraqlı keçən görüşdə N.Sadıxov rəqibini ikinci raundda nokautla məğlub edib. Yüngül çəkidə mübarizə aparan digər idmançımız Tofiq Musayev isə qırğızıstanlı Mıqtıbek Orolbaya məğlub olub.

Yarışda həmçinin Muhammad Usman (Nigeriya), Taqir Ulanbekov (Rusiya), Klaudiya Siqula (Polşa), Darya Jeleznyakova (Rusiya), Pak Çun Yon, Sok Hyön Ko (hər ikisi Cənubi Koreya), Məhəmməd Nayimov (Tacikistan), Körtis Bleyds (ABŞ) qələbəyə sevinən tərəf olublar.

* * *

Qeyd edək ki, UFC kimi mötəbər turnirin Bakıda təşkil olunması Azərbaycanın idman ölkəsi kimi dünyada artan nüfuzunun daha bir göstəricisidir. UFC-nin prezidenti Deyna Uayt iyunun 20-də Prezident İlham Əliyevlə görüşdə bu turnirə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını vurğulayaraq, göstərilmiş dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

UFC turnirinin Bakıda bu cür təşkili təsadüfi deyil. Belə ki, indiyədək ölkəmizdə çox sayda nüfuzlu beynəlxalq idman yarışı ən yüksək standartlara cavab verməklə keçirilib və idmançılar, tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva və ailə üzvləri də turniri izləyiblər.

# *Gürcü iqtisadçı:* «Orta dəhliz Avropa üçün yeganə real və etibarlı alternativə çevrilib»

AZƏRTAC **Gürcüstan Milli Elmlər Akademiyasının akademiki, iqtisad elmləri doktoru, Tbilisi Dövlət Universitetinin professoru Vladimer Papava ilə müsahibəni təqdim edir.**



*- Qlobal logistika zəncirlərinin transformasiyası kontekstində Orta dəhlizin geosiyasi əhəmiyyətini necə qiymətləndirirsiniz?*

- Müasir qloballaşma şəraitində, xüsusilə bu prosesin getdikcə daha çox qarşıdurma xarakteri aldığı bir dövrdə nəqliyyat dəhlizlərinin əhəmiyyəti böyük dərəcədə artır. Hazırda dünyanın aparıcı gücləri arasında həm siyasi, həm də hərbi səviyyədə qarşıdurmalar müşahidə olunur. Belə bir vəziyyətdə sabit və dayanıqlı logistika marşrutlarının təmin olunması prioritet məsələyə çevrilir. Bu gün Avropa ilə Asiyanı birləşdirən üç əsas marşrut mövcuddur: Rusiya üzərindən keçən Şimal dəhlizi, İran və Türkiyə üzərindən keçən Cənub dəhlizi və Azərbaycan ilə Gürcüstan üzərindən keçən Orta dəhliz. Şimal dəhlizi Rusiya 2022-ci ildə Ukraynaya hərbi müdaxilə etdikdən və Qərbin sanksiyaları tətbiq olunduqdan sonra faktiki olaraq bloklanmış vəziyyətə düşüb. Cənub dəhlizi isə elə əvvəlindən, xüsusilə də İrandakı siyasi vəziyyət və bu ölkənin rolu səbəbi ilə bir sıra suallar doğururdu. Hazırda isə İsraillə İran arasında başlayan müharibə və ABŞ-nin də bu prosesə dolayısı ilə cəlb olunması bu marşrutun etibarlılığını ciddi şəkildə azaldıb. Beləliklə, Orta dəhliz hal-hazırda Avropa ilə Asiyanı birləşdirən ən real, sabit və qısa marşrut olaraq qalır.

Qeyd etmək lazımdır ki, Çin 2013-cü ildə "Bir kəmər, bir yol" təşəbbüsünü irəli sürdüyü zaman Orta dəhliz bu layihənin ilkin xəritələrində yer almamışdı. Yalnız Azərbaycan və Gürcüstan rəhbərliyinin səyləri nəticəsində bu dəhliz sonradan layihəyə daxil edildi. Bu gün isə o, real fəaliyyət göstərən yeganə quru marşrutdur və həm Asiya, həm də Avropa ölkələrinin maraqlarına tam cavab verir. Hazırda əsas vəzifə — Orta dəhlizin buraxılış qabiliyyətinin artırılmasıdır. Əminəm ki, infrastrukturun genişləndirilməsinə yönələn investisiyalar da tapılacaq.

*- Mövcud geosiyasi şəraitdə Zəngəzur dəhlizinin perspektivlərini necə qiymətləndirirsiniz? Bu dəhliz Orta dəhlizin davamı ola bilərmi?*

- Zəngəzur dəhlizi, şübhəsiz ki, böyük əhəmiyyətə malikdir. Gələcəkdə Zəngəzur dəhlizinin istifadəyə veriləcəyi şübhə doğurmur. Bu dəhliz həmçinin Orta dəhlizin buraxılış qabiliyyətinin artırılmasında mühüm rol oynaya bilər.

*- Ukraynada müharibənin başlanmasından və Yaxın Şərqdəki gərginliyin artmasından sonra Avropa İttifaqı və Çinin Orta dəhlizə marağı necə dəyişdi?*

- Çin hər zaman mövcud olan bütün marşrutlardan istifadə etməyə çalışıb, buna görə də mənim fikrimcə, o, nəqliyyat dəhlizlərini bir-birinə rəqib deyil, qarşılıqlı bir-birini tamamlayan marşrutlar kimi görür. Bu, çox vacib bir yanaşmadır. Avropa İttifaqı da Asiya ilə, xüsusilə Çin və Mərkəzi Asiya ölkələri ilə dayanıqlı əlaqəyə maraq göstərir. Şimal dəhlizinin bloklanması və Cənub dəhlizinin ən azından qeyri-sabit olması fonunda Orta dəhliz Avropa üçün yeganə real və etibarlı alternativə çevrilib.

*- Gürcüstanın bu dəhliz çərçivəsində logistika və enerji habına çevrilmək potensialını necə qiymətləndirirsiniz? Bu məqsədlə hansı islahatlar və investisiyalar tələb olunur?*

- Gürcüstanın, xüsusilə də Azərbaycanla sıx əməkdaşlığı davam etdirəcəyi təqdirdə, həqiqətən də ciddi potensialı var. Bu iki ölkə artıq Cənubi Qafqazda bir növ tandem formalaşdırıblar və məhz bu formatda onlar mühüm regional logistika və enerji mərkəzinə çevrilə bilərlər. Bunun üçün ilk növbədə nəqliyyat infrastrukturu, enerji sahəsi – o cümlədən bərpaolunan enerji mənbələrinin inkişafı – və əlavə dəyər yaradacaq sənaye layihələrinə genişmiqyaslı investisiyaların cəlb olunması vacibdir. Həmçinin önəmlidir ki, Gürcüstan və Azərbaycan birgə təşəbbüsləri və layihələri beynəlxalq platformalarda – istər iqtisadi, istər nəqliyyat, istərsə də enerji forumlarında fəal şəkildə irəli sürsünlər. Bu, Avrasiya inteqrasiyası və dayanıqlı tranzit marşrutlarının inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

*- Çin-Mərkəzi Asiya-Xəzər-Cənubi Qafqaz-Avropa marşrutu üzrə dayanıqlı infrastrukturun yaxın illərdə yaradılması nə dərəcədə realdır? Bu istiqamətdə ilk növbədə hansı əsas maneələr aradan qaldırılmalıdır?*

- İlk növbədə dəmir yolu xətlərinin buraxılış qabiliyyəti artırılmalıdır. Daha sonra – Xəzər və Qara dəniz limanlarının inkişafı gəlir. Bunlar texniki xarakterli məsələlərdir və investisiyalar olduqda həll edilə bilər. Lakin burada siyasi məqamlar da mövcuddur: region ölkələri və Avropa bu dəhlizin inkişafına maraq və səylərini koordinasiya etməyə hazırlıq nümayiş etdirməlidirlər.

*- Siz Orta dəhlizin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və "Bir kəmər, bir yol" kimi digər layihələrlə rəqabət riski yaratdığını, yoxsa əksinə, sinerji doğurduğunu düşünürsünüz?*

- Mən bu layihələr arasında rəqabət görmürəm. Bu marşrutların hamısı Avrasiyanın daha geniş nəqliyyat və iqtisadi memarlığının tərkib hissəsidir. Çin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsü ilkin mərhələdən etibarən geniş və çoxşaxəli nəqliyyat əlaqələrinin qurulmasına yönəlmişdi və zaman keçdikcə Orta dəhliz bu şəbəkənin mühüm hissəsinə çevrildi. Hazırkı geosiyasi qeyri-sabitlik şəraitində bir istiqamətdən asılılığı azaltmaq üçün bir neçə alternativ və bir-birini tamamlayan marşrutlara malik olmaq son dərəcə vacibdir. Orta dəhliz bütün Avrasiya nəqliyyat sisteminin çevikliyini artırır, onun dayanıqlığını möhkəmləndirir və region ölkələri üçün ticarət, tranzit və iqtisadi əməkdaşlıq sahəsində daha çox imkanlar yaradır. Beləliklə, o, digər marşrutlarla rəqabət aparmır, əksinə, bütövlükdə Avrasiya məkanının strateji dayanıqlılığını gücləndirir.

*- Türkiyə və Azərbaycan Orta dəhlizin həyata keçirilməsində hansı rolu oynayır? Ankara–Bakı–Tbilisi adlı yeni geoiqtisadi oxun formalaşmasından danışmaq olarmı?*

- Bu geoiqtisadi ox artıq formalaşıb və aktiv şəkildə fəaliyyət göstərir. Son illərdə Türkiyə, Azərbaycan və Gürcüstan enerji və nəqliyyatdan tutmuş, müdafiə sahəsində əməkdaşlıq və rəqəmsal transformasiyaya qədər əsas istiqamətləri əhatə edən davamlı strateji tərəfdaşlıq qurublar. Orta dəhliz məhz bu tərəfdaşlığın praktik təzahürüdür. Bakı-Tbilisi-Qars dəmir yolu, neft və qaz kəmərləri, həmçinin dəniz limanlarının inkişafı kimi infrastruktur layihələri bu oxun təməlini təşkil edir. Bu gün əsas məsələ yalnız mövcud nailiyyətləri qoruyub saxlamaq deyil, həm də bu oxun potensialını genişləndirməkdir. Bunun üçün fəaliyyətlərin koordinasiyasını artırmaq, gömrük və tarif tənzimləməsini təkmilləşdirmək, həmçinin birgə investisiyaların cəlb olunması vacibdir. Geosiyasi qeyri-sabitlik və dəyişən qlobal logistika şəraitində məhz bu ox Avropa ilə Asiya arasında dayanıqlı bağlantıların təmin edilməsində açar rolu oynaya bilər.

*- Dəhliz ölkələri arasında gömrük, nəqliyyat və rəqəmsal inteqrasiya sahəsində koordinasiya nə dərəcədə vacibdir? Belə əməkdaşlıq üçün real mexanizmlər mövcuddurmu?*

- Ən başlıcası – dəhliz iştirakçıları arasında gömrük və tarif siyasətinin koordinasiyası və balanslaşdırılmasıdır. Bu olmadan malların fasiləsiz və iqtisadi cəhətdən səmərəli hərəkətini təmin etmək mümkün deyil. Tranzit prosedurlarının rəsmiləşdirilməsi üçün vahid yanaşmanın yaradılması, sənədləşmənin standartlaşdırılması və bürokratik maneələrin aradan qaldırılması zəruridir. Nəqliyyat sahəsində qrafiklərin sinxronizasiyası, logistika üzrə tələblərin unifikasiyası və birgə rəqəmsal infrastrukturun inkişafı tələb olunur. Bütün proseslərin rəqəmsallaşdırılması – yüklərin elektron işlənməsindən tutmuş hərəkətlərin izlənməsi üçün ümumi platformaların tətbiqinədək - xüsusilə önəmlidir.

Əməkdaşlıq mexanizmləri artıq mövcuddur: bu, Azərbaycan, Gürcüstan və Türkiyə arasında ikitərəfli və çoxtərəfli sazişlər, həmçinin beynəlxalq layihə və təşəbbüslərdə iştirakdır. Lakin Orta dəhlizin potensialından tam istifadə etmək üçün institusional koordinasiyanın gücləndirilməsi və bütün iştirakçı ölkələrin siyasi iradəsi zəruridir.

*- Orta dəhlizin infrastrukturuna əlavə investisiyaları necə cəlb etmək olar?*

- Ölkələrimiz beynəlxalq platformalarda – iqtisadi forumlarda, nəqliyyat konfranslarında və investisiya sammitlərində – razılaşdırılmış infrastruktur və logistika layihələrini birlikdə irəli sürməlidirlər. Bu zaman təkcə təşəbbüsləri təqdim etməklə kifayətlənməmək, həm də investorlar üçün mövcud reallıqları, inkişaf perspektivlərini və Orta dəhlizin strateji əhəmiyyətini aydın şəkildə nümayiş etdirmək vacibdir. Müasir geosiyasi vəziyyət özü yeni və dayanıqlı marşrutların axtarışını aktuallaşdırır və bu imkandan bacarıqla istifadə etmək lazımdır. Eyni zamanda, layihələri texniki-iqtisadi əsaslandırmalarla müşayiət etmək və beynəlxalq maliyyə institutlarını fəal şəkildə prosesə cəlb etmək vacibdir. Bu da öz növbəsində özəl kapitalın inamını artıracaq və daha irihəcmli investisiyaların cəlb edilməsinə imkan yaradacaq.

*- Orta dəhlizin uğuru halında Qara dəniz regionunun rolu necə dəyişəcək? Bu ərazini sabitlik və inteqrasiya zonasına çevirmək mümkündürmü?*

- Region ölkələri qarşılıqlı əlaqəni gücləndirər, infrastrukturu inkişaf etdirər və iqtisadi əməkdaşlığı artırarlarsa, bu, tamamilə mümkündür. Lakin çox şey Rusiyanın növbəti addımlarından asılı olacaq. Hazırda Rusiya, Ukraynaya qarşı davam edən müharibə və gərgin xarici siyasəti səbəbindən Qara dəniz məkanında əsas destabilizasiyaedici amil olaraq qalır. Hərbi təhdid səviyyəsini azaltmaq və siyasi dialoqu təmin etmək mümkün olsa, Qara dəniz regionu dayanıqlı inteqrasiya, tranzit və inkişaf məkanı ola bilər. Sabitliyin gələcəyi sülhə, açıq bazarlara və etibarlı nəqliyyat əlaqələrinə yönəlmiş ölkələrin səylərindən asılıdır.

*- Və nəhayət, Orta dəhliz yalnız nəqliyyat marşrutu olmaqla kifayətlənməyib, Şərq və Qərb arasında yeni regional əməkdaşlıq modelinin əsası ola bilərmi?*

- Şübhəsiz ki, ola bilər. Mən Orta dəhlizi yalnız nəqliyyat marşrutu kimi deyil, öncəliklə iqtisadi dəhliz kimi qiymətləndirirəm. O, bazarları birləşdirmək və infrastruktur yaratmaq qabiliyyətinə malikdir ki, bu da iqtisadi artımı təmin edəcək, Gürcüstan və Azərbaycan məhsullarının daha geniş bazarlara çıxışını təmin edəcək. Bu, Mərkəzi Asiya və Çindən başlayaraq Avropaya qədər bütün region ölkələrinin qarşılıqlı faydalı inkişafına aparan yoldur.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 25 may (Bazar günü) tarixli 187-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 24 şabanül-müəzzəm sənə 1337.
25 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

### İ. V. DENİSOVUN BANKİR KANTORASI

Həmin may ayının 28-də Rostova vəkil göndərir. Hər cür sifarişat və bərat qəbul olunur.

8785

### İ. V. DENİSOVUN BANKİR KANTORASI
*(Velikoknyajeski, nömrə 1)*

Açılıb və rus, ingilis, türk [dillərində] müamilatda [əməliyyatda] aşağıdakı üzrə bulunacaqdır: əcnəbi valyuta alıb və satmaq; ildə 6 faizlə cariyyə tövdiələr [əmanətlər] qəbulu; para bərat edilməsi, müxtəlif komisyon sifarişatı qəbul edilir.

8786

Azərbaycan Məclisi-Məbusan rəisi naminə gələn ərizələr daxilində bir çox imzasız ərizələrə təsadüf olunur ki, böylə imzasız gələn ərizələrə qanun mövcibincə [qanuna əsasən] əncam edilməyib buraxılmalıdır. Buna binaən [buna görə], Azərbaycan Məclisi-Məbusan naminə gəlmiş olan imzasız ərizələr baxılmamış və əncamsız qaldığı kimi, ərizə sahibi də ərzi-halına əncam ediləcəyini bəkləməkdə qalır. Azərbaycan Məclisi-Məbusan [rəisi] həzrətlərinin əmrlərinə binaən, ərizə göndərən zatlara bununla məlum edilir ki, göndərilən ərzi-halların cümləsi imza edilməlidir. Əks-təqdirdə ərizə sahibinin, hansı səbəbdən dolayı olursa olsun, ərizəsini imza etməmiş olduğu halda göndərilən ərizələr Məclisi-Məbusan tərəfindən sərəncamsız qalır.

*Parlaman İdarəsi vəkili: Vəkilov*
*Kargüzar: C. Paşazadə*
*T-134*

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

Bakı qəzası Əxzi-əsgər [Əsgərliyə çağırış] şöbəsi təzədən məlum edir ki, Bakı şəhərinin hamı polis uçastoklarının [sahələrinin] müsəlmanlarından qoşuna əsgərlik qulluğuna qəbul etmək üçün hər gün şöbənin iclası olur – cümə günləri və 28-inci may bayramı günündən savay. Və əlavə edir ki, sinnləri [yaşları] əsgərliyə müvafiq olan şəxslər dəvət olunan vaxtda gəlməsələr, qanuna müvafiq böyük tənbehə düçar olacaqlardır.

*Sədri-şöbə: Fyodorov*

### NAXÇIVAN VƏ QARABAĞ

Naxçıvan müsəlmanları Ararat hökumətinə tabe olmaq istəmədiyi kimi, Qarabağ erməniləri də Azərbaycan hökumətinə təbəəlik etmək istəməyirdilər və istəməyirlər.

Naxçıvan müsəlmanlarının böylə rəftara haqları vardı. Çünki oraların müsəlmanları ədədcə ermənilərdən çox olub, yerlərinin böyük qismi də müsəlmanlara məxsusdur. Halbuki ədədcə müsəlmanlardan az və yer-yurdca müsəlmanlardan kasıb olan Qarabağ erməniləri bu iddialarında heç bir haqqa malik deyildirlər və əlavə, bu haqsız fikir və iddia bütün Qarabağ ermənilərinin arzusu olmayıb, bəlkə Daşnak partiyasının fitnə və intriqası nəticəsidir. Halbuki Ermənistana tabe olmamaq təşəbbüsləri ümum Naxçıvan müsəlmanlarının öz arzuları idi.

İngilislər bu məsələləri həll etmək istədilər. Məlum oldu ki, Naxçıvanı məhəlli [yerli] müsəlmanların haqlı arzusuna rəğmən Ermənistana və Qarabağı da daşnakların iddialarına xilaf olaraq Azərbaycana mütəəlliq etdirmək [bağlamaq] əsası ilə iş görmək fikrindədirlər. Bu fikri yeritmək üçün general Devini Ararataköməyə və miralay [polkovnik] Şattlvortu da Azərbaycana mədədə məmur etdilər.

Bu gün işin nəticəsi məlum olur.

General Devi öz vəzifəsini kamali-müvəffəqiyyətlə ifa edib, erməni "Naşe vremya" qəzetəsinin yazdığına görə, Naxçıvan və Şərur tərəflərini bu may ayının 14-də erməni hökumətinə təslim edə bildi. Böylə ki, ayın 13-də ingilislər və erməni hökumət əzaları [üzvləri] Naxçıvana varid olub [gəlib], müsəlmanlardan başda Kəlbəli xan Naxçıvanski və mühəndis Sultanov olmaq üzrə Milli Şura əzaları tərəfindən istiqbal olunduqdan [qarşılandıqdan] sonra bu türk yerlərinin və türk əhalisinin etirazsız və qeylü-qalsız [səs-küysüz; çəkişməsiz] olaraq Ararat hökumətinə təslimi işini Cəfərqulu xan Naxçıvanskinin qonaqlar üçün hazırlamış olduğu naharı yeməklə itmama yetirdilər [tamamladılar].

Bəs miralay Şattlvort nə eylədi?

Bakı ilə Qarabağ arasında olan yolu bir neçə kərə ölçdü və əzcümlə Qarabağ ermənilərinə bir neçə nəsihətamiz sözlər dedi və bu sözlər əvəzində Qarabağ daşnaklarından "başqa cürə" cavablar aldıqdan sonra, vəzifəsini qurtarmış hesab edib qayıtdı...

Deməli, Ararat hökuməti ingilislərin köməyi ilə nahaq məramlarına nail oldular, amma Azərbaycan hökuməti genə eyni ingilislərin köməyi ilə öz haqqını həlalik yeridə bilmədi.

General Devinin miralay Şattlvortdan mənsəbcə yuxarı olduğumu ona müvəffəqiyyət qazandıra bildi, yainki ingilislər, ermənilər hamisi olan amerikalılara xoş görünmək üçünmü Ararat haqqında bu qədər canfəşanlıq göstərib də Amerikanın xəbəri olmayan Azərbaycan xüsusunda qəsdən səhlənkarlıq etdilər, yoxsa Naxçıvan türk demokratiyası Naxçıvan xanlarının xəyanəti qurbanı oldular? Hər halda haqq nahaqqa verildi və Azərbaycan hökuməti o tərəfdən məyus və bu tərəfdən məğmum [qəmli] bir halda qaldı. Bu yandan dəxi əhalimiz üçün ölüm-dirim məsələsi olan köçəri fəqərəsi [məsələsi] təxir qəbul etməz bir halda həll edilməsini bütün şiddəti ilə tələb etməkdədir.

Bizi yandıran ingilislərin tərəfgirliyi və ya ingilis generalının bacarığı və ingilis miralayının bişüurluğu deyildir. Özümüzün rəftarıdır ki, onun adına bacarıqsızlıq deməkdən başqa özgə bir ad qoymaq olmaz.

Qarabağ general-qubernatorluq şəklinə qonulduqdan bəri bizim zənnimiz bu idi ki, Qarabağ məsələsi artıq bitdi. Ümid edirdik ki, Qarabağın hakimi işin vəz [vəziyyətindən] və halından kamalınca xəbərdar olub da lazım gələn tədbirləri görmək üçün bütün səyini həlalik məhz bu yolda sərf edəcəkdir...

Lakin işin bugünkü vəziyyətindən anlaşılır ki, əvvəli-əmrdə [ilk növbədə] olan tədbirlərin ən böyüyü ingilislərə ümid bağlamaq imiş və general-qubernator yanında təşəkkül etmiş olan "şura" əzaları da öz vəzifələrini bundan ibarət bilirmişlər ki, "mahala çıxıb" özlərinə general-qubernator "pamoşniki" adı qoyub, aşnaları olan bəylərin cibinə Nikolaydan qalma "alacaq"ları kəndçilərdən şallaq gücü ilə yığmaq istəməyən polis məmurlarını tutdurub həbs etməklə "ədalət", daha doğrusu, "hökumət" göstərsinlər və donosbazların təhrikatı ilə iş görüb biməzmun və çürük politika ilə məşğul olsunlar.

Bu cürə politikanın axırı bu olar ki, nəinki erməniləri tabe etmək mümkün olmaz, bəlkə müsəlmanları da rəncidə-xatir edib [qəlbini incidib] qarışıq məsələni daha da qat-qarışığa salmaqla dövlətimiz qarşısında böyük-böyük əngəllər törədərik...

*Hacıbəyli Üzeyir*

### ERMƏNİSTANIN VÜSƏTİ

Yer üzündə cümlətanı 4-5 milyonluq olan erməni tayfası tarixlərdə əsli qaranlıq və indi süni bir tərzdə ixtira olunmuş "Haykakan" dövləti yolunda can, mal və qələm ilə çalışırlar, vuruşurlar. Mərama nail olmaq üçün heç bir şeyi müzayiqə etməyirlər [əsirgəməyirlər]. Hətta bu yolda lazım görülərsə, böhtan, fitnə, haqqı batil [göstərmək] kimi ədalət və insaniyyətdən uzaq, qeyri-məşru [qanunsuz] şeylərdən də çəkinməzlər.

Ermənilər hanki bir yerdə yaşayırlar yaşasınlar, hanki bir partiyada işləyirlər işləsinlər, yenə axırki məqsədləri "Hayastan"ın istiqbalıdır [gələcəyidir]. Bunu qazanmaq üçün, bir vaxt rus istibdadının ən sadiq bəndələrindən sayılaraq Loris-Məlikovlar imperator saraylarına qədər yaxınlaşdılar. Hətta zimami-hökuməti [hökumətin cilovunu] ələ almaq məqsədinə cürətləndilər. Erməni hiyləsini anlamış imperatorun müqərrəbləri [yaxınları] dərhal Loris-Məlikovu kənar etdilər. Lakin ermənilər məyus olmayaraq Peterburq saraylarından Qafqaz canişini Vorontsov-Daşkov sarayına köçürlər. Erməni qadını vasitəsilə qoca və düşkün canişini ələ alıb, onun icazəsi ilə Daşnak partiyasını tərtib verirlər. Bundan sonra erməni "cürəti" bir dərəcəyə çatır ki, bir tərəfdən sərhədi keçib Türkiyə ermənilərini silahlandıraraq üsyana hazırlandırırlar, o biri tərəfdən də, Qafqazda erməni mənafeyinə müxalifət göstərmiş rus qubernator və generallarını terror vasitəsilə qətlə yetirirlər. Gürcüstanda və Azərbaycanda bunlar törətdiyi əməllərə qarşı gürcülər və müsəlmanlar mat və mütəhəyyir [heyrətdə] qalmışdılar. Sanki buraların hamısı erməniləşmiş bir ölkədən ibarət imiş. Rus inqilabi-kəbiri [Böyük rus inqilabı] gələr-gəlməz istibdadçı ermənilər maskanı dəyişib inqilabçı partiyalarına dolurlar. Peterburqda təşkil olunmuş Qafqaz komissariatında heç kəsin nümayəndəsi olmadığı halda, ermənilər Yevanqulovu oraya nəsb [təyin] elətdirirlər. Türkiyədən alınmış qəzalara da general Averyanov ilə doktor Zavriyevi göndərdilər. Xülasə, istibdad dövründən götürdükləri faydaları hürriyyət dövrlərində də, bəlkə bir az da artıq götürürlər. Hətta Qafqaz canişini vəzifəsini ənvai dəsaislə [müxtəlif intriqalarla] bolşeviklərdən qoparmış Şaumyanın Bakıda erməni mənafeyi mülahizəsi ilə törətdiyi qırğını yəqin ki, hələ heç kəs unutmamışdır.

İşxanyan yazdığı "Zaqafqaziyada əks-inqilab" ünvanlı kitabının 77-ci səhifəsində yazır ki:

*"Rus hakimiyyəti ermənilərin damarlarında axan qanlarına belə yerləşmişdir. Bu hakimiyyəti Qafqazda ermənilərdən başqa heç kəs, hətta gürcülər də istəməyirlər. Ermənilərin xülusi-qəlblə [ürəkdən] ruslara olan məhəbbəti, bir çox tarixi, coğrafi (?) və siyasi şəraitin nəticəsidir. Odur ki, rus hakimiyyətinin Qafqazda bəqa və davamına ermənilər var qüvvətləri ilə çalışırlar. Hətta bu hakimiyyət nə kimi üsuldan (?) ibarət olursa-olsun, ermənilər üçün fərqi yoxdur."*

İştə, illərcə Qafqazın hamı millətlərindən artıq İrəvanda, Bakıda, Qarabağda və hətta Tiflisdə rus hakimiyyəti ilə mübarizəyə qalxmış erməni millətinin böyük yazıçısı İşxanyan cənabı sadəlövh rus oxuyucularını 99-cu dəfə aldatmaq istəyir. Bu həzəyan və əracif [bu mənasız və yalan sözlər] ilə sübut etmək istəyir ki, rus boyunduruğu ermənilərə həmişə xoşdur. Böylə yağlı dillərlə Moskvada əyləşən ermənilər də bolşevikləri tovlayıb milyonlarla pul alırlar ki, Şərqdə (?) propaqanda yapsınlar. Əcəba Şərqdə nə qədər erməni tayfası vardır ki, bunların propaqandası üçün 60 milyona qədər pul almışlar, yaxud Şərqi sərasər doldurmuş türk, fars və ərəblərin propaqandası üçünmü bu pulları almışlar? Şərqdə erməni "və'zinə" [moizəsinə] inanan bir tayfa vardırmı ki, onları bolşevik yoluna dəvət etsinlər. Şərq [millətləri] arasında ermənilərin casusluğu hamıya məlum olduğundan, bolşeviklərin pulları propaqandaya deyil, xüsusi işlərinə sərf olunacaqdır ki, bunu sadədil sovetçilər anlamamışlardır.

Qafqazda və Moskvada özlərini rus hakimiyyətinə tərəfdar göstərmiş ermənilər Yevropada Poqos Nubar paşa kimi şəxslərin istidası [xahişi] ilə "Ararat"ın istiqlaliyyətini tələb edirlər.

Erməni hoqqabazlarının məharətinə bax ki, burada özlərini rus tərəfdarı göstərib milyonlarla rus hökumətindən pullar alırlar, Yevropaya gəldikdə rusların kim olduğunu əsla tanımayıb "Hayastan"a istiqlaliyyət tələb edirlər. Hələ Amerikada oynadıqları rolları başqadır. Ermənilərin Qafqazda fəqir, zəlil, ac və çılpaq bir millət olduğunu [deyərək] Ameka qəzetələrini çığır-bağırlarla doldurub yardım və müavinətlər istəyirlər. Odur ki, bu gün amerikalıların milyardlarla ianələri Qafqazda yalnız Ararat dairəsinə gəlməktədir.

Nubar paşanın Yevropadan tələb etdiyi istiqlaliyyət, Qara dəniz səvahilindən [sahillərindən] başlayaraq təxminən bəhri-Xəzər kənarlarına qədər müxtəlif millətlərlə məskun yerlərdir ki, əhalisinin əksəri türklər və kürdlərdir. Proqramın bu cəhəti hərçənd gizlənilməyirsə də, lakin mahiranə bir üsul ilə yevropalıların nəzərinə təqdim olunur.

Yevropalıları təzərrö və niyaz [yalvarıb-yaxarmaq və xahiş] ilə doyuran ermənilər Qafqazda süngü zoru ilə özlərinə yer açırlar, meydan hazırlayırlar. Müsəlman kəndlərini talan edib müttəsil [daim] bir "Hayastan" düzəldirlər. Bunun üçün də heç bir şərarətdən [fitnə-fəsaddan] çəkinməyirlər. Bir vaxt Andranik əli ilə Zəngəzur mahalını dağıtdıran erməni hökuməti Andranikin kim olduğunu tanımaq istəməyirdi. Sonra bunun istiqbalına [onu qarşılamağa] ehtiram dəstələri çıxarıb böyük nəvazişlər göstərdi. Bu axır vaxtlar da Andranik dəstəsi Qars ətrafına keçmişdir. Aşkardır ki, burada da bir çox müsəlman kəndləri dağıdılacaqdır.

Bundan əlavə, Göyçə həvalisində [ətrafında] yerləşmiş müsəlman kəndlərini dağıdıb, Qarabağ və Gəncə səmtinə böyük "pəncərələr" açmışlar. Naxçıvan və Şərur yaxınlığında da böylə pəncərələr açılmaqdadır. Erməni hökumətinin böylə şərarətəngiz [fitnəkar] hərəkatına qarşı ciddi bir tədbir ittixaz olunmazsa [tədbir görülməzsə], bu açılmış pəncərələr vasitəsilə Qarabağ və Naxçıvan kimi Azərbaycanın məhsuldar qitələri vaxtı ilə erməniləşə bilər. Buna dair Qafqazda deyil, Yevropada da etirazlar yapmalıdır. Sülh məsələsi axıra çatdığı günlərdə erməni daşnakları hələ qırğınla məşğul olaraq Ermənistanın vüsətini böyüdürlər və qanlar tökülməsinə səbəb olurlar. Bu qanlara bir xitam vermək gərəkdir.

*F. A.*

### TELEQRAF XƏBƏRLƏRİ

**Xəzər dənizində bolşeviklərlə müharibə**
(İngiltərə ərkani-hərbindən [hərbi qərargahından])

Bir neçə gün bundan irəli bolşevik donanmasının Aleksandrovsk-Fort səmtinə getdiyi müşahidə edilmişdir. Mayın 15-ində ingilis hərbi gəmiləri bir müxrib [destroyer] və iki barj aparan üç paroxod görmüşlərdir. Düşmən gəmiləri barjları buraxıb qaçmışdır. Barj komandasını paroxodlara aldıqdan sonra barjlar qərq edilmişdir. Mayın 21-ində İngiltərə gəmiləri Aleksandrovsk-Fort yaxınlığında kəşfiyyatda bulunmuşlardır. Fortun [istehkamın; qalanın] yaxınında paroxodlar görülmüşdür ki, bu paroxodlar dərhal forta daxil olmuşlardır. İngilis gəmiləri forta yaxınlaşıb müvəffəqiyyətli bir surətdə fortda dayanan gəmiləri atəşə tutmuşlardır. Gəmilərdən bir paraları yandırılmışdır. Bir neçə güclü partlayış eşidilmişdir. Hücum əsnasında bir ingilis gəmisi xəsarətlənmişdir.

London - Avropa müharibəsində ingilislərin 2197 gəmisi düşmənlər tərəfindən qərq edilmişdir. Bunlar 7 milyon 5 yüz min tondan ibarətdir. Bundan əlavə, 9500 tonluq da 20 ədəd paroxod dəxi qərq edilmişdir ki, bunlar tərsanə xidməti görürmüş.

- Bolşeviklərin məlumatına nəzərən, Moskvaya Əfqanıstandan bir heyət gəlmişdir.

Arxangelsk - Bolşeviklərin topxanası bütün cəbhə boyu ciddi fəaliyyət göstərmişlərsə də, axırda tərəfi-müqabil atəşi ilə sükuta məcbur olmuşlardır.

Moskva - "Krım xəbərləri" yazır ki, Denikin könüllü dəstələri Bolqariyadan Rusiya əsirlərini çıxararaq öz orduları cərgəsinə salırlar. Təbii, əsirlər qaçırlar.

**Bolşeviklər Kolçak barəsində**

Pokrovski - Kolçak ordusunda intizamsızlıq getdikcə artır. Bu axırıncı 6 gündə 11 min nəfər könüllü, bolşeviklər tərəfinə keçmişdir. Deyirlər ki, könüllülər səfərbərliyə alınan kəndçilərə artıq zülüm edirlər. Əmələləri [fəhlələri] yüzlərlə atıb öldürürlər. Əhali Kolçakdan narazıdır.

### SÜLH ƏTRAFINDA

Berlin - Almaniyanın sabiq London səfiri Lixnovski "Taqeblatt" qəzetəsində yazır ki, Almaniya heç bir halətdə sülh müahidəsini [sazişini] qəbul etməməlidir. Lixnovski əlavə edir ki, Müttəfiqlərin [Antanta dövlətlərinin] təklif etdiyi bu sülh müahidəsi Almaniya üçün ölümdən başqa bir şey deyildir.

**Sülh Konfransında**

Bu gün gündüz Sen-Jermendə "4-cü Henri salonu"nda Müttəfiq nümayəndələri ilə Avstriya sülh nümayəndələrinin vəkalətnamə mübadiləsi mərasimi icra edildi. Kambon Müttəfiqlər heyətinin sədri idi. Uayt – Amerika nümayəndəsi, Hardinq – İngiltərə nümayəndəsi, Krespi – İtaliya nümayəndəsi, Matsui – Yaponiya nümayəndəsi isbatı-vücud [iştirak] edirmişlər. Renner – Avstriya heyətinin başçısı 4 nəfər Avstriyalı ilə varid [daxil] olur. Bütün nümayəndələr mərasim zamanı ayağa dururlar. Avstriyalılar rəsmi libasda olduqları halda, Müttəfiqlər nümayəndələri adi libasda imişlər. Renner öz yoldaşlarını gülümsənərək nemescə Müttəfiqlərə təqdim eyləmişdir. Kambon fransız dilində yoldaşlarını avstriyalılara təqdim eyləmişdir. Avstriyalılar yaşıl konvert [zərf] içərisində (yaşıl rəng ümid əlamətidir), Müttəfiqlər isə qırmızı konvert içərisində yek-digərinə [bir-birlərinə] vəkalətnamələri vermişlərdir. Bu müxtəsər iclasdan sonra nümayəndələr Saraya gəlmişlərdir. Bu yerlərdə onlara müahidənamə təslim edilməli idi. Avstriyalılar nemeslər kimi gəzirlər. Səyahət və avtomobildən istifadə etməyirlər. Yalnız öz mənzillərində vaxtlarını keçirirlər.

- Düşənbə [bazar ertəsi] günü vaqe olan Dövlətlər Şurasında İtaliya nümayəndəsi Orlando xəstəliyinə görə iştirak edə bilməmişdir. Fiumenin azad bir şəhər elan edilməsinə italyanlar razılıqlarını bildirmişlərdir. Şimdi isə danışıq İstra və digər bir neçə cəzirələr [adalar] üstündədir. İstra məsələsi bir də civə mənbələri məsələsini ortaya gətirir. İstra italyanlara verilərsə, orada olan civə mənbələri də onların ixtiyarına keçmiş olur.

### ÜMİDSİZLİK ZƏF [ZƏİFLİK] NİŞANƏSİDİR

Dünən 24 nisan idi. Tiflisdə "Botani-çeski sad"a ["Botanika bağı"na] getmişdim. Oh, sanki cənnət! Bahar bütün bədayesini [incəsənət nümunələrini] toplamış, təcəssüm etmişdi. Hələ Şeyx Sənan mələklərinin, o canlı çiçəklərin dəstə-dəstə seyr və xüramları [nazlı hərəkətləri] oraya, o məhfili-şeirpaşa [şeirlər saçılan o toplanış məkanına] özgə bir ruh, özgə bir feyz bəxş etmişdi. Orası cənnət, həm cənnəti-həqiqi idi:

Yer-yer irmaqlar, yüksək qayaların ağ daşlarından köpürərək tökülən sular, zümrüddən, yaqutdan, lə'ldən daha xoş rəngli çiçəklərdən, çiçəkli ağaclardan vücuda gətirilən köşklər, gözəl qoxulu-iyli güllər, parlaq saçlı, gülər üzlü, sevimli üzlü, ağ döşlü hurilərlə dolmuşdu. Hər yer şən və ruhnəvaz [ruh oxşayan], hər kəs ürəyindən qopan avazi-şətarətlə tərənnümsaz [şənlik avazı ilə tərənnüm etməkdə, nəğmə oxumaqdadır].

Şəhərin uzaq yerlərindən yüz zəhmətlə buraya, bu müsəlman məhəlləsindəki bağa gələn xristian vətəndaşlar, bağın həyatəfza [həyat verici, şəfalı] havasından, ziyasından, çiçəklərindən, dərələrindəki sularından, təpələrindəki ağac kölgələrindən bir növ fayda axtarır, birər dürlü sevinirlərdi. Mən də kəndimə müalicə üçün xeyli zaman xoş rayihəli ziya ilə banyo etdim, isindim. İstirahət üçün hündür bir çamın [şam ağacının] kölgəsinə sığındım. Orada saatlarca oturdum. Uzun-uzun düşüncələrə daldım. Başımı aralarına almaqla bir ittifaqi-müsəlləs [üçlü bir ittifaq] təşkil edən qollarım, başımın siqlətibar və ələmindən [yükünün və kədərinin ağırlığından] xeyli yorulmuş olmalı ki, birdən-birə dizlərim üstünə düşdü. Başımı havaya qaldırdım. Qərarmış olan gözlərimə iki qaraltı rast gəldi. Mənə doğru gələn bu qaraltılar tələsik döndülər. Tənha səmtlərə, ağaclar arasına, qaranlıqlara süzüldülər. Mən isə maraqlandım, diqqətlə baxdım. Məgər, yüz qorxu və ehtiyatla bağı "görməyə" gələn çarşaflı iki müsəlman qadını idi!

Mən yenə xəyalatıma daldım. Lakin bu səfər siyasi xətalarımızdan ziyadə, ictimai nöqsanlarımızı düşünürdüm. Əllərilə, üzlərilə bərabər gözləri, qafaları da açıq olan o minlərcə "rəfiqeyi-həyat"ın ["həyat yoldaşı"nın], o İsa çiçəklərinin yanında birər qaratikan, birər quli-biyabani [qulyabanı] kimi görünən o iki çarşaflı, pərdəli müslimənin [müsəlman qadınının] bədbəxtliyini, onları o halda, o qara pərdə altında saxlayan əvamili-ictimaiyyənin [ictimai amillərin] hakim olduğu mühiti, milləti fikir edirdim. Bu fikir, məni də qayğılandırmağa, məni də bağın nemətlərindən, baharından, feyzlərindən geri qoymağa başlayan kimi oldu. Beş-on dəqiqə məhzun bir halda qaldım. Çox çəkmədi anladım ki, "Şərq ruhu"ndan, hissiyyata uymaqdan, "zövqi-həyatı" maddiyyatdan ziyadə mənəviyyatda aramaq adati-qədimə və sufiyanəsindən [qədim və sofulara xas adətlərindən] ayrılammayıram.

Bir daha anladım ki, nemәti-təvəkkül [hər şeyi taleyə bağlamağın neməti], hik-məti-təamül [işlərin adət olunduğu halda, hər zamankı qaydada getməsinin hikməti], daimi səbr və təhəmmül [dözüm], xeyrü şəri-ilahi [ilahi xeyir və şər, xeyir və şərin Allahdan gəlməsi], feyzi-asimani [göylərin bərəkəti], bəxtü iqbali-əzəli [əzəldən qədərdə olan bəxt və səadət], zövqü eşqi-mənəvi [mənəvi zövq və eşq], imdadi-ruhani [mənəvi kömək], qəvanini-layətəğayyərə [dəyşməz qanunlar], türuqü üsuli-məşayixiyyə [şeyxlərin təriqəti; yolları və üsulları], qəzavü qədəri-müqərrərənin [qabaqcadan qərarlaşdırılmış qəza-qədərin] zahiri və örfi [ənənəvi] mənaları ilə paslanmış, adətlənmiş qafalara təşəbbüsi-şəxsini [şəxsi təşəbbüsü], neməti-səyi [səy göstərmək nemətini], qüdrəti-elmi, hikməti-həyatı, təsiri-maddini [maddənin təsirini], qanuni-ictimaini, hürriyyəti-bəşəri, müsavati-hüququ, siyasəti-zamanı, təbəddülati-əxlaq və həyatı [əxlaq və həyatın dəyişkənliyini] və buna müvafiq təşkilati-mədənini, fəlakəti-ümumiyyəyə bais qeyri-təbii sərvət və imtiyazatı [imtiyazları], həqiqi səadəti, ehtiyaci-təcəddüdü [yenilənmə ehtiyacını] anlatmaq çətin. Bununla bərabər, zorla da olsa, xoş görünmək, bahar və təbiət nemətlərindən istifadə etmək, ləzzəti-mənəviyyəni qüdrəti-maddiyyədə, ruh yüksəkliyini vəsait və əsbab [vasitələrin və səbəblərin] yüksəkliyində bulmaq və görmək istəyirdim. Əski adətimə, hüznümə məğlub olmamaq üçün yerimdən durdum. Mən də ziruh [canlı] çiçəklərin arasına qarışdım. Beş dəqiqə əvvəl başımı bir cədəlgahi-müdhişə [dəhşətli bir mübarizə meydanına] çevirən əski adətimlə yeni fikrim qovğasını unutmaq istədim. Qulağıma təmiz geyinmiş dörd-beş erməni qızının səs-səsə verərək yavaşca təğənniləri [nəğmə oxumaqları], yek-ahəng havaları gəlir və sonra bu sədaların çağlayanın (şəlalənin) hiddətlə qabarmış köpüklərindən fırlayan sədayi-ruh-nəvazına [ruh oxşayan səsinə] qarışdığını, şeir və bədayedən [bədiilikdən], asarinə-fisədən [gözəl incəsənət nümunələrindən] zövq duyan qəlblərə axdığını sanki hiss edirdim.

Qulaqlarım da gözlərim, burnum, əllərim qədər ləzzətyab olmaq [ləzzət almaq] istədiyindən, qızların nəşətavər [nəşə verən] səslərindən uzaq gedəmməyirdim. Gedəmmədiyim üçün də yaxınlarındakı bir skameykaya oturdum. Beş dəqiqə keçməmişdi ki, yanımdakı yoldan bir tanışımın əcələ [tələsə-tələsə] yoxuşu çıxdığını gördüm. Səslədim. Döndü, yanıma gəldi.

Məndili ilə tərini sildi. Yoldaşını aradığını xəbər verdi. Görmədiyimi deyib yanımda oturtdum. Bir az kef və hal istifsarından [sorğu-sualından] sonra ciblərindəki bir dəstə türk, rus qəzetələrini çıxardı. Əhvali-hazirədən [indiki şəraitdən] bəhs etməyə başladı.

Tanışım çox məyus görünürdü.

İstiqbalımızdan [gələcəyimizdən] ümidini tamam kəsmişdi. Kəndini saxlayammayıb hiddət və kədərlə deyirdi:

– Maşallah sənə! İstanbul əldən çıxır, altı vilayət ermənilərə verilir, İzmir vilayəti rumlara [yunanlara] bəxş edilir, Kaspidən Ağ dənizə [Aralıq dənizinə], Urmiyə gölündən Trabzona qədər Böyük Ermənistan yapılır. Gürcüstan Lazistanı ilhaq edir. Qarabağ istənilir. Denikin bugün-yarın Bakıya enir. Hər yandan, hər yerdən ümidimiz kəsilir. Hər kəs çareyi-səlaməti bolşevizmi qəbulda bilir. Hələ Bakı əcaib partiyaların əcaib sərgisi, yığıncağı, bolşevizma, eyni vaxtda despotizma yatağı, hırs [ehtiras] və şöhrət qaynağı, müxtəlif atəşi-siyasət ocağı, məhşər və qiyamət bucağı halını alır. Sən nə əcəb burada rahat oturursan? Mənim bağrım yanır, beynim qaynayır, başım patlayır. Dərdimdən bu ağ çiçəkli ağacları gördükcə kəfənlərə bürünmüş, çağlayanın səsini eşitdikcə halımıza ağlayır, quşların nəğmələrini duyduqca fəryad edirlər zənn edirəm. Sən, sən nə ümidlə böylə bidərdü təlaş [təlaşsız və dərdsiz] görünürsən, təəccübdür, – dedi və daha bir çox ürək yandıran məlumat əlavə etdi.

Dedi ha, dedi.

Nəhayət gülərək soruşdum:

– Mərsiyəni qurtardınmı?

– Bəli, – dedi.

– O halda lütf edib cavabımı dinləyiniz, – dedim. – Sənə müjdə verəyim ki, saydığınız işlərin, xəbərlərin çoxu xəyalatdır. Əsrlərcə cahangirlik etmiş, Avropaya hakim olmuş və bu gün altmış-yetmiş milyon həmcinsi, dörd yüz milyon həmdini bulunan bir hökuməti Nubar paşa ilə Çxenkelinin hırs və iştahalarına qurban etməzlər. Deyəlim ki, əski böyük türk hakimiyyətinin daireyi-nüfuzunu kiçiltsinlər, türk hakimiyyətini türklərə münhəsir [məxsus, həsr olunmuş] eyləsinlər. Nə olar? Türklər daha da qüvvətlənməzlərmi? Dünyanın ən gözəl-gözəl yerlərinə sahib olmuş, yerləşmiş, kökləşmiş altmış milyonluq böyük bir kütlə, bu günə qədər eyi-fəna yaşadıqdan, bugünkü demokrat və sosializmin, bugünkü müqəddərati-milliyyə prinsiplərinin qəbulundan sonra heç yatırıla bilərmi, yatırıla bilərmi? Əsla!

Qəzetələrin dediqodularına qulaq asmaq qəzetəçilik dünyasından bixəbərlikdir.

Qəzetəçiliyi məəttəəssüf [təəssüf ki], dargözlü millətpərəstlərlə sosialist maskasına bürünmüş mənfəət və şöhrətcular [şöhrət axtaranlar] kəndilərinə birər alət yapa bilirlər.

Əmin olunuz ki, Konfrans müqərrəratı [qərarları] xüsusunda yazılanların çox qismi yalandır, uydurmadır. Uzun çəkməz, həqiqəti duyarsınız.

Bununla bərabər, İkinci Vilhelmdən çox da fərqli olmayan Lloyd Corc və klemansolardan zəiflər üçün böyük ümidlər gözləmək çətin. Lakin burası var ki, zaman daha o zaman deyil. Əmələ [fəhlə, işçi] və kasıblar qüvvəti, qeyrilərə, qüvvətlilərə, müstəbidlərə mane olmaq şüarı artmaqda, Vilson prinsiplərinə, o qəvanini-haqq və təbiətə [haqqın və təbiətin qanunlarına] "bir dərəcəyə qədər" olsun riayətə məcbur etdirməkdədir. Buna görə mən ümidvaram ki, millətlərin müqəddərat məsələsi hələ tamamilə həll edilənməzsə də – ki məsaili-müqəddə-ratiyyəni [xalqların öz müqəddəratını təyin etməsi ilə bağlı məsələləri] həll edən yenə əski tərbiyə və ruhlu ağalardır – ona doğru hər hal[da] əsaslı və mətin addımlar atılmaqdadır. Arxayın olunuz ki, zamanımız fəlsəfeyi-ictimaiyyəsi [ictimai fəlsəfəsi, ictimai düşüncəsi] keçmiş xətalardan, fəlakətlərdən ciddi ibrət və dərs almaqda və bir də o zülm və haqsızlıqlara meydan verməmək əzmindədir. Məğlublar, mətbular [tabe olanlar] və məzlumlar, daha şüari-heysiyyət [heysiyyətlərinin üstünlüyünü] və hüquqi-insaniyyələrini anlamaqda, "heyvani həyatdan" uzaqlaşmaqdadırlar. Hangi millət və camaat olursa-olsun, "hürr" bir şəxs kimi özgələrin "məşru" [qanuni] haqqına zərər verməyərək kəndi müqəddərat, müəssisat və inkişafatında [öz müqəddərat, təşkilatlanma və inkişaflarında] mütləq azad olmalı və olacaqdır.

Buna görə, kədər və yə's [ümidsizlik] lazım deyil. Zamanın ehtiyacını, əxlaq və əhvali-ruhiyyəsini, təcəddüd [yenilənmə] və inqilabını nəzərə alaraq çalışmalı, həm öylə çalışmalı ki, yalnız kəndi zamanınızı, kəndi həyatınızı düşünərək deyil, istiqbalın [gələcəyin] ehtiyac və ruhunu da dərk edərək çocuqlarınızı ona görə hazırlamalısınız.* Yoxsa, təbii və zəruri olan siyasi və ictimai inqilabdan yə's və kədərə düşərək qət'i-ümid etmək [ümidi kəsmək] "Haq-taala"nı, həyatı, qanuni-təbiəti anlamamaqdır.

Ümidsizlik zə'f və cəhl [zəiflik və cəhalət] nişanəsidir.

*Ümidvar*

* Bu xüsusdakı fikrimi başqa bir məqalədə də ərz edərəm.

### DAĞISTAN ƏHVALI

**Bolşeviklərin sui-qəsdi**

Azərbaycan Hökuməti nəzdində olan Dağıstan siyasi nümayəndəsi böylə bir teleqraf almışdır:

*"Hökumət sədri Kotsev ilə Hərbiyyə naziri Musaelov tərəfindən əvvəlcədən təqdir edilmiş surətdə mayın 13-ündə Teymurxanşura [Buynaksk] baş naçalnikinin binagüzarlığına [sərəncamına] görə, Dağıstan Cümhuriyyətində davam edən tərzi-idarəni yıxıb və Dağıstanı Rusiya Şura Cümhuriyyətinə yapışdırmaqla şura hökuməti bərpa etmək haqqında olan bir dəstə adam həbs edilmişdir. Məzkur [deyilən] adamlar iclas etdikləri yerdə həbsə alınmışlar. Lazımlı kağızlar tutulmuşdur. Bu kağızlar bu adamların xəyanətkaranə niyyətlərini isbat edir. Teymurxanşura baş naçalnikinin binagüzarlığına görə, tutulan adamlar məhkəməyə verilənə qədər mühafizə altında saxlanmaqdan ötrü Şamilqalaya göndərilmişlər. Mayın 18-ində həbsdə olanları azad etdirmək qəsdi ilə azad qalan başçılar tərəfindən təhrik edilmiş qonşu kənd əhalisi Teymurxanşuraya rəvan olmuşlardır. Bunlar müsəlləh [silahlı] surətdə hücum etmişlərsə də, cümhuriyyət əsgərləri tərəfindən dəf edilmişlər. Hücum edənlər az bir tələfat vermişlər. Əsgərlərdən isə iki nəfəri yaralanmışdır. Asayiş bərpa edilmişdir.*

*Hökumət rəisi Xəlilov"*

**İstiqlal bayramı**

May ayının 11-ci günü Dağıstan istiqlalının səneyi-dövriyyəsi [ildönümü] münasibəti ilə təntənəli bayram edilmişdir. Təfsilatını "Dağıstan" qəzetəsindən iqtibasla təqdim ediriz.

Hökumət dairələri tətil edilmiş, rüəsa və vükəla [başçılar və vəkillər] elani-şadman [şadlıq elan etmək] üçün hazırlanırdı. Xalq da canü könüldən bu bayrama iştirak edir və saat 12-yə doğru xalq fövc-fövc [dəstə-dəstə] Məbusan idarəsinin önünə toplanırdı. Əsgəri qitəat [hərbi hissələr] dəxi gəlmişdi. Əsakir [əsgərlər] səfbəsteyi-ehtiram [ehtiramla səf-səf düzülüb] durmaqla və muzika [nəfəsli orkestr; hərbi orkestr] dəxi bu məsud günün məsərratini [sevincini] elanla bütün qüvvəsi ilə tərənnüm edərək çalışırdı. Fəqət öylə bir-iki qitə band [hərbi orkestr] və muzika bu günün məsərratini istema və elana iktifa etməyirdi [sevincini eşitdirməyə və elan etməyə kafi olmurdu]. Əsgər müstətilül-şəkl [düzbucaqlı formada] əxzi-mövqe edərək [düzülərək] aralarında komandan və zabitanı dolaşırdı. Bir azdan Rəisi-hökumət həzrətləri; Hərbiyyə naziri və Məbusan rəisi müavini həzrətləri ilə əsgərlərin içinə girərək hər qitənin önünə varmaqla salamladı. Əsgərlər bu möhtərəm millət babalarını görərək onlara ərzi-ehtiram etdi. Tamaşaya gələn minlərcə əhali əsakiri [əsgərləri] görməklə kəndilərini məsud və müftəxir [qürurlu] ədd [hesab] edir. Bir qitə əsakir başında Osmanlı əsgəri qalpaqların bulunması xalqa ayrıca bir təsir bağışlayırdı. Nəhayət, əsgərlərin arasına Teymurxan-şurada bulunan bütün ərkani-hökumət [hökumət adamları], üləma və ümərə [alimlər və başçılar] gəldi. Məbusan və sair əyandan dəxi xeyli zəvat [şəxslər] var idi. Şeyx Uzun Hacı əfəndi əsgərlərə salam verdi və Rəisi-hökumətin təvəqqesinə görə Şeyx əfəndi avarca olmaq üzrə nəsayehi-lazimədə [lazımi nəsihətlərdə] bulunduqdan sonra ərəbcə və avarca və qayət bəliğ [bəlağətli, təsirli] uzun bir dua etdi. Bədəhu [sonra] Şeyx əfəndi ilə bərabər bütün heyəti-hökumət və nüzzar [nazirlər] bir tərəfdə əxzi-mövqe etməklə [yer tutmaqla], qitəati-əsgəriyyə kamali-intizam ilə rəsmi-keçid yapdı. Rəsmi-keçidi Rəisi-hökumət və Hərbiyyə naziri qəbul edirdi.

Rəsmi-keçid tamam olduqdan sonra heyəti-hökumət və əyan Məclisi-Məbusan salon[un]a daxil oldu. O zat [o şəxs] bu günün şərəfinə açılacaq ümumi məclisə iştirak edəcəkdi. Samein [dinləyicilər] dəxi çox idi. Azərbaycan siyasi vəkili həzrətləri xüsusi mövqedə yerləşmişdi. Bütün nüzzar da isbati-vücud edirdi. [Məclisi]-Məbusan rəisi müavini Cabaqiyevin rəyasəti ilə Məclis açıldı. Rəis sözə başlayır və nitqinə şu sözlərlə xitam verir:

– Bununla bərabər, biz məyus olmayacağız. Qonşularımızla bərabər müştərək düşmənin dəf edilməsi üçün çalışacağız. Ümid ediriz ki, ümum islam millətləri istiqlala nail olub, kamali-səmimiyyətlə və konfederasyon surəti ilə təşkili-cümhuriyyət edərlər. Yaşasın ittifaqımız, yaşasın ittihadi-islam. *(Məclisdə böyük alqışlar.)*

Bədəhu Şeyx Uzun Hacı sözə başlayır:

– Əhali hökumətə itaət edəcəyində şübhə yoxdur. Hökumət üçün əsgər və qeyri hər nə lazım isə xalq əsirgəməyəcəkdir. Fəqət gərək hökumət də əhaliyə olan ədalət və səadət işlərini ifa etsin. Məclisi-Məbusanın da hökumətə müzahirət [kömək] etməsi vacibdir. Həpimiz ittihad və səyi-qeyrətlə çalışmalıyız.

Sonra Rəisi-hökumət Kotsev Qafqaziya və Dağıstanda istiqlal hərəkatının müxtəsər tarixcəsini zikr və hökumət təşkili, məmləkət idarəsinin o qədər də asan olmadığını qeydlə, gələcəyə böyük ümid bəslədiyini bəyan edir və nitqinə şu sözlərlə xitam verir:

– Yaşasın Qafqaz ittifaqı! Yaşasın Rusiya ittifaqı! Yaşasın bütün millətlərin istiqlal və ittifaqı! *(Məclisdə böyük alqışlar.)*

Azərbaycan siyasi vəkili [Əbdürrəhim bəy] Haqverdiyev cənabları alqışlar arasında nitqə başlayır:

– Mən Şimali Qafqaziya Cümhuriyyəti üçün əziz olan bu günü təbrik edirəm və təmənna edirəm ki, bu istiqlal bayram[ı] sonuncu bayram olmayıb, bəlkə madamül-həyat [həyat boyu] davam edəcək bayramlar zəncirinin birinci həlqəsi olar. Şeyx Şamil həzrətləri qoca Rusiyaya qarşı xəncər və çaxmaqlı tüfənglərlə Dağıstanı müdafiə etdi və son vaxtda türklər Dağıstan üçün qanlar tökdü. Şayani-təəccüb və təəssüfdür [təəccüb və təəssüf ediləsi haldır] ki, bu gün Denikinə müqavimət edilənməyir. Fəqət bunun səbəbi aşkardır. Bir zərbi-məsəl var: "Qızıl yüklü mərkəb[i] [uzunqulağı] hanki divardan olsa keçirdərlər." Həmin Denikin də qızıl yüklü mərkəbdir. O, sizin aranızda müşəvviqlərə [təşviqatçılara] qızıllar göndərir. O səbəblə aranızda ixtilaf düşür. Müşəvviqlər heç bir zaman müharibə etməyiniz deməyir. Onların işi araya təfriqə [ayrıseçkilik] və ədavət salmaq. Milləti müşəvviqlərin, müfəttinlərin [fitnəkarların] dəsaisindən [hiylələrindən, intriqalarından] xilas etməyə çalışmalıyız və ehtiyat etməliyiz ki, məazallah [Allah qorusun], qızılların, müşəvviqlərin qurbanı olmayalım. Həmin qızıllar idi ki, sabiq müharibədə Osmanlı hökumətini rus çarına qarşı məğlub etmişdi. Həmin qızıllar idi ki, arslan Şeyx Şamilinizi ruslara əsir etmişdi. Yenə təkrar edirəm, bu bayramınız sonuncu olmasın. İstiqlal bayramlarınız dünyalar var olduqca yaşasın və təmənna edirəm ki, Dağıstan və Azərbaycan cümhuriyyətləri umuz-umuza [çiyin-çiyinə] verərək düşmənlərə qələbə çalarlar. Yaşasın Cibaliyyun ittihadının [Dağlılar birliyinin] cavan cümhuriyyəti! *(Böyük və sürəkli alqışlar.)*

Polyak vəkili Kovalevski:

– Mən aranızda yaşayan az polyak camaatı tərəfindən bu bayramınızı səmimi-qəlb ilə təbrik edirəm. Onun üçün səmimi-qəlb ilə təbrik edirəm ki, müsəlmanlar bizim ən sadiq dostlarımızdır. Bütün kainat Lehistanın [Polşanın] təqsim olmasına [bölünməsinə] səs çıxarmadığı vaxt, Osmanlı hökuməti və Krım protesto etmişdi. Biz o müzahirəti [yardımı] unutmayacağız. Şamil həzrətlərinin həngami-mücadiləsində [mübarizə etdiyi dövrdə] ruslara qarşı Şamil ilə bərabər hərb edən polyak əsgərləri dəxi var idi. Onlar da sizin vətəninizdə ümumi düşmənə qarşı hərb edərək qan axıtmışdı. Yaşasın bayramınız! Yaşasın istiqlalınız! *(Alqışlar.)*

Rus demokratları tərəfindən Koqolov kürsiyi-xitabətə çıxaraq təbrikatda bulunur və yəhudi camaatı tərəfindən doktor Yankeviç təbrik edir və inqilab mübarizəsində hökumətin müvəffəqün-bil-xeyr olduğunu [müsbət nəticələrə müvəffəq olmasını] təmənna edir.

Yusif Hacı gələcək istiqlal bayramında ümum torpağımızın düşmənlərdən təmizlənməsini təmənna və qardaş Azərbaycanla əl-ələ verərək hazırkı bəladan xilas olacağımızı və ümumi islam qayələrimizə nail olacağımızı istida [arzu] edir.

Şayani-təəccüb idi Rus Milli Komitəsinin vəkili heç bir söz söyləmədi.

Natiqlər sözlərini qurtarmaqla gözəl bir xatimə [yekun sözü] ilə rəis əfəndi saat 3-də məclisi qapadı.

**Dağıstanda bolşeviklərin sui-qəsdləri**

May ayının 13-ündə axşam Teymurxan şurada Xizroyev evində gizli iclas zamanı 18 nəfər bolşeviklər həbs edilmişlərdi. Bunların cümləsində yerli Qoqolev, Buynakski, Xizroyev, Timanov və sairləri də var idi. Bu təşkilatın məqsədi o imiş ki, əvvəlcə Teymurxanşurada və sonra bütün Dağıstanda hökuməti yıxsınlar. Necə ki məlumdur, bir neçə gün bu həbsdən sonra bəzi hadisələr vaqe oldu və məlum oldu ki, bolşeviklər qayət vüsətli proqram dairəsində iş görmək istəyirlərmiş. Məxfi Qırmızı orduya yazılanların siyahısı da tutulmuşdur. Bu həbslərdən sonra okruq kəndlərinin əhalisi məhbusların azad edilmələrini tələb etmişlərdir. Hökumət əhalinin həyəcanından ehtiyat edərək mayın 18-ində məhbusları Petrovska göndərmişdir. Səhər saat 9 radələrində bir müsəlləh [silahlı] dəstənin Teymurxanşura üzərinə yürüş etdiyi anlaşılmışdır. Kəşfiyyatda məlum olmuşdur ki, bunlar ətraf aul əhalisindəndir və məqsədləri də məlum deyil. Dərhal hərbi məmurların əmri üzərinə şəhərin ətrafına pulemyot və top qoyulub, hücum edənlərin üzərinə süvari alay yürüş eyləmişdir. Fəqət qət edilmişdi ki, əhalinin məqsədi məlum olmadıqca, atəş açılmasın. Sonradan bunların məqsədi aşkar olur. Cənubi tərəfdən hökumət qoşunlarına qarşı pulemyot və tüfəng atəşi açılar. Hökumət qoşunları da atəş açıb müntəzəm müharibə başlanar. Düşməndə top yox idi, pulemyotları da az idi. Hökumət qoşunları nahaq qan tökülməməkdən ötrü ancaq müdafiəyə başlayıb hücuma keçməz. Top 10 ədəd güllə buraxmışdır. Axşam saat 5-də asilər öz nümayəndələrini göndərib təvəqqe etmişlər ki, atəş kəsilsin və onlara da dağılmağa fürsət verilsin və bəyan etmişlər ki, bunların məqsədi siyasi olmayıb, şəriət üzərinə Dağıstanın idarə edilməsidir. Fəqət hər kəsə məlum idi ki, bunlar bolşevik ruhunda yürüş edirdilər və məqsədləri də həbs edilmiş bolşevikləri xilas etmək imiş. Nümayəndələr buraxılıb, fəqət tərəfi-müqabil atəşi kəsmədiyindən, hökumət qoşunları da atışmada davam edirdilər.

Saat 7-də atəş qətiyyən kəsilər. Düşmənlər qaranlıqdan istifadə edərək qaçarlar. Bunlar öz ölənlərini və yaralılarını da özləri ilə bərabər aparmışlardır. Ona görə də düşmən tələfatının miqdarı məlum olmamışdır. Bizdən ölən yox, yalnız iki nəfər yaralanmışdır. Şəhər dərhal idareyi-əsgəriyyə altında elan edilib axşam saat 9-da küçələrdə heç kim görünməyirdi.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 25 may (Bazar günü) tarixli 187-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Müharibə zamanı şəhərdə qanun pozulmamışdı. Həyəcan da yox idi. Küçələrdə bir çox gəzənlər var idi, hətta müharibə zamanı bir çox həvəslilər meydani-müharibəyə tamaşa edirlərdi. Səhər açılandan şəhər ətrafında bir nəfər belə yox idi. Dünən burada toplar guruldadığını xəyala belə gətirmək olmazdı. Şimdi Teymurxanşurada həyat öz qaydası ilə gedir. Bolşeviklərin işi təqib edilir.

**Petrovsk hadisələri**

Dağıstan Hökumətində təbəddülat [dəyişiklik] əmələ gəldiyi üçün Dağıstanda böyük hadisələr gözlənir. Mayın 21-ində axşam Petrovska birinci kazak eşelonu varid olmuşdur [çatmışdır]. Ayın 22-sində eşelonların vürudu [daxil olması] davam edirmiş. Kazakların vürudundan bir neçə gün əvvəl Petrovskda siyasi həbslər başlanmış imiş. Könüllü qoşunların zabitanı [zabitləri], Həmkarlar İttifaqı sədri Fribus və Maksimovu və İttifaqın sair üzvlərini həbs etmişlərdir. Könüllülər varid olan eşelonları musiqi dəstəsi ilə qarşılayıb şəhər milli rus bayraqları ilə təzyin edilmiş [bəzədilmiş] imiş. Şəhərin 70 verstliyində kazaklar qatara əyləşirlər. Relsləri qaldırılan yerləri onlar piyada gəlirlər. Bunlar əvvəlcə Tixoretskdə olaraq Rostova getməli imişlər. Afşəran alayının yerdə qalanları Petrovska varid olmuşlardır. Çox hissəsi isə çeçenlərə təslim olmuşlardır. General [M. M.] Xəlilov hökumətindən əhali razı deyildir. Petrovsk ilə Şura arasında əlaqə kəsilir.

## ZAQAFQAZİYA KONFRANSINDA

Müxtəlif məsələlərə baxmaq üçün Zaqafqaziya Konfransı nəzdində təşkil edilən komissiyaların dəfələrlə iclası olmuşdur. Komissiyaların işi müvəffəqiyyətlidir. Bir çox məsələlərdə komissiyalar müəyyən qərara gəlmişlərdir.

Pəncşənbə [cümə axşamı] günü mayın 22-sinə gündüz saat 12-də Xariciyyə Nəzarətində sərhəd, maliyyə, dəmiryol və köçəri məsələlərinə baxan komissiyalarla Zaqafqaziya Konfransının birinci iclası təyin edilmişdir. Bu iclasda komissiyaların işləri haqqında məruzələr təqdim edilib, həmçinin komissiyalara lazımi düsturüləməllər [təlimatlar] veriləcəkmiş. Qaçqınlar məsələsinə baxan komissiya öz arasından əlahiddə bir komitə vücuda gətirmişdir. Bu komitəyə Zaqafqaziya cümhuriyyətlərinin hər yerindən iki nümayəndə daxil olmuşdur. Bu komissiyaya Daxiliyyə Nəzarəti nəzdində olan Qaçqınlar Komitəsinin sədri Çikvaidze sədr intixab edilmişdir [seçilmişdir]. Azərbaycan Hökuməti tərəfindən Xan Xoyski, Ermənistan tərəfindən İvanyans müavini-sədr intixab edilmişlərdir. Komitənin divani-rəyasəti bu üç nəfərdən ibarətdir. Komitə iclasları Daxiliyyə Nəzarətində vaqe olacaqdır. Mayın 19-da bu komitənin birinci iclası vaqe olmuşdur. Qaçqınları öz yerlərinə köçürüb hallarını düzəltməkdən ötrü ümumi əsaslar hazırlanmışdır. Heyəti-rəyasətin məruzəsinə baxmaqdan ötrü mayın 20-sinə ümumi iclas təyin edilmiş imiş.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin qaçqınları su və dəmiryolu ilə yollamaq üçün 100.000 manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyon fonddan Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə 100.000 manat buraxılsın.

* Hərbiyyə nazirinin müsəlman alayı əsgəri Tanrıverdi Əliqulu oğluna maaş təyin etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə nazirinə tapşırılsın Tanrıverdi Əliqulu oğluna birdəfəlik 2.000 manat versin.

* Maliyyə nazirinin yeni güşad edilən [açılan] müvəqqət Ağdam xəzinəxanası xidmətçiləri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzəni təsviblə [bəyənməklə], təsdiq üçün Məclisi-Məbusana idxal edilsin.

* Hərbiyyə nazirinin Gəncə Hərbiyyə məktəbi və süvari alaylarına məvacib ilə musiqi müəllimi təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın. Müəllimin məvacibi ayda 1500 manat olmalıdır.

* Hərbiyyə nazirinin əsgərlik vaxtı təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxal edilsin.

* Hərbiyyə nazirinin hərbi qulluqdan vəzifə və nam ilə azad edilmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

* Hərbiyyə nazirinin Azərbaycan Hərbi məhkəmə məmurları təsdiqi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Müvəqqəti Azərbaycan Hərbi Məhkəməsi sədarətinə qəbul edilmiş general-mayor [V. İ.] Dubrovskini, hərbi prokuror Samburskini, hərbi sudya [hakim], sabiq Gəncə nahiyə məhkəməsi prokuroru müavini Yastrebovu, hərbi müstəntiqlər Gəncə dairəsi sülh sudyası [Heydər bəy] Şahtaxtinskini, fövqəladə işlər məhkəmə müstəntiqi [İsmayıl bəy] Şahmalıyevi və məhkəmə sudyası müavini [Viktor Aleksandroviç] Batalini öz vəzifələrində təsdiq etməlidir.

* Hərbiyyə nazirinin öz dəftərxanasına 7-ci sinif məmuru ixtiyarı ilə tərcüman təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək məxaric Hərbiyyə Nəzarəti tərəfindən verilsin.

* Darülfünun komisyonu və komisyonun məxaricatı haqqında Maarif nazirinin məruzəsindən sonra qət edilmişdir:

Darülfünun komisyonu qanunu təsvib edilir. Fəqət, bir milyon rublə buraxılmasına dair 6-cı maddə çıxarılmalıdır. Əvəzində isə Maarif Nəzarətinə tapşırılsın ki, təsdiq üçün qanun layihəsi tərtiblə Məclisi-Məbusana idxal edilsin. O vaxtadək 20 milyon fonddan komisyon məxaricatı hesabına 50 min rublə buraxılsın.

* Məsai [Əmək] nazirinin "Kontrol", "Marqarita" nam [adlı] barkaslar və "Beketov" nam vapor xidmətçilərinin istidaları [xahişləri] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Rədd edilsin.

* Daxiliyyə nazirinin Həcz [Müsadirə] Komitəsinə vermək üçün 21600 rublə buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyon fonddan Həcz Komitəsinə verilmək istənilən məbləğ buraxılsın. İş-bu komisyon yeni xüsusi Həcz Komitəsi təşəkkülünədək öz fəaliyyətində davam edəcəkdir. Xüsusi Həcz Komitəsi təşkilinə dair məruzə təqdimi Daxiliyyə nazirinə tapşırılsın.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Bələdiyyə İdarəsi nəzdindəki müsri [yoluxucu] xəstəliklərlə mübarizə edici təşkilat müşavirəsinə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] nümayəndəliyinə [K.] Günter təyin edilmişdir.

- Hal-hazırda Gəncə vilayətində Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti himayəsində 12.090 adam vardır. Bu vaxtadək orada 60 nəfərlik bir xəstəxana, 80 uşaq üçün bir darüleytam [yetimxana] mövcud olub, şəhər xəstəxanası cənbində [nəzdində] də müsri xəstəliklər üçün 20 yataq qonulmuşdur. Hal-hazıradək qaçqınlara işbu surətlə müavinət göstərilmişdir: Xəstəxanada 1000 nəfər qaçqın var idi; onların 700-ü islam, 300-ü erməni. Ambulatoriya xəstələri 3710 nəfər; onlardan 2704 nəfəri islam, mabaqisi [qalanı] erməni. Hal-hazırda İrəvandan gəlmiş qaçqınları yerləşdirmək və saxlamaq məsələsi ciddi əhəmiyyət kəsb etməkdədir.

- Baş Fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, sabiq Şura müəssisələri xidmətçiləri ilə hesablaşmaq üçün xüsusi Təsviyə [Ləğvetmə] Komisyonu təşkil edilmişdi, İngiltərə komandanlığı kontrolu təhtində [nəzarəti altında] fəaliyyətdə bulunurdu. Xalq təsərrüfatı da Şura müəssisəsi olduğu üçün həman Təsviyə Komisyonu ilə hesablaşmalı idi. Binaəni-leyh [ona görə], həman xidmətçilərə Azərbaycan dövləti heç bir pul verməyə məcbur deyildir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti, Ticarət və Sənaye və Ərzaq Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Yevlax mövqifindən [stansiyasından] Nəzarətin Bakıdakı mərkəzi anbarı üçün iki vaqon buğda buraxılsın.

- Martın 27-sində müsəlman darüleytamındakı [yetimxanasındakı] "Ətfal günü" [uşaqlar günü] 15 zəvat [şəxs] ianə vermişdir: İbrahimov, Muxtarov 200 rublə, Şeyxzamanov, Ağayarzadə, Tağıyev, Hacıbababəyov, Axundov 100 rublə, Ağazadə 75 rublə, Mirzəyev, Abdulla, Qədimbəyovlar, Əliyev, Sultanov, Tamayev 55 rublə, Qurbanov 30 rublə, Bilqeyis xanım, Ağayarzadə, Vəkilov, Topçubaşov, Topçubaşova (S. x.) 25 rublə, Abdullayev, Bağırov 25 rublə, Cavanşirov 18 rublə, Ədil Seyfur xanım Məşhədi Novruz qızı 30 rublə, Hacıyev 5 rublə. Cümlətanı 1553 rublə. Nəzarət bütün ianə edən zəvata izharı-təşəkkür edir.

- Bakıdakı İngiltərə komandanlığı bir neçə vaxt bundan əvvəl Azərbaycan hökumətindən fəhlələrə avqust avansı və tarifə məvacibi vermək üçün 3 milyon 800 min rublə pul istəmişdi. Maliyyə Nəzarəti İngiltərə ərkani-hərbinə [hərbi qərargahına] mayısın 23-ündə 3 milyon rublənin verilməsini məlum etmişdir.

- İngiltərə komandanlığı Məsai Nəzarətinə müraciətən 800 min rublənin verilməməsinin mümaniətlər [maneələr] çıxaracağını qeydlə, verilməsini rica etmişdir.

- Dövləti mərmi zavodu xidmətçiləri və fəhlələri Məsai Nəzarətinə müraciətən məlum etmişlər ki, işbu sənənin 18 dekabr qanununa müvafiq, dövləti xidmətlərdə olanlara maaş verilməlidir. Mərmi zavodu da dövləti müəssisə olduğu üçün həman maaşı almalıdır. Halbuki, bu vaxtadək maaş alınmamışdır. Komitə rica etmişdir ki, fəhlələrin maddi cəhətdən üsrətlərini [çətinliklərini] nəzərə alaraq, Məsai Nəzarəti həman maaşın təcili surətdə verilməsi barəsində lazımi binagüzarlıqda [sərəncamda] bulunsun.

- Bibiheybət Neft Cəmiyyəti mədənləri xidmətçiləri Məsai Nəzarətinə müraciətən məlum etmişlər ki, tətil zamanı işləməməklərindən dolayı dörd nəfər fəhləni xidmətdən kənar edərək, əlavəni 1917-ci sənə məvacibləri üzrə vermişlərdir. Halbuki üç [xidmətçinin] və yaxud xidmətdən çıxarılan başqalarının məvacibləri axırıncı məvaciblər üzrə verilmişdir. Fəhlələr rica etmişlər ki, bu barədə lazımi binagüzarlıqda bulun[ul]sun.

## QARANLIQ SƏSLƏR

Gecə zülmətli... Lampalar sönmüş,
Bir sükuti-əmiq içində cahan.
Yox səda, sanki sərtəsər aləm
Qara örtüklü bir məzaristan.

Hərəkət yox havada, ulduzlar
Qırpıyorlar şəfəqli gözlərini.
Duyamaz kimsə onların səsini,
Anlamaz şairanə sözlərini.

Pianonun öpmədə sədəflərini
Fil dişindən yonulma barmaqlar.
Gecə keçmiş, nə istəyir pianon,
Nə üçün öylə müztərib ağlar?

Nə üçündür ey aşina dilbər,
Nə üçündür o dilnişin səslər?

Ah, əmin ol zəhərli nəğmələrin
Uyuyan qəlbi dağidar etməz.
Gecənin yırtaraq qaranlığını
Yüksəlib göylərə fərar etməz...
Ox, qaldır şu süslü pərdələri
Pəncərəndən səmanı seyr et, bax.
Nə qədər xoş səmada ulduzlar,
Nə qədər yer üzündən onlar uzaq.

Orda, derlər ki, bir səadət var,
Daha fövqündə ərş, cənnət var...

Ah, tərk et bu qəmli nəğmələri,
Bir səda yoxmu ruhu şad edəcək?
Pək əbəs məncə etdiyin bu təlaş,
Səsini kəhkəşan eşitməyəcək.

Çaldığın nəğmə ruhu ağladıyor,
Öylə bir nəğmə çal ki, güldürsün.
Ruhu tə'zib edən bu şübhələri
Əbədiyyən könüldə öldürsün.

*Ayn. Y.*

## BAKI XƏBƏRLƏRİ

**Erməni qaradovoylarının siyahısı**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən məlum etmişdir ki, Bakı və Balaxana-Sabunçu qalabəyilərindən [komendantlarından] həman polis idarələrinin erməni qaradovoylarının miqdarı istənildiyinə baxmayaraq, bu vaxta qədər siyahı təqdim edilməmişdir. Böylə siyahı erməni qaradovoyları çox olan şəhərdə 5-ci uçastokdan təqdim edilməlidir. Bu siyahılar şimdi Daxiliyyə Nəzarətinə lazım olduğu üçün tezliklə təqdim edilməsi qubernatordan rica olunur.

**Erməni süvari polis nəfəratı**

Bakıdakı Erməni Milli Şurası, Məclisi-Məbusanın Daşnaksutyun fraksiyonu Bakı qubernatoruna müraciətən rica etmişlər ki, Bakı polis uçastoklarında süvari erməni nəfəratı [nəfərləri] qaradovoylar dəstəsi təşkil edilməsinə icazə verilsin.

**Rus afiserlərinin siyahısı**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən rica etmişdir ki, tezliklə Bakıda sükunət edən [yaşayan], Azərbaycan qulluğunda olmayan rus afiserlərinin [zabitlərinin] siyahısı ona təqdim edilsin.

**Müəllimlər İttifaqında**

Ötən yekşənbə [bazar] günü 18 mayıs Bakı şəhərinin Doqquzuncu Türk məktəbində ümum müsəlman müəllim və müəllimələrinin ictiması vaqe oldu [iclası baş tutdu] və bu iclasda Ağababa İsrafilbəyzadə cənablarının sədarəti ilə Bakı və Ətrafı Müsəlman Müəllimləri İttifaqına yeni bir idarə təşkil oldu və idarəyə 9 nəfər üzv və 5 nəfər namizəd və 3 nəfər müfəttiş və 2 namizəd intixab etdilər [seçdilər].

İdarə üzvləri bunlardır:

1) Ağababa İsrafilbəyzadə - sədr;
2) Ağaəli Qasımzadə - müavini-sədr;
3) Baba bəy Səfərəlibəyzadə - xəzinədar;
4) Məhəmməd Əmin Əfəndizadə - katib;
5) Abdulla Şaiq Talıbzadə;
6) Mirzə Hüseyn Axund Nəsir oğlu Axundzadə;
7) Əliməhəmməd Mustafazadə;
8) Hüseyn Cavid əfəndi;
9) Məhəmmədqulu Hüseynzadə.

İdarə namizədləri:

Rəşid bəy Əfəndizadə, Camo bəy Cəbrayılbəyzadə, Xudaverdi Kələntərzadə, Abbasqulu Vəlixanzadə, Abdulla bəy Abaşidze.

Təftiş komissiyası əzaları:

Rəhilə xanım Hacıbababəyzadə, Vəsilə xanım Musabəyzadə, Nigar xanım Vəlibəyzadə.

Bunlara namizədlər:

Rza Zaki əfəndi və Mirzə Rövşən bəy.

22 Mayıs 1919 sənədə

Bakı Türk [Müəllimləri] İttifaqı tərəfindən Gəncə vilayəti Türk Müəllimləri İttifaqına bu məzmunda bir teleqraf çəkilmişdir:

Bakı vilayəti Türk Müəllim və Müəllimələri İttifaqı müqəddəs vəzifəsini layiqi ilə anlayaraq ifaya çalışmış möhtərəm ciddi milli müəllimimiz Mirzə Abbas Abbaszadə cənablarının 25 sənəlik xidmətini təqdir edərək, göstərdiyi fədakarlıqlardan dolayı saf bir türk qəlbi ilə alqışlar və təbrik edər. Bəzi səbəblərə görə yubileylərində isbatı-vücud [iştirak] edəmmədiyimizdən dolayı bəyani-etizar və təəssüf edəriz [üzr və təəssüfümüzü ifadə edirik], əfəndilərim!

*İttifaq*

**Bələdiyyə İdarəsində**

Elektrik Cəmiyyəti, Bələdiyyə İdarəsinə məlum etmişdir ki, soqaqlarda lampalar axşam saat 6-da yandırılaraq səhər saat 6-da söndürülür. Halbuki, saat 8 radələrində hava qaranlıqlaşaraq səhər saat 4 radələrində işıqlanır. Böyləliklə, elektrik qüvvəsi bica işləndiyi kimi, lampalar da xarab olur. Cəmiyyət rica etmişdir ki, bu barədə lazımi iqdamatda bulunulsun [addımlar atılsın]. Zira lampalar xarab olarsa, tapmaq ziyadəsincə müşküldür.

**Maştağa kəndində**

Həmin mayıs ayının 21, 22, və 23-cü günləri kəndimizdə dükan və bazar qapanıb, Ağaseyid Kazım Yəzdi mərhumun vəfatı münasibətilə əhali məscidə cəm olub mərasimi-təziyədari icra olundu və həmin günlərdə təziyəyə təşrif gətirən əhaliyə birər stəkan şirin çay və axırıncı gün min nəfərə qədəri füqəraya xörək ehsan edilib, zikr olunan ehsanlar kəndimizin ziyalı əyanı Ağa Miribrahim Hacı Mirabutalıb oğlu Hadizadə tərəfindən xərc olunmuşdur.

*Mətləb Hüseynzadə*

Həmin may ayının 16-sında 3-cü polis qaradovoyu Yusif Hacıbaba oğlu və Maştağa polis qaradovoyları Abdulla Aslan oğlu, Mirzə Həsən Cəbrayıl oğlu, Bəhmən Hüseyn oğlu və Rza Vəli oğlu, kənd əhalisindən Qardaş Yoldaş oğlu, Salman Hüseynqulu oğlu və Atamoğlan Məhəmməd oğlu Bilgəh qəryəsi [kəndi] sahilinə gedib oradan tüfənglə yüklənmiş bir lodkanı [qayığı] tuturlar. Silahlarını alıb, bədəhu [sonra] 5 min manat para alandan sonra silahların bir hissəsini verirlər. "Müsavat" şöbəsi heyəti-idarə əzalarından [idarə heyəti üzvlərindən] Məhəmmədhəsən Şeyxməhəmməd oğlu bu işdən polis şöbəsi müdiri Məcid Qasımovu xəbərdar eyləyir. Qasımov cənablarının ciddi fəaliyyətini tələb edir. Müdir cənabları rüşvətxorlardan aldıqları paralarını aşkar edib nə yapdıqlarını sözlə açırlar. Böylə rüşvətxorların hökumətimizə müzirr [zərərli] olduğunu nəzərə alıb, Qasımzadə cənabları bunlara şiddətli cəza verdikdən sonra, təhti-məsuliyyətə [məsuliyyət altına] verməkçün onları həbsə vermişdir. Ümidvarız böylə xainlərin bir daha camaat arasına çıxmamalarından ötrü hökumət ciddi tədabirdə bulunar.

*S. B. Axundzadə*

## AZƏRBAYCANDA

**Gəncədən**

Təxminən bir ay bundan əvvəl "Müsavat" firqəsinin Gəncə şöbəsinin təşəbbüsü ilə Gəncə Türk Sənətkarları İttifaqı da yenidən çalışmağa başladı. 18 nisanda [apreldə] əski heyəti-idarə tərəfindən iclasi-ümumi dəvət olunmuşdu. İranlılar məscidinin salonu türk işçiləri ilə dolu olduğu halda sədr dəmirçi Məşhədi Yusif Fərzixanov məclisi açaraq təxminən zirdəki [aşağıdakı] sözləri dedi:

– Qardaşlar! Özünüzə məlumdur ki, biz türklər 1905-ci sənəyə qədər bütün mətaları qonşumuz ermənilərdən alırdıq. Gəncə əhalisinə nə lazım olurdusa, xaricilər hazır edib bizə satırlardı. İştə 1905-ci sənədən etibarən Türk Sənətkarları İttifaqı təşkil etdik. O gündən etibarən mən bu ittifaqa sədr və [Heydər] Heydərzadə cənabları isə katib intixab olunubdur [seçilibdir]. İttifaqın səy və qeyrəti sayəsində şükürlər olsun sənətcə irəliləmişik. Bunu heç kəs inkar edə bilməz. Zira şimdi hər növ sənətdən anlayar və bacarar mükəmməl ustalarımız mövcuddur. Ancaq makina idarə edəcək texnika işindən anlar ustalarımız yoxdur. Yarın xaricilər gedərlərsə, makina və zavodlarımız işləməyəcəkdir. Hökumətimizdə işlər yatarsa, yaxşı olmaz. Binabərin [buna görə], biz gərək bu yolda çalışaraq, makina və motordan anlar türk texnikləri meydana qoymaqla cümhur hökumətimizə yardım eyləyək. Qardaşlar! Xatirinizdədirmi əski zamanda şəhərimizə zavodlardan nal-filan gəlməyirdi. O vaxtlar əhalimiz bizim çəkicimizin altından çıxma qaba nalları-filanları işlədirdilər. Fəqət indi tərəqqi sayəsində az zəhmətlə ustalarımız gözəl-gözəl ucuz şeylər meydana qoyurlar. Buna binaən [buna əsasən], biz balalarımızın alim, sənətkar olması üçün çalışmalıyız. Bizim övladlarımız müasir ixtiraçı türk sənətkarı olmalıdırlar. Yadımızdan çıxarmamalıyız ki, Dağıstanlı işçi qardaşlarımız əsgərlərimizə şal toxuyub verməklə bizə böyük xidmət etmişlərdir. Bizdə də əlbi-səlik şal toxuyanlar olmalıdırlar.

Söz çoxdur, söyləməklə tamam etmək olmaz. Keçəlim ruznamə [gündəlik] müzakirəsinə. Qonulan məsələlər bundan ibarətdir:

1) İdarənin fəaliyyəti barəsində məruzə;
2) Yeni heyəti-idarə seçkisi;
3) "Qənaət" dükanlarının dəftərləri barəsində;
4) Sülh, maarif və maliyyə komisyonları intixabı.

Bədəhu [sonra] katib Heydərzadə müfəssəl məlumat verdikdən sonra, idarənin bir sənədən ziyadə işləməməsinə səbəb Osmanlı komandanlığının yığıncaqları mən [qadağan] etməsi və anarşi bais olmuşdur, deyir. Bir qədər danışıqdan sonra qərar qoyulur ki, əski idarə yerində qalsın. Əski idarə bundan ibarətdir:

Sədr: Məşhədi Yusif Fərzixanov (dəmirçi); müavinlər: Məşhədi Məhərrəm Tağızadə (mıxçı); İsa Axundzadə (çəkməçi); katib: Heydər Heydərzadə (çəkməçi); xəzinədar: Məşhədi Məhəmməd Hacı Məhərrəm oğlu (dabbağ).

Müfəttişlər: Məşhədi Məhəmmədəli Sadıq oğlu (aşçı); Hüseyn Novruzzadə (papaqçı).

Bədəhu "Qənaət" dükanı barəsində danışılır.

Baratzadə - Özünüzə məlumdur, Gəncədə bir "Qənaət" dükanı var idi. Həman dükana biz işçilər də çox paralar vermişik. Şimdi "Qənaət" dükanı qapanmış, paralarımızı geriyə ala bilməyirik. Mən təklif edirəm, kim ki "Qənaət" dükanına üzvdür, gələn cümə gününə kimi dəftərlərini İttifaqın heyəti-idarəsinə təslim etsin. İdarə də bizim paralarımızı tələb eyləsin və alsın.

Sədr - Bu barədə danışan varmı? *(Sükut)* Öylə isə, səsə qoyuram. Hər kəs Baratzadənin təklifinə razı isə əllərini qaldırsın. *(Əllər qalxır, birsəslə təklif qəbul olunur.)* Keçəlim 4-cü məsələyə. Sülh, maarif və maliyyə komisyonları intixabı.

Məşhədi Məhəmmədəli - Aramızda zühur edəcək ufaq ixtilafları bərtərəf etmək [aradan qaldırmaq] üçün Sülhverici komisyonu, İttifaqı maddətən təmin üçün Maliyyə komisyonu, oxu-yazı öyrətmək üçün Maarif komisyonu lazımdır. Binabərin [buna əsasən], mən təklif edirəm üç kişidən ibarət üç komisyon intixab olsun. *(Səslər: Lazımdır, lazımdır.)*

Sədr - Namizədlər göstərin, seçəlim.

Namizədlər göstərilir. Nəticədə bir-səslə Ağaməhəmməd Əlizadə, Məşhədi Əliqulu Alı oğlu, Hacı Ağabala Baba oğlu Sülh komisyonuna, Məşhədi Məhəmməd Kərim oğlu, Əli Məhəmmədzadə, Rüstəm Rüstəmzadə Maarif komisyonuna, Məşhədi Məhəmməd Əliməhəmmədzadə, Məşhədi Hüseynqulu Baratzadə və Məşhədi Məhəmmədəli Dünyamalı oğlu isə Maliyyə komisyonuna intixab olunurlar.

Sədr - Həzərat! Sizə bir məlumat verəcəyəm. İttifaq tərəfindən əsgərlərimiz Bakıya girərkən şəraflərinə tərtib olunmuş şənlik münasibəti ilə Hərbiyyə nazirinə bir teleqram vurmuşduq. Həman teleqrama cavab olaraq nazir həzrətləri ordu tərəfindən razılıq məktubu göndərmişdir.

Nazir həzrətlərinin məktubu iclasda isbati-vücud [iştirak] edən İttifaqi-Müəllimin [Müəllimlər İttifaqı] sədri müsavatçı İdris Axundzadə tərəfindən oxunur. Türk sənətkarları məktubu dinlədikdən sonra Milli Ordu və Baş komandana hörmət üçün ayağa qalxaraq qaibanə [onların qeybində] alqışlayırlar.

Sədr - Daha sözü olan varmı?

Bir işçi - Qardaşlar! Bu qaradovoylar bizi cana gətirdi. Gələr çay içər, pul verməz. Haqsız yerə döyər, söyər, əlacı bulunmaz. Bu işlərin çarəsini aramalıyız.

Baratzadə - Bu işləri yoluna qoymaq üçün qüvvə lazımdır. O qüvvə də bizdə yoxdur. Gərək siyasi firqələrin birinə qoşulaq, çalışaq, ta ki, işlərimiz doğru olsun. Mən münasib görürəm hamımız camaat qeydkeşi "Müsavat" firqəsinə arxalanaq, o bizə kömək eyləsin.

Bir sənətkar - Hər halda gərək biz bir firqə ilə çalışaq, hansı firqə işçi və zəhmətkeşin halına çox qalarsa, biz o firqənin bayrağına sığınaq.

İdris Axundzadə - Qardaşlar! Cümhur hökumətdə cəmiyyət və firqələr gərək hökumətə yardım eyləsin. Hər türk gərək özünü hökumət adamı hesab edərək müzahirətdə [köməklikdə] bulunsun. Yerli hakimlər arasında xain və zalım ola bilər. Gərək zalım və xainlərin hərəkətini təqib edən, cümhuriyyət əsasını qəbul eyləməyən məmurları, hakimləri qulluqdan kənar etdirib saf niyyətlə hər işə qarışa bilərik. Məlumunuzdur ki, "Müsavat" firqəsi birinci dəfə Azərbaycan sözünü meydana atdı, məramnaməsinin başında yazdı. Daxili və xarici düşmənlərlə çox mübarizədən sonra Azərbaycana və Azərbaycan sözünə hamını isinişdirdi. Düşmənlər türk xalqının tələbi qarşısında baş əydilər. Əmrivaqe [fakt] qarşısında qalaraq Azərbaycan istiqlalını qəbul etmişlər və etməkdədirlər. Şükürlər olsun, indi doğma yurdumuzda geniş-geniş nəfəs ala biliriz. "Müsavat" firqəsi şimdi daxili islahatla məşğuldur; cümhuriyyət əsasları[nın] məmləkətimizdə qövldən feilə [keçməsi] [sözdən işə keçməsi], dörd gözlə bəklədiyimiz Məclisi-Müəssisanın tez dəvət olunması uğrunda çalışacaqdır. Xəyanətləri və xain, zalım məmurları güdür, məhkəməyə verdirir. Zəhmətkeş fəhlə və rəncbərin hüququnu firqəmiz müdafiə etmişdir və edəcəkdir. Vilayətin hər nöqtəsində şöbəmiz olduğundan, polislərin-filanın kötü hərəkətlərini təhqiq üçün doğru adamlar göndərilir. Xainlər xidmətlərindən tərd olunaraq [qovularaq], məhkəmeyi-ədliyyəyə [ədalət məhkəməsinə] verilir. Bir də burada bir natiq dedi ki, biz işçi adamıq, firqəyə yazıla bilmərik. Əfəndilər! Mən müəlliməm. Özünüzə məlumdur ki, müəllimlər də fəhlədirlər. Müəllimlərin də sizin kimi ittifaqları vardır. Bununla belə, mən müsavatçıyam. Siyasi əqidə hamıya lazımdır. Sizdə də siyasi əqidə olmalıdır. Binabərin [ona görə], firqəyə yazılmalısınız. *(Ümumi sürəkli alqış.)*

Sədr - Biz İdris əfəndidən çox razılıq edək ki, bizim məclisimizə gəlibdir. Hər halda müəllimlərin bizlə çalışmasını, bizə yol göstərmələrini çox arzu edirik. Mən təklif edirəm, Gəncə Türk Müəllimləri İttifaqını və onun məclisimizdə hazır bulunan sədri İdris əfəndini alqışlayalım. *(Sürəkli alqışlar.)*

İdris əfəndi - Mən sizin salamınızı növbəti iclasımızda müəllimlərə yetirərəm və İttifaq namından [adından] indidən razılıq edirəm. *(Alqış.)*

Sonra sənətkarlar, İttifaqlarının nəfinə [xeyrinə] olaraq kəndi arzuları ilə bir min üç rublə ianə verərək saat bir radələrində dağıldılar.

Öz sənətkarlarımızın şayani-təqdir [təqdirəlayiq] hümmətləri hər kəsi məmnun edəcək dərəcədədir. Cənabi-Allah daha da atəşin çalışmaları üçün tövfiq [kömək] verər, inşallah.

*Gəncəli*

## ERMƏNİ QƏZETƏLƏRİNDƏN

Şuşa-Gorus poçt yolunda Zabux kəndinin ətrafında naməlum bədəfkarlar [canilər] 7 erməni öldürmüşlər. Bədəfkarları dərdəst edib [tutub] cəzaya çatdırmaq üçün ciddi tədbirlər ittixazını [tədbirlər görülməsini] İngilis Komandanlığı general-qubernator [Xosrov bəy] Sultanovdan tələb etdiyindən naşi [etdiyinə görə], həman yerlərə qoşun dəstəsi göndərməyə söz vermişdir.

**Gümrüdə**

Gümrüdən yazırlar ki, general Andranik 200 kişidən ibarət bir qoşun dəstəsi ilə oraya varid olmuşdur [getmişdir]. Amerika komitəsi küçələri təmizləmək və qeyri bu kimi işləri müvəqqətən müşa-rünileyhə [adı çəkilən şəxsə] həvalə etmişdir. Bələdiyyə rəisi neçə dəfə Qars general-qubernatoruna teleqrafən müraciət edib, Sarıqamış-Qaraurqan təriqindən [yolundan] həman qoşun nəfəratına [əsgərlərinə] yer verməyi təmənna etmişdir. Orada tez-tez axtarışlar olub, mükəlləfiyyəti-əsgəriyyəyə çatmış cavanları tutub qışlalara [kazarmalara] göndərirlər.

—

Qarsda olan Aleksandropol müsəlmanlarına general-qubernator hökm edib ki, qayıdıb öz yerlərinə getsinlər. Qars şəhərində evlərin yüzdə 95-i dağılmışdır. Bunların qismi-əzəmi [əksər hissəsi] yandırılıb, ya da sökülüb bilmərrə tərk edilibdir.

—

Qarabağdan "Aryo"nun müxbiri yazır: Ağdamdan şəhərə gələnlər deyirlər ki, məhəlli [yerli] polisəsinin binagüzarlığına [sərəncamına] görə, Ağdam bazarında ermənilərə azuqə satmaq qadağandır. Şuşa şəhərində həm müsəlmanlar ermənilərə iaşə satmayırlar.

Şəhərin erməni hissəsində olan poçta-teleqrafxananı Sultanov müsəlmanlar tərəfinə köçürmək fikrindədir. Həman idarənin məmurlarına təzyiqat icra edilir.

Həman Sultanovun binagüzarlığı ilə xəzinəxana qarovulu Azərbaycan əsgərlərinə həvalə edilmişdir. Bundan naşi [bundan ötrü] ermənilərin narazılığını nəzərə alıb ingilis nümayəndəsi general-qubernatora müraciət edərək qarovulun dəyişilməsini tövsiyə etmişdir. Xəzinədə olan külli məbləği başqalara etibar edəmməyəcəyini Sultanov müşarünileyhə [adı çəkilən şəxsə] xəbər vermişdir. Məsələ indiyədək açıq qalmışdır. Güman var ki, xəzinəxana qarovulu subaylardan [zabitlərdən] və Azərbaycan əsgərlərindən mürəkkəb olsun.

—

Varazabun kəndi sakini Əsriyan nam Pircamal kəndində olan 100 desyatin ziraət [əkin] yerini Amerikanın Şuşa komitəsinə ianə etmişdir ki, məhsulu Pircamal və ümum erməni zərərdidələrinə [zərərçəkənlərinə] sərf edilsin. Komitə nümayəndəsi doktor Harman ianəni xoşhallıq ilə qəbul etmişdir.


**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-132*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrinküncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Berlin Darülfününu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi M. B. Şternin**

Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə. Süni dişlər qayırır. Qızıl ənglər və damaqlar qayırır. Dişləri ağrısız çəkir.

*8757*

Doktor **M.M.Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*


**Elan**

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, Nəzarət tərəfindən Hidayət Səlimova 20 fevralda verilmiş 996 nömrəli kontrolluq şəhadətnaməsi ondan alınıb və bu gündən onun kontrolluq vəzifəsini ifa etməyə ixtiyarı yoxdur.

*Ticarət, Sənaət, Ərzaq naziri müavini (imza)*
*T-129*

**Elan**

Ticarət və Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, bu günə qədər xarici məmləkətə köhnə dəmir aparmaqdan ötrü verilmiş icazələr bir ay etibarlıdırlar. Həmin elan edilməmişdən əvvəl icazə almış olanların icazələri isə bir həftə etibarlıdırlar.

*Ticarət, Sənaət və Ərzaq naziri müavini (imza)*
*T-128*

**"Azərbaycan" qəzetəsi idarəsindən**

Kağız bahalanması və mətbəə əmələlərinin muzdları artması münasibətilə qəzetə nəşriyyatının xərci artıdığından, "Azərbaycan" qəzetəsi və sair qəzetələr müvəqqəti olaraq işbu mayın 25-dən qəzetənin qiymətini artırmağa məcbur olmuşdur.

Elan haqqı: 1-ci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.

**Elan**

Bununla ümuma elan edilir ki, Azərbaycan Hökumətinin 20 aprel 1919-cu ildəki qərardadına görə Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən xarici məmləkətlərə neft aparmağa mal mübadilə etmək şəraitilə icazə verilir. Aparılan neft və neft emalatı qiymətinin 50 faizi Nəzarətə rəhin (zaloq) təriqilə verilməlidir. Bu məbləğə Nəzarətin adına olaraq qeyri məmləkətlərdən birinci zəruri şeylər gətirilməlidir və gətirilən mallara Nəzarət bazar qiyməti ilə bütün mallara qiymət təyin edəcək və bu qiymətdən 25 faiz skonto [endirim] edəcəkdir.

Bu şəraiti əmələ gətirmək üçün 2 aylıq vaxt təyin olunur.

*Ticarət, Sənaət və Ərzaq naziri müavini Əliyev*
*T-55*

**Maliyyə Nəzarəti elan edir ki:**

Bu son zamanlarda anlaşıldığına görə, güclü bir surətdə sərhəd xaricinə bir çox gizli mallar, xüsusilə özümüzün birinci dərəcədə ehtiyacı olan yük, ərzaq aparılır. Buna binaən [buna görə], Nəzarət kəndisinə tərəttüb edən [üzərinə düşən] vəzifənin ifası üçün pişəzvəqt [qabaqcadan] əhalini xəbərdar edir ki, Cümhuriyyət xaricinə aparılan gizli mallar tutulduğu kimi tamamilə hökumət hesabına həcz [müsadirə] ediləcəkdir. Göndərən və aparan əşxas [şəxslər] isə qanunun (1910-da müntəşir Məcəlleyi-Qanunun 6-cı hissəsi) 1054[-cü] maddələri ilə təhti-məsuliyyətə [məsuliyyət altına] alınacaqdır.

*T-125*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Naxçıvan və Qarabağ***

"general Devi": qəzetdə "general Revi" kimi getmişdir.

***Ermənistanın vüsəti***

"Haykakan": qəzetdə "Haykan" getmişdir.

"xülusi-qəlblə": qəzetdə "xilasi-qəlblə" getmişdir.

"coğrafi (?) və siyasi şəraitin… nə kimi üsuldan (?) ibarət": sual işarələri qəzetdə getmişdir.

"Şərqdə (?) propaqanda yapsınlar": sual işarəsi qəzetdə getmişdir.

"F. A.": bu imza Fərhad Ağazadəyə məxsusdur.

***Teleqraf xəbərləri***

"Aleksandrovsk-Fort": İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

"barj": adətən yedəkdə çəkilən böyük yük gəmisi.

***Ümidsizlik zəf nişanəsidir***

"Şeyx Sənan mələklərinin": gürcü qızları nəzərdə tutulur.

"altı vilayət": Burada söhbət Osmanlı dövlətinin Ərzurum, Van, Mamürətüləziz, Diyarbəkir, Sivas və Bitlis vilayətlərindən gedir. Bu vilayətlər, Rusiya və Qərb dövlətləri tərəfndən, bölgədə erməni dövləti qurulması layihəsinin tətbiq sahəsinə çevrilmişdi. Bu vilayətlərə "Ermənistan" yaxud "Erməni vilayətləri" deyilməyə San-Stefano və Berlin sülh müqavilələrindən sonra başlanmışdır. 1877-1878 Türkiyə-Rusiya müharibəsi nəticəsində 3 mart 1878-ci ildə imzalanan San-Stefano sülh müqaviləsinin XVI maddəsində bu bölgədən "Ermənistan" deyə söz edilmiş və Türkiyənin burada dərhal reformlara başlaması, həmçinin erməni əhalisinin təhlükəsizliyini təmin etməsi tələb edilmişdir. 13 iyul 1878-ci ildə imzalanan və San-Stefano müqaviləsinin Türkiyə üçün ağır şərtlərini müəyyən ölçüdə yüngülləşdirən Berlin müqaviləsində də bu bölgədən "ermənilərin yaşadıqları vilayətlər" deyə söz edilmiş və eyni tələblər təkrarlanmışdır.

"Konfrans müqərrəratı": Birinci Dünya müharibəsindən sonra çağırılan Paris Sülh Konfransı nəzərdə tutulur.

"…zəiflər üçün böyük ümidlər…": qəzetdə "zəiflər" yerinə "zə'flər" getmişdir.

"…müstəbidlərə mane olmaq…": qəzetdə "müstəbidlərə mane olmamaq" getmişdir.

"Vilson prinsipləri": Birinci Dünya müharibəsini yekunlaşdıran sülh müqaviləsi layihəsi. 14 maddədən ibarət olan bu layihə ABŞ prezidenti Vudro Vilson tərəfindən işlənib hazırlanmışdı.

***Dağıstan əhvalı***

"O zəvat bu günün şərəfinə...": qəzetdə "o zəvat" yerinə "o zat" getmişdir.

"O, sizin aranızda müşəvviqlərə qızıllar göndərir.": qəzetdə belə getmişdir: "O, sizin aranızda qızıllara müşəvviqlər göndərir."

"Milləti müşəvviqlərin, müfəttinlərin [fitnəkarların] dəsaisindən [hiylələrindən, intriqalarından] xilas etməyə çalışmalıyız": qəzetdə belə getmişdir: "Millətin müşəvviqlərin, müfəttinlərin dəsaisindən xilas olmağa çalışmalıyız"

"Afşəran alayının yerdə qalanları": burada, dislokasiya yeri Vladiqafqaz olan və bir çox müharibədə, o cümlədən Birinci Dünya müharibəsində iştirak etdikdən sonra, 1918-ci ildə bolşeviklər tərəfindən ləğv edilən 81-ci piyada Apşeron polkundan qalan əsgərlər nəzərdə tutulur.

***Vükəla Şurasında***

"barkas": əsasən liman daxilində istifadə olunan kiçik ölçülü gəmi.

***Nəzarətlərdə***

"Bələdiyyə İdarəsi nəzdindəki": qəzetdə "Bələdiyyə İdarəsi haqqındakı" getmişdir.

***"Qaranlıq səslər" şeiri***

üçün lüğət:
sükuti-əmiq: dərin sükut
sərtəsər: başdan-başa
müztərib: iztirablı, narahat
dilnişin: ürəyəyatan
dağidar: dağlı, yaralı
təzib etmək: əzab vermək, incitmək

***Bakı xəbərləri***

"Ağababa İsrafilbəyzadə": qəzetdə "Ağabəy İsrafilbəyzadə" getmişdir.

***Ermənı qəzetələrindən***

"Aryo": erməni qəzeti.

# Meksikalı diplomatlar İrandan Azərbaycana təxliyə ediliblər

"Astara" dövlət sərhədindən buraxılış məntəqəsində xarici ölkə vətəndaşlarının təxliyəsi davam edir. Təxliyə olunanlar arasında meksikalı diplomatlar da yer alıb. Yaşanan hadisələr və təhlükəsizlik səbəbindən diplomatik heyət Azərbaycanın dəstəyi ilə İranı tərk edib.

AZƏRTAC xəbər verir ki, təhlükəsizlik tədbirlərinin tam təmin olunduğu təxliyə prosesi əvvəlcədən razılaşdırılmış prosedurlara uyğun həyata keçirilib.

Meksikalı diplomatlar təxliyəsonrası Azərbaycan hökumətinə və xalqına təşəkkürünü bildirib.

Qeyd edək ki, bəzi xarici ölkələr Azərbaycan hökumətinə müraciət edərək, İranda olan vətəndaşlarının Azərbaycanın ərazisindən tranzit keçid yolu ilə öz ölkələrinə qayıtmasına şərait yaradılmasını xahiş ediblər.





# Ermənistanın tarixi faktları saxtalaşdırmaq cəhdi onun sülh prosesinə xələl gətirmək səylərinin daha bir nümunəsidir

**Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinin "İstanbul Bəyannaməsi" və İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasında qəbul edilmiş qətnamələrlə bağlı iyunun 23-də verdiyi əsassız bəyanatı qətiyyətlə rədd edirik.**

Ermənistanın bu sənədlərin məzmununu təhrif etmək və tarixi faktları saxtalaşdırmaq cəhdi onun sülh prosesinə xələl gətirmək və beynəlxalq ictimaiyyəti çaşdırmaq səylərinin daha bir nümunəsidir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını şərh edərkən deyib.

O bildirib ki, İƏT-in qəbul etdiyi qətnamələr, o cümlədən "indiki Ermənistan ərazisindən zorla və sistemli şəkildə qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququ" adlı qətnamə tarixi faktları əks etdirir və beynəlxalq hüquqa, ədalət prinsiplərinə əsaslanır. Ermənistanın iddialarının əksinə olaraq, azərbaycanlıların indiki Ermənistandan sistemli şəkildə qovulması könüllü deyil, zorakılıq, hədə-qorxu və insan hüquqlarının kobud şəkildə pozulması ilə yadda qalıb. İƏT-in azərbaycanlıların geri qayıtmaq hüququnu dəstəkləməsi Ermənistanın əsassız şəkildə təqdim



etdiyi "ərazi iddiası" deyil, ədalətə və onların fundamental hüquqlarının bərpasına çağırışdır.

A.Hacızadə qeyd edib ki, təxminən 30 il ərzində Azərbaycan ərazilərini qanunsuz işğal altında saxlayan və 700 mindən artıq azərbaycanlını köçkün vəziyyətinə salan Ermənistanın Azərbaycanın 2023-cü ildə ərazi suverenliyinin bərpası istiqamətində həyata keçirdiyi antiterror tədbirlərinə dair irəli sürdüyü iddialar da eyni dərəcədə əsassızdır.

İƏT-in Xocalı soyqırımı ilə bağlı Ermənistanın "təhrif olunmuş şərh" kimi rədd etdiyi qətnaməsi 1992-ci ilin fevralında Xocalıda qadın və uşaqlar daxil olmaqla, 613 dinc sakinin vəhşicəsinə qətlə yetirilməsi zamanı Ermənistan silahlı qüvvələrinin törətdiyi qəddarlıq barədə danılmaz həqiqəti bir daha təsdiq edir. İnsanlıq əleyhinə bu cinayət beynəlxalq insan haqları təşkilatları tərəfindən sənədləşdirilib və bir çox ölkələr tərəfindən tanınıb. Ermənistanın bu və digər hərbi cinayətlərə, o cümlədən işğal zamanı Azərbaycanın mədəni irsinin dağıdılmasına görə məsuliyyətini etiraf etməkdən yayınması onun sülh prosesində etibarını daha da sarsıdır.

"Ermənistanın sülhə sadiqlik iddiası onun hərəkətləri ilə uyğun gəlmir. Azərbaycan ardıcıl olaraq, ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət əsasında hərtərəfli sülh sazişinin tərəfdarı olduğu halda, Ermənistan dəfələrlə kritik məsələlər üzrə qeyri-konstruktiv mövqe nümayiş etdirməklə tərəqqiyə mane olub.

İƏT-in Ermənistanı gecikmədən sülh sazişinin imzalanmasına maneələri aradan qaldırmağa çağırması beynəlxalq ictimaiyyətin Cənubi Qafqazda davamlı sabitliyi təmin edən həll üzrə gözləntiləri ilə üst-üstə düşür.

Ermənistanın İƏT-in prinsipial mövqeyini siyasiləşdirmək və öz hərəkətlərinə görə məsuliyyətdən yayınmaq cəhdləri Azərbaycanı ədalətli və davamlı sülh əldə etmək səylərindən çəkindirməyəcək. Ermənistanı revizionist ritorikasından əl çəkməyə və tarixi məsuliyyətlərini etiraf etməyə çağırırıq", - deyə Azərbaycan XİN rəsmisi vurğulayıb.

# Müharibə dövründə Azərbaycanın cəbhə xəttindən uzaq şəhərlərinin bombalanması əmrinin Ermənistanın siyasi-hərbi rəhbərliyi tərəfindən verilməsi məhkəmədə bir daha təsdiqlənib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 23-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclasında təqsirləndirilən şəxs Arayik Harutyunyan prokurorların suallarını cavablandırıb. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran A.Harutyunyan baş ofisi İrəvanda yerləşən Ermənistanın "Hayastan" ümumerməni fondunun (həmin fond 1992-ci ildə Ermənistan prezidenti Levon Ter-Petrosyanın fərmanı ilə yaradılıb - red.) üzvü olduğunu, fondun bütün iclaslarında iştirak etdiyini deyib.

İddia edib ki, "Hayastan" fondu həm Ermənistanda, həm də qondarma rejimdə xeyriyyəçilik layihələri ilə məşğul olub. "Fond Qarabağda infrastruktur layihələri həyata keçirib. Məktəblərin və uşaq bağçalarının tikintisi, eləcə də digər xeyriyyəçilik layihələri ilə məşğul olurdu", - deyə o əlavə edib.

Təqsirləndirilən şəxs bildirib ki, fond üçün vəsaitlər nağd qaydada toplanmayıb, bank vasitəsilə köçürmə edilib.

A.Harutyunyan deyib ki, fondun ayırdığı vəsaitlər hesabına işləri həyata keçirən podratçıların Ermənistandan, yaxud qondarma rejimdən olmasının fərqi olmayıb: "Tenderdə kim qalib gəlirdisə, işləri onlar icra edirdilər".

Təqsirləndirilən şəxs Azərbaycanın vaxtilə işğalda olan suveren əraziləri ilə Ermənistan arasında əsas əlaqənin fondun vəsaiti hesabına çəkilən iki yolla (İrəvan-Gorus-Xankəndi və İrəvan-Basarkeçər-Xankəndi magistral yolları) olduğunu təsdiqləyib və əlavə edib: "Cənub istiqamətində də yollar mövcud idi, lakin bunlar əsasən torpaq yolları idi və onlardan elə də geniş istifadə olunmurdu. Əsas yollarda nəqliyyatın və yükdaşımaların həyata keçirilməsi ilə bağlı hər hansı qadağa yox idi. Lakin bəzi sahələr üzrə məhdudiyyətlər mövcud idi. Məsələn, meşə ağaclarının daşınması ilə bağlı məhdudiyyət tətbiq olunurdu. Sanitar sahələr üzrə nəzarət tədbirləri görülürdü, amma digər sahələr üzrə xüsusi məhdudiyyət yox idi".

O, həmin yollarla hərbi texnikanın daşınmasına da hansısa məhdudiyyət olmadığını bildirib.

İkinci Qarabağ müharibəsi dövründə fondun vəsaitlərindən istifadə olunmadığını da iddia edən təqsirləndirilən şəxs deyib: "Müharibə dövründə və sonrakı günlərdə xeyli vəsait - təxminən 100 milyon ABŞ dollarından artıq pul yığılıb. Bunların hamısı ev tikintisi üçün toplanmışdı".

A.Harutyunyan bildirib ki, 44 günlük müharibədən sonra həmin vəsaitlərlə bir neçə yaşayış məntəqəsinin tikintisinə başlanılıb, bir neçə asfalt yol çəkilib. Lakin evlərin tikintisi yarımçıq qalıb.

O, Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərinə Suriyadan və Livandan gətirilən şəxslərin qanunsuz məskunlaşdırıldığını da təsdiqləyib.

Əlavə edib ki, Azərbaycanla sərhədyanı bölgələrdə - Ermənistanın Gorus, Qafan rayonlarında yaşayan Ermənistan vətəndaşlarının bir qismi həmin vaxt işğal altında olan Zəngilan, Qubadlı və Laçın rayonlarına gələrək orada qanunsuz məskunlaşıblar: "Çünki həmin ərazilərdə xüsusilə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərmək üçün böyük imkanlar mövcud idi. Köçürülən şəxslər əsasən kənd təsərrüfatı işləri ilə məşğul olurdular. Siz Sünik rayonunun coğrafiyasını bilirsiniz. Orada kənd təsərrüfatı aparmaq üçün geniş imkanlar yoxdur. Zəngilan, Qubadlı və Laçın rayonlarında isə bu sahədə imkanlar daha çox idi".

A.Harutyunyan qanunsuz məskunlaşmaq üçün digər ölkələrdən gələnlərlə müqayisədə Ermənistandan gələnlərin xüsusi təşviq edilmədiyini söyləyib: "Biz onlara mane olmurduq. Onlar harada yaşamaq və nə ilə məşğul olmaq istədiklərini özləri seçirdilər".



O, Laçın və Kəlbəcər rayonunda erməni milliyyətindən olan şəxslərin sonradan qanunsuz məskunlaşdırıldığını təsdiqləyib: "Bu, sonradan olub. Əvvəllər Laçın rayonunda ermənilər yaşamayıb. Mənim bildiyimə görə, Kəlbəcər rayonunda da eyni vəziyyət olub".

A.Harutyunyan Cəbrayıl rayonunda təxminən 30 evdən ibarət "Araçamux" adlı yaşayış məntəqəsinin salındığını da deyib: "Bu evlərin tikintisi "Tüfingiyan" fondu tərəfindən maliyyələşdirilmişdi. Zabuxdakı evləri "Ari" fondu tikdirmişdi".

O, Kəlbəcərdə "Sidney" adlı yaşayış məntəqəsinin təşkil edildiyini, 25-dək evin tikintisini Avstraliyadakı erməni icmasının maliyyələşdirdiyini də söyləyib.

A.Harutyunyan qondarma rejimin büdcəsinin formalaşdırılması məqsədilə hər il Ermənistan büdcəsindən "faizsiz kredit" adı ilə vəsait ayrıldığını, lakin rejimin "ordusu"nun maliyyələşdirilməsində özlərinin rolunun olmadığını söyləyib: "Ordu" ayrıca maliyyələşdirilirdi (Ermənistan tərəfindən - red.). Biz "ordu" məsələlərində iştirak etmirdik".

A.Harutyunyan Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qondarma qurumun "bank sistemi" barədə də prokurorun suallarını cavablandırıb. O, özü də vaxtilə qondarma rejimdə fəaliyyət göstərən bank filiallarında çalışdığını bildirib. A.Harutyunyan qondarma rejimin əsas "bankı" kimi təqdim olunan "Artsaxbank"ın Ermənistan Respublikasının Mərkəzi Bankı tərəfindən qeydiyyatdan keçirilən bank olduğunu söyləyib. Bildirib ki, həmin bankın qeydiyyat yeri Ermənistan paytaxtı olub. Əlavə edib ki, həmin banka lisenziyanı Ermənistanın Mərkəzi Bankı vermişdi. Lakin baş filialı həmin vaxt işğal altında olan Xankəndi şəhərində fəaliyyət göstərib. Həmin bankın Azərbaycanın vaxtilə işğal altında olan digər ərazilərinin mərkəzi yerlərində də filialları olub. "O bankın Ermənistanın digər bankları ilə müqayisədə heç bir üstünlüyü, imtiyazı yox idi. Bankda uçot dərəcəsini də Ermənistan Mərkəzi Bankı müəyyənləşdirirdi", - deyə A.Harutyunyan əlavə edib.

Bundan başqa, vaxtilə işğal altında olan Azərbaycan ərazilərində Ermənistanın digər banklarının da filialları fəaliyyət göstərib. A.Harutyunyan filialların zərərlə işlədiyini də söyləyib.

Ardınca A.Harutyunyana baş prokurorun böyük köməkçisi Vüsal Əliyev tərəfindən Azərbaycanın vaxtilə Ermənistanın işğalı altında olan ərazilərdə qanunsuz fəaliyyət göstərmiş "Frank Muller Group", "Vallex Group", "Zolotaya Zvezda" və "Vallex Group"un tərkibindəki "Base Metals" şirkəti ilə bağlı suallar verilib. A.Harutyunyan həmin şirkətlərin 2008-ci ildən sonra fəaliyyət göstərdiyini bildirib. Təqsirləndirilən şəxs deyib: "Base Metals" şirkəti dağ-mədən sahəsində fəaliyyət göstərirdi. Onların fəaliyyəti əsasən "Drombon" (Heyvalı - red.) qızıl yatağının istismarı ilə bağlı 2008-2013-cü illəri əhatə edirdi".

"Base Metals"ın Azərbaycanın işğal altındakı ərazilərində fəaliyyət göstərən ən böyük şirkət olduğunu söyləyən təqsirləndirilən şəxs əlavə edib: "Təxminən 1500 işçisi var idi. Şirkət tərəfindən 25-30 milyon dollar vergi ödənilmişdi. Şirkətin direktoru Artur Mkrtumyan, sahibi isə Valeriy Mejlumyan idi".

A.Harutyunyan Zəngilan rayonundakı Vejnəli qızıl yatağına "Zolotaya Zvezda" şirkətinin 30 milyon dollardan çox investisiya yatırdığını, lakin layihənin uğursuz olduğunu söyləyib.

Təqsirləndirilən şəxs "Karabax Telekom"la bağlı suallara cavabında şirkətin sahibinin Livan vətəndaşı olduğunu, şirkətin 2001-2002-ci illərdən 2023-cü ilədək fəaliyyət göstərdiyini, 2008-ci ildən hər il orta hesabla 4-5 milyon dollar vergi ödədiyini deyib. Onun sözlərinə görə, bu şirkət qondarma rejimin ikinci ən böyük vergiödəyicisi olub.

Məhkəmənin davamında A.Harutyunyanın qondarma rejimin "rəhbəri" olduğu vaxtla bağlı sənədlər tədqiq edilib, ona bu istiqamətdə suallar ünvanlanıb. Sənədlərin birində o, 2020-ci ildə baş vermiş müharibə zamanı Azərbaycan tanklarını yararsız vəziyyətə gətirmiş hərbçiləri "təltif etdiyini" iddia edib.

Digər sənədə əsasən, A.Harutyunyan onun tapşırığı ilə Gəncə şəhərinə zərbələr endirildiyini söyləyir.

Prokurorun suallarını cavablandıran təqsirləndirilən şəxs Gəncə şəhərinin bombalanması barədə əmr vermədiyini bildirib: "Elə bir səlahiyyətim olmayıb".

O xatırladıb ki, qondarma rejimin "ordusu" Ermənistan Respublikası silahlı qüvvələrinin silahlı birləşməsidir: "Müstəqil hərəkət etmək səlahiyyəti olmayıb. Həmin birləşmənin bizə tabe olmaq, bizim təlimatları həyata keçirmək hüququ yox idi".

A.Harutyunyan, ümumiyyətlə, qondarma rejimin "ordusu"nun arsenalında dağıdıcı silahların ("Smerç", "Toçka U" və sair - red.) olmadığını da deyib: "Hansı bölmələrin və konkret kimin əli ilə həyata keçirilməsi barədə məlumatım olmayıb. Neft kəmərlərinin bombalanması haqqında isə mən burada eşitmişəm".

Məhkəmədə "Azərbaycan Hava Yolları" QSC-dən və digər əlaqədar qurumlardan daxil olmuş, təyyarələrin uçuşuna maneə törədilməsinə, habelə Xankəndidə və Xocalıda içərisində siqnalları qarışdırmaq üçün avadanlıq, PUA-ların siqnallarının vurulması sistemi və s. olan avtomobillərin aşkarlanması, onların ekspertizadan keçirilməsinə dair protokollar tədqiq edilib.

Baş Prokurorluğun dövlət ittihamçısı Vüsal Abdullayev A.Harutyunyana Azərbaycanın öz ərazilərini işğaldan azad etdikdən sonra həmin torpaqlarda tikinti-quruculuq işləri zamanı kütləvi məzarlıqların aşkarlanmasını xatırladıb və ona bu istiqamətdə suallar ünvanlayıb.

O isə işğal dövründə Ermənistan və qondarma rejim tərəfindən həyata keçirilən tikinti işləri zamanı kütləvi məzarlıqların aşkarlanmamasının səbəbini belə "izah" edib: "Bizim gördüyümüz bütün quruculuq işləri Azərbaycanın indi etdiyinin bir neçə faizini təşkil edib. Ona görə tapmamışıq…"

Təqsirləndirilən şəxs 44 günlük müharibə dövründə Ermənistanın baş nazirinin müavinlərinin, nazirlərinin, deputatlarının həmin vaxt Azərbaycanın işğal altında olan ərazilərinə gəldiyini təsdiqləyib və onlardan bir neçəsinin adını çəkib. Bildirib ki, bu şəxslər Ararat Mirzoyan, Suren Papikyan (Ermənistanın indiki müdafiə naziri - red.) və digərləridir.

Məhkəmə prosesi iyunun 30-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

